RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN



№ 263 (10008) 13 dekabr 2025-ci il ŞƏNBƏ

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR

# Əbədi ehtiramla









## Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Ümummilli Lider Heydər Əliyevin məzarını ziyarət ediblər

**Müasir müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu, dünyaşöhrətli siyasi xadim, xalqımızın Ümummilli Lideri Heydər Əliyevin vəfatından 22 il ötür.**

AZƏRTAC xəbər verir ki, dekabrın 12-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Leyla Əliyeva Fəxri xiyabana gələrək xalqımızın Ümummilli Lideri Heydər Əliyevin məzarını ziyarət ediblər.

Prezident İlham Əliyev Ulu Öndərin məzarı önünə əklil qoydu.

Azərbaycan Respublikasının Dövlət Himni səsləndirildi.

Dövlətimizin başçısı İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Leyla Əliyeva Ulu Öndərin ömür-gün yoldaşı, görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın da xatirəsini ehtiramla andılar, məzarı üzərinə gül dəstələri qoydular.

Tanınmış dövlət xadimi Əziz Əliyevin və professor Tamerlan Əliyevin də xatirələri yad edildi, məzarları üstünə gül dəstələri düzüldü.

## Prezident İlham Əliyev Ulu Öndər Heydər Əliyevlə bağlı paylaşım edib




Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyev Ulu Öndər Heydər Əliyevlə bağlı rəsmi sosial şəbəkə hesablarında foto paylaşıb.

AZƏRTAC xəbər verir ki, paylaşımda deyilir: "12 Dekabr - Ümummilli Lider Heydər Əliyevin Anım Günü".

## Birinci vitse-prezident Mehriban Əliyeva Ulu Öndərin anım günü ilə əlaqədar paylaşım edib




Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva rəsmi sosial şəbəkə səhifələrində Ulu Öndər Heydər Əliyevin anım günü ilə əlaqədar paylaşım edib.

AZƏRTAC xəbər verir ki, paylaşımda deyilir: "Dahi Heydər Əliyev. Xatirimizdədir, sevgi ilə anırıq".

## Ulu Öndər xalqımızın qəlbində əbədi yaşayacaq



Bu gün hamımızın qürur duyduğumuz güclü, qüdrətli müstəqil Azərbaycan dövləti hazırkı mərhələsinə asan yolla gəlib çatmamışdır. Yaxın tariximizdən məlumdur ki, ötən əsrin sonlarında yenidən müstəqillik əldə etdikdən sonra müxtəlif sosial-iqtisadi, siyasi problemlərlə üzləşən, vətəndaş müharibəsinin astanasında olan Azərbaycan öz müstəqilliyini itirmək təhlükəsi ilə qarşı-qarşıya qalmışdı. O dövrdə hakimiyyətdə olan qüvvələrin səriştəsizliyi ucbatından ölkədə ictimai-siyasi gərginlik dərinləşərək anarxiya həddinə çatmışdı. 1993-cü ilin iyununda Ulu Öndər Heydər Əliyevin xalqın təkidli tələbi ilə hakimiyyətə gəlişindən sonra qısa müddət ərzində ölkəmizi tənəzzülə sürükləyən proseslərin qarşısı qətiyyətlə alınmış, bundan sonra ictimai-siyasi sabitlik yaranmışdı.

Həmin gərgin günlərdə ölkəmizdə ictimai-siyasi sabitliyin qorunmasının, mövcud iqtisadi inkişafın, hərtərəfli tərəqqinin təməlində Ümummilli Lider Heydər Əliyevin güclü inkişaf strategiyası, müəyyənləşdirdiyi düzgün daxili və xarici siyasət xətti dayanır. Ulu Öndər Heydər Əliyevin Azərbaycan xalqı və dövləti qarşısındakı misilsiz tarixi xidmətləri nadir şəxsiyyətin fəaliyyətinin bütün mərhələlərini əhatə edir.

6

## ABŞ-dən tarixi qərar

### 907-ci düzəlişin tam ləğvi üçün qanun layihəsi təqdim edilib

ABŞ Prezidenti Donald Tramp, Azərbaycan Prezidenti İlham Əliyev və Ermənistanın Baş naziri Nikol Paşinyan avqustun 8-də Ağ Evdə mətbuata bəyanatla çıxışları zamanı ABŞ lideri bir daha bu məsələyə toxunaraq konkret fikrini bildirmişdi: "Biz həmçinin müdafiə sahəsində Azərbaycan ilə Amerika Birləşmiş Ştatları arasında əməkdaşlığa olan məhdudiyyəti aradan qaldırırıq. Bu həm Sizin və həm də mənim üçün əhəmiyyətli məsələdir. Bir Prezident olaraq mənim ən böyük istəyim dünyada sülhün və sabitliyin bərqərar edilməsidir".

Prezident İlham Əliyev isə öz növbəsində qeyd etmişdir ki, ABŞ Prezidenti Donald Trampın 1992-ci ildə qəbul olunmuş "Azadlığa Dəstək Aktı"nın 907-ci düzəlişinin icrasını dayandırması Azərbaycan iqtisadiyyatına qarşı illərlə tətbiq olunmuş ədalətsiz məhdudiyyətlərin aradan qalxmasına şərait yaratmış olub. Bu qərar iqtisadi əməkdaşlıq imkanlarını genişləndirən mühüm addım idi.

Beləliklə, 33 il sonra Azərbaycan Prezidentinin qətiyyətli xarici siyasəti nəticəsində sözügedən düzəlişin ləğv ediməsi gündəmə gəldi.

Son məlumatlara görə, ABŞ Nümayəndələr Palatasının üzvü Anna Paulina Luna 907-ci düzəlişi tam ləğv etməyə yönəlmiş qanun layihəsini təqdim edib. Bu barədə məlumat Konqresin saytında yerləşdirilib.



"Rəsmi Bakı Azərbaycanla ABŞ arasında münasibətlərin inkişaf perspektivləri, Azərbaycanın geniş regionda artan rolu nəzərə alınaraq, ABŞ tərəfinin bu düzəlişin tamamilə ləğv edilməsi istiqamətində əməli addımlar atacağına ümidvar olduğunu bəyan edib". Bunu Vaşinqtonda səfərdə olan Azərbaycan parlamentinin, Xarici İşlər Nazirliyinin, Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzi və yəhudi icmasının təmsilçilərindən ibarət nümayəndə heyətinin rəhbəri, Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədri Səməd Seyidov deyib. O bildirib ki, əvvəlki ABŞ Administrasiyası sayəsində ikili əlaqələr sıfır dərəcəsinə enmişdi.

10

## *Qreq LAFLİN:* "Mən Heydər Əliyevi Orta Asiyanın Corc Vaşinqtonu adlandırıram"

"1994-cü ildə Nyu Yorkda konfrans zamanı Prezident Heydər Əliyevi çıxış etməzdən əvvəl təqdim etməyimi istədilər. Mən onun haqqında oxudum. Kimsə mənə onun tərcümeyi-halı və çox təsirli keçmişi haqqında məlumat verdi. O, Brejnev illərində Siyasi Büroda olan yeganə qeyri-rus idi. Onun Azərbaycanı Sovet İttifaqından ayırmaq üçün apardığı siyasi fəaliyyəti məni heyran etdi".

AZƏRTAC-ın məlumatına görə, bu sözləri keçmiş amerikalı konqresmen Qreq Laflin Azərbaycanın ABŞ-dəki səfirliyində keçirilən tədbir zamanı çıxışında deyib. O, Heydər Əliyevi Orta Asiyanın Corc Vaşinqtonu adlandırdığını bildirib. Keçmiş konqresmen Ulu Öndərin vəfatından sonra Vaşinqtonda keçirilən anım tədbirini xatırladıb və orada çıxış etdiyini deyib.

"Mən hər kəsə onu Corc Vaşinqtona bənzətdiyimi xatırlatdım. Onun etdiklərinə baxanda müəyyən oxşarlıqların olduğunu görürük. Təbii ki, tam eyni deyil. Çünki heç bir iki ölkə eyni deyil. Amma bu gün sizə deyə bilərəm ki, Rusiyanın heç bir yerindən keçməyən Bakı-Ceyhan boru kəməri Heydər Əliyev olmasaydı, mövcud olmazdı. Mən bu ölkəni sevirəm. İnsanlar çox mehribandır. Dini cəhətdən tolerantdır və bu bir çox ölkədə yoxdur", - deyə konqresmen əlavə edib.

# Dövlət və hökumət rəsmiləri Fəxri xiyabanda Ulu Öndər Heydər Əliyevin xatirəsini yad ediblər





Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin anım günündə - dekabrın 12-də Milli Məclisin Sədri Sahibə Qafarova, Prezident Administrasiyasının rəhbəri Samir Nuriyev, digər dövlət və hökumət rəsmiləri, hərbi qulluqçular, hüquq-mühafizə orqanlarının əməkdaşları, diplomatik korpusun nümayəndələri Fəxri xiyabanda Ümummilli Lider Heydər Əliyevin məzarını ziyarət edərək abidəsi önünə gül dəstələri qoyub, müasir müstəqil Azərbaycanın banisi və qurucusu Ulu Öndərin xatirəsinə dərin ehtiramlarını bildiriblər.

Ulu Öndərin ömür-gün yoldaşı, görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın da xatirəsi anılıb, məzarı üzərinə gül dəstələri qoyulub.

*"Azərbaycan"*

# Ulu Öndər Heydər Əliyevin xatirəsi anılıb



12 dekabr - Ümummilli Lider Heydər Əliyevin anım günündə Daxili İşlər Nazirliyinin şəxsi heyəti Fəxri xiyabanda Ulu Öndərin məzarını ziyarət edib, önünə gül dəstələri qoyub, əziz xatirəsini böyük ehtiramla anıb.

* * *



Dekabrın 12-də Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin anım günündə Müdafiə Nazirliyinin rəhbər heyəti Fəxri xiyabanı ziyarət edib.

Bu barədə Müdafiə Nazirliyindən məlumat verilib.

Bildirilib ki, Ulu Öndərin məzarı önünə əklil və gül dəstələri qoyulub, xatirəsi dərin hörmət və ehtiramla yad olunub. Nazirliyin rəhbər heyəti daha sonra görkəmli oftalmoloq-alim, akademik Zərifə Əliyevanın məzarı üzərinə gül dəstələri düzərək xatirəsinə ehtiram nümayiş etdirib.

* * *



12 dekabr 2025-ci il tarixdə Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinin heyəti xalqımızın Ulu Öndəri Heydər Əliyevin anım günündə Fəxri xiyabanı ziyarət edib.

Ziyarət zamanı Azərbaycanın dövlətçilik tarixində ölkəmizin müstəqilliyinin möhkəmlənməsi, xalqımızın inkişaf və rifahının yüksəldilməsi istiqamətində misilsiz xidmətlər göstərmiş Ümummilli Lider Heydər Əliyevin məzarı qarşısına gül dəstələri düzülüb, Ulu Öndərin əbədiyaşar xatirəsi dərin hörmət və ehtiramla yad edilib.

* * *



Müstəqil və müasir Azərbaycan dövlətinin qurucusu və memarı, dünyaşöhrətli siyasi xadim, xalqımızın Ümummilli Lideri Heydər Əliyevin anım günü ilə bağlı baş prokuror Kamran Əliyev, prokurorluğun rəhbər heyəti və prokurorluq əməkdaşları Fəxri xiyabanı ziyarət ediblər. Ulu Öndərin məzarı önünə gül dəstələri qoyulub, əziz xatirəsi dərin ehtiramla yad edilib. Həmçinin görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyeva, tanınmış dövlət xadimi Əziz Əliyev və professor Tamerlan Əliyevin də xatirələri yad edilib, məzarları üzərinə gül dəstələri düzülüb.

* * *



Müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu, dünyaşöhrətli siyasi xadim, xalqımızın Ümummilli Lideri Heydər Əliyevin anım günüdür. Dekabrın 12-də paytaxt sakinləri, dövlət və özəl qurumların, ictimai-siyasi təşkilatların nümayəndələri ilə yanaşı, Dövlət Gömrük Komitəsinin kollektivi də Fəxri xiyabana gələrək Ulu Öndərin məzarını ziyarət ediblər.

Gömrükçülər dahi rəhbərin xatirəsini ehtiramla yad edib, məzarı önünə çiçəklər düzüblər.

* * *



DTX-nin əməkdaşları Fəxri xiyabanda Ulu Öndər Heydər Əliyevin xatirəsini anmışlar.

Dövlət Təhlükəsizliyi Xidmətinin Mətbuat xidmətinin verdiyi məlumata görə, Azərbaycan təhlükəsizlik orqanlarının fəxri rəhbəri, müasir Azərbaycanın banisi və xilaskarı, Ümummilli Lider Heydər Əliyevin vəfatının 22-ci ildönümü ilə əlaqədar Dövlət Təhlükəsizliyi Xidmətinin rəisi general-polkovnik Əli Nağıyev və xidmətin əməkdaşları Fəxri xiyabanda Ulu Öndərin əziz xatirəsini dərin ehtiramla yad etmiş, dahi şəxsiyyət Heydər Əliyevin və görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın məzarları üzərinə gül dəstələri qoymuşlar.

*"Azərbaycan"*

# Milli Məclisin kollektivi Fəxri xiyabanda Ulu Öndər Heydər Əliyevin məzarını ziyarət edib



Dekabrın 12-də Milli Məclis Sədrinin birinci müavini Əli Əhmədov, Sədr müavinləri Ziyafət Əsgərov, Musa Qasımlı, Rafael Hüseynov, parlamentin komitə sədrləri, deputatlar, Milli Məclis Aparatının rəhbəri Fərid Hacıyev, Aparat rəhbərinin müavinləri, Parlamentin İşlər müdiri Firudin Hacıyev, Aparatın və İşlər idarəsinin əməkdaşları Ulu Öndər Heydər Əliyevin anım günü münasibətilə Fəxri xiyabana gələrək onun məzarını ziyarət ediblər.

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, Milli Məclisin kollektivi və deputatlar Ulu Öndər Heydər Əliyevin abidəsi önünə tər güllər düzüblər, müasir müstəqil Azərbaycanın banisi və qurucusu Ulu Öndərin xatirəsinə dərin ehtiramlarını bildiriblər.

*"Azərbaycan"*

# Yeni Azərbaycan Partiyasının nümayəndələri Ulu Öndərin xatirəsini yad ediblər



Dekabrın 12-də müasir müstəqil Azərbaycan dövlətinin qurucusu, xalqımızın Ümummilli Lideri Heydər Əliyevin vəfatının 22-ci ildönümü ilə əlaqədar Yeni Azərbaycan Partiyasının (YAP) nümayəndələri Fəxri xiyabanda Ulu Öndərin xatirəsini yad edib, məzarı önünə əklil və gül dəstələri qoyublar.

Görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın da xatirəsi anılıb, məzarı üzərinə tər güllər düzülüb.

*"Azərbaycan"*

# Gəncəlilər və samuxlular Ulu Öndərin anım gününü qeyd ediblər

Xalqımız 12 dekabrı Ulu Öndər Heydər Əliyevin anım günü kimi böyük el məhəbbəti, minnətdarlıq hissi ilə qeyd edir. Tarixə öz adını əbədi həkk etmiş nadir şəxsiyyətin, qüdrətli siyasi xadimin həyat və fəaliyyəti hər bir Azərbaycan vətəndaşının qürur mənbəyinə çevrilmişdir.

Hər bir xalqın milli azadlıq və istiqlaliyyət tarixində xilaskar rolunu oynayan dahi insanlar var. Həmin dahilər öz qətiyyətləri ilə mənsub olduqları xalqı arxasınca aparıb ən taleyüklü məqamlarda qalib rolu oynamışlar. Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyev müasir dünya tarixinə parlaq və silinməz iz qoymuş böyük şəxsiyyət, qeyri-adi zəka, fitri istedad sahibi, müdrik dövlət xadimi kimi düşmüşdür. Heydər Əliyevin həyat yolu yüksək insani-əxlaqi keyfiyyətləri özündə təcəssüm etdirən nümunəvi məktəbdir. Onun ölkəmizə rəhbərlik etdiyi illər tariximizə intibah, milli tərəqqi, milli oyanış, nəhayət, müstəqil dövlət quruculuğu dövrü kimi daxil olub.

Dünən Gəncənin mərkəzi meydanında böyük izdiham var idi. Gəncəlilər anım gününü qeyd etmək üçün Ulu Öndərin abidəsi önünə toplaşmışdılar. Şəhər icra hakimiyyətinin başçısı Niyazi Bayramov, Türkiyənin Gəncədəki baş konsulu Recep Öztop, Gürcüstanın Gəncədəki baş konsulu Kaxaber Abdaladze, YAP Gəncə şəhər təşkilatının sədri Bayram Aslanov və başqaları Heydər Əliyevin abidəsini ziyarət edərək önünə gül dəstələri düzmüşlər. Sonra şəhər sakinləri abidəni ziyarət edərək ehtiramlarını bildirmişlər.





* * *

Samuxda müasir Azərbaycan dövlətinin memarı və qurucusu, Ümummilli Lider Heydər Əliyevin anım günü qeyd olunmuşdur.

İştirakçılar öncə Ulu Öndərin abidəsini ziyarət edərək önünə gül dəstələri düzmüş, xatirəsini ehtiramla yad etmişlər. Mərasimdə çıxış edən rayon icra hakimiyyətinin başçısı Firdovsi Əliyev Heydər Əliyevin Azərbaycan tarixindəki rolundan, o cümlədən demokratik, hüquqi dövlət quruculuğundakı fəaliyyətindən danışmış və bildirmişdir ki, onun başladığı işləri bu gün Prezident İlham Əliyev uğurla davam etdirir. Odur ki, vətənini, xalqını sonsuz məhəbbətlə sevən, qətiyyəti, müdrikliyi ilə milyonlarla insanı öz ətrafında birləşdirməyi bacaran Heydər Əliyevin əziz xatirəsi Azərbaycan xalqının qəlbində daim yaşayacaqdır.

Sonra iştirakçılar Ziyadlı kəndində - Samux-Kür yolunda ağacəkmə aksiyası keçirmişlər. Aksiyada rayonun iqlim şəraitinə uyğun olan 300-ə yaxın həmişəyaşıl ağac əkilmişdir.

***Sabir ƏLİYEV,***
***"Azərbaycan"***

# Baş nazir Əli Əsədov Aşqabadda Neytrallıq Abidəsini ziyarət edib





Azərbaycan Respublikasının Baş naziri Əli Əsədov Aşqabadda keçirilən Beynəlxalq Neytrallıq Günü və Türkmənistanın daimi neytrallığının 30 illiyinə həsr olunmuş beynəlxalq forumda iştirak edib. Nazirlər Kabinetinin Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, Baş nazir Əli Əsədov Aşqabadda Neytrallıq Abidəsinin önünə gül dəstəsi qoyub.

# Baş nazir Əli Əsədov Türkmənistanda Ümummilli Lider Heydər Əliyevin xatirəsini yad edib

**Aşqabad şəhərində işgüzar səfərdə olan Azərbaycan Respublikasının Baş naziri Əli Əsədov dekabrın 12-də ölkəmizin Türkmənistandakı səfirliyinə gələrək Ümummilli Lider Heydər Əliyevin buradakı büstü önünə gül dəstəsi qoyub, Ulu Öndərin xatirəsini ehtiramla yad edib.**

Bu barədə AZƏRTAC-a Nazirlər Kabinetinin Mətbuat xidmətindən bildirilib.



# *Baş nazir:* "Azərbaycan Türkmənistanın BMT tərəfindən tanınan daimi neytrallıq siyasətinə böyük hörmətlə yanaşır"









**Dekabrın 12-də Aşqabadda "Beynəlxalq sülh və etimad ili - 2025", Beynəlxalq Neytrallıq Günü və Türkmənistanın daimi neytrallığının 30 illiyinə həsr olunmuş beynəlxalq forum işə başlayıb.**

Nazirlər Kabinetindən AZƏRTAC-a bildirilib ki, Azərbaycan Respublikasının Baş naziri Əli Əsədov forumun plenar iclasında iştirak edib.

İclasda çıxış edən Ə.Əsədov vurğulayıb ki, Azərbaycan Türkmənistanın BMT tərəfindən tanınan daimi neytrallıq siyasətinə böyük hörmətlə yanaşır. Azərbaycanın neytrallıqla bağlı Türkmənistan tərəfindən BMT-də irəli sürülən qətnamələri daim dəstəklədiyi və "Beynəlxalq sülh və etimad ili - 2025" qətnaməsinə həmmüəllif qismində qoşulduğu bildirilib.

Həmçinin diqqətə çatdırılıb ki, Azərbaycan Respublikası Türkmənistanın BMT-nin himayəsi altında Neytrallıq Universitetinin yaradılması ilə bağlı təşəbbüsünü də yüksək qiymətləndirir və universitetin işində fəal iştirak etməyə hazırdır.

Bildirilib ki, Azərbaycan və Türkmənistan BMT-dən sonra ikinci ən böyük beynəlxalq təsisat olan Qoşulmama Hərəkatının fəal üzvləridir və hər iki ölkə Hərəkatın dialoq və həmrəylik prinsiplərinə sadiqliyini nümayiş etdirir.



Azərbaycan-Türkmənistan əlaqələrinə toxunan Baş nazir iki ölkə arasında dərin tarixi köklərə, mənəvi və mədəni dəyərlərə söykənən ənənəvi dostluq və qardaşlıq münasibətlərinin mövcud olduğunu qeyd edib. Dövlətlərarası münasibətlərin son illərdə dinamik inkişaf yolu keçdiyi diqqətə çatdırılıb.

Bildirilib ki, iki ölkə liderləri arasında son dövrdə baş tutmuş qarşılıqlı səfərlər və görüşlər ikitərəfli münasibətlərdə yeni səhifə açıb, onları strateji tərəfdaşlığın keyfiyyətcə yeni səviyyəsinə yüksəldib. Bu kontekstdə cari ilin avqust ayında Prezident İlham Əliyevin Türkmənistana işgüzar səfərinin önəmi xüsusi qeyd edilib. Səfər çərçivəsində Türkmənistan, Azərbaycan və Özbəkistan arasında keçirilən yüksəksəviyyəli görüşün regional əməkdaşlığın genişləndirilməsi və çoxşaxəli qarşılıqlı fəaliyyətin möhkəmləndirilməsi üçün mühüm platformaya çevrildiyi bildirilib.

Həmçinin iyul ayında Türkmənistanın Xalq Məsləhətinin Sədri Qurbanqulu Berdiməhəmmədovun Azərbaycana səfərinin, səfər çərçivəsində Füzuli və Şuşa şəhərlərini ziyarət etməsinin əhəmiyyəti vurğulanıb. Eyni zamanda cari ilin oktyabr ayında Qəbələdə keçirilmiş Türk Dövlətləri Təşkilatının Dövlət Başçıları Şurasının 12-ci Zirvə Görüşü çərçivəsində Füzulidə təməli qoyulan məscidin inşası ilə bağlı təşəbbüsə görə Türkmənistan tərəfinə minnətdarlıq ifadə olunub.

Ə.Əsədov Azərbaycan ilə Mərkəzi Asiya dövlətləri arasındakı münasibətlər barədə də bəhs edib. Bu baxımdan Azərbaycanın Mərkəzi Asiya Dövlət Başçılarının Məşvərət Görüşünə tamhüquqlu iştirakçı qismində qəbul edilməsinin əhəmiyyəti xüsusi vurğulanıb.

# Azərbaycanın müdafiə naziri və Özbəkistanın hərbi nümayəndə heyəti komando hərbi hissəsində olublar



**Azərbaycanın müdafiə naziri general-polkovnik Zakir Həsənov, müdafiə sənayesi naziri Vüqar Mustafayev, ölkəmizdə rəsmi səfərdə olan Özbəkistan Prezidenti yanında Təhlükəsizlik Şurasının katibi Viktor Mahmudov və müdafiə naziri general-leytenant Şuhrat Xalmuxamedov dekabrın 12-də komando hərbi hissələrindən birini ziyarət ediblər.**

Bu barədə AZƏRTAC-a Müdafiə Nazirliyindən məlumat verilib.

Bildirilib ki, əvvəlcə Ümummilli Lider Heydər Əliyevin hərbi hissənin ərazisindəki büstü önünə gül dəstələri düzülüb, Ulu Öndərin xatirəsinə ehtiram nümayiş etdirilib.

General-polkovnik Z.Həsənov Özbəkistanın hərbi nümayəndə heyəti ilə birgə tir, əsgər yataqxanası, silah otağı, əşya anbarı, həmçinin yeməkxanaya gələrək burada şəxsi heyət üçün yaradılan şəraitlə tanış olublar.

Hərbi hissənin idman zalında Müdafiə Sənayesi Nazirliyinin təqdim etdiyi simulyasiya vasitəsinə baxışdan sonra qonaqlar hərbi qulluqçuların idman hazırlığını izləyiblər.

Nümayəndələrə komandoların dağ komando qülləsində və kəşfiyyat cığırında fəaliyyətləri nümayiş etdirilib.

Qonaqlara Müdafiə Sənayesi Nazirliyinin, həmçinin hərbi sənaye şirkətlərinin istehsal etdiyi pilotsuz uçuş aparatları (PUA), silah, avtomobil və xüsusi texnika, eləcə də digər döyüş vasitələri təqdim olunub.

Daha sonra Özbəkistan nümayəndə heyətinə Azərbaycan Ordusunun istifadəsindəki silah-sursat, təchizat və döyüş texnikası təqdim edilib, onların taktiki-texniki xüsusiyyətləri barədə ətraflı məlumat verilib.

Ziyarət qarşılıqlı əməkdaşlığın daha da gücləndirilməsi, təcrübə mübadiləsinin genişləndirilməsi və iki ölkənin müdafiə qurumları arasında əlaqələrin inkişafı baxımından mühüm əhəmiyyət daşıyıb.

# Daha 606 nəfər hərbi qulluqçu mənzillə təmin olunacaq



**Dekabrın 12-də Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Ordusunun hərbi qulluqçularının sosial müdafiəsinin gücləndirilməsi tədbirləri barədə" 28 dekabr 2011-ci il tarixli 569 nömrəli fərmanı ilə yaradılmış komissiyanın növbəti iclası keçirilib.**

Komissiyanın sədri, maliyyə naziri Sahil Babayev Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyevin hərbi qulluqçuların sosial-məişət şəraitinin yaxşılaşdırılması, dövlət vəsaiti hesabına mənzillə təmin edilməsi istiqamətində fərmanla qarşıya qoyulan vəzifələrin icrası olaraq indiyədək Azərbaycan Ordusunun minlərlə hərbi qulluqçusunun dövlətin bu mühüm sosial proqramından bəhrələnərək mənzillərlə təmin olunduğunu qeyd edib. Nazir bildirib ki, Ulu Öndər Heydər Əliyevin əsasını qoyduğu dövlətçilik və ordu quruculuğu xəttinin ardıcıl davamı olan bu siyasət hərbi qulluqçuların sosial müdafiəsinin gücləndirilməsinə, onların mənzil-məişət problemlərinin həll edilməsinə mühüm töhfə verir.

S.Babayev komissiya tərəfindən Müdafiə Nazirliyinin təqdim etdiyi siyahılar əsasında mənzil növbəsinə mütəmadi baxıldığını və vaxtaşırı mənzil almaq hüququ qazanan hərbi qulluqçuların mənzil növbəsinə əlavə edildiyini bildirib.

Komissiyanın iclasında Müdafiə Nazirliyi tərəfindən təqdim olunmuş 606 nəfər hərbi qulluqçunun tam təmirli mənzillərlə təmin olunmasına dair qərar qəbul olunub. Qeyd olunub ki, cari il üzrə dövlət büdcəsində nəzərdə tutulmuş vəsait hesabına alınan tam təmirli mənzillər növbəti il ərzində hərbi qulluqçulara təqdim olunacaq.

Bu günə qədər dövlət vəsaiti hesabına 4167 nəfər hərbi qulluqçu mənzillərlə təmin olunub.

*"Azərbaycan"*

# Azərbaycan-Slovakiya münasibətləri yüksələn xətlə inkişaf edir

**Prezident İlham Əliyevin Slovakiyaya səfəri və səfər çərçivəsində bir sıra sahələri əhatə edən sənədlərin imzalanması bir daha göstərdi ki, Azərbaycan və Slovakiya dost ölkələr olmaqla yanaşı, strateji tərəfdaş dövlətlərdir.**



Ötən il Strateji Tərəfdaşlıq haqqında Bəyannamənin imzalanması iki dövlət arasında münasibətləri ən yüksək səviyyəyə çatdırıb. Slovakiya Prezidentinin, Baş nazirinin, eləcə də, Milli Şura sədrinin Prezident İlham Əliyevlə görüşməsi bu ölkənin Azərbaycanla ən yüksək səviyyədə münasibətlərin dərinləşməsinə böyük önəm verdiyinin əyani nümunəsidir.

Bakı Dövlət Universitetinin kafedra müdiri, professor Kamilə Əliyeva qəzetimizə açıqlamasında bildirib ki, Azərbaycan Avropanın bir sıra dövlətləri ilə yanaşı, Slovakiyanın da enerji təhlükəsizliyinə böyük töhfə verir. Artıq bir ildir ki, Azərbaycan qazı Slovakiyaya nəql olunur. "Ölkəmiz Slovakiyanı ehtiyac olduğu həcmdə enerji ilə təmin etmək potensialına malikdir. Azərbaycanla Slovakiya arasında müdafiə sənayesi sahəsində əməkdaşlığın genişləndirilməsi də keçirilən görüşlərin əsas mövzularından biri idi. İki dövlət birgə hərbi təyinatlı silahların istehsal olunması barədə işlər aparacaq. Slovakiya NATO-ya üzv dövlət olaraq silah istehsalı sahəsində böyük təcrübəyə malikdir. Ölkəmizdə də hərbi sənayenin inkişafı istiqamətində böyük işlər aparılır".

Kamilə Əliyeva qeyd edib ki, Slovakiya işğaldan azad edilmiş ərazilərimizdə bərpa-quruculuq işlərində yaxından iştirak edir. Bu ölkə Ağdamın Baş Qərvənd kəndində "ağıllı kənd" inşa edir. Prezident İlham Əliyev göstərdiyi dəstəyə görə Slovakiya liderinə təşəkkür etdi. Azərbaycanla Slovakiya arasında iqtisadi, humanitar, energetika, kənd təsərrüfatı sahələrində yeni əməkdaşlıq əlaqələri hər iki dövlətin milli maraqlarına xidmət edir. Slovakiya Avropada müstəqil xarici siyasət həyata keçirən azsaylı dövlətlərdən biridir və bəzən buna görə müəyyən təzyiqlərlə üzləşir. "Milli maraqlarını uca tutması ölkə rəhbərliyinə beynəlxalq aləmdə böyük hörmət gətirmişdi. Azərbaycanla Slovakiya arasında iqtisadi əlaqələrlə yanaşı, siyasi əlaqələr də möhkəm təməllər üzərində qurulub. Slovakiya hər zaman bütün beynəlxalq təşkilatlarda Azərbaycanın mövqeyini dəstəkləyib. Prezident İlham Əliyevin Slovakiyaya səfəri iki ölkə arasında mövcud dostluq və strateji tərəfdaşlığı, gələcəkdə yeni strateji modelin hədəflərini müəyyənləşdirdi", - deyə professor əlavə edib.

*Əsmər QARDAŞXANOVA,*
*"Azərbaycan"*

# Azərbaycanın özü qədər əbədi



## Milli-mənəvi dəyərlərə sadiqlik örnəyi

**Azərbaycan xalqının zəngin milli-mənəvi irsi onun kimliyinin əsasıdır. Tarixboyu xalqımız öz adət-ənənələrini, dilini və mədəniyyətini qoruyaraq gələcək nəsillərə ötürmüş, bu dəyərlər vasitəsilə öz milli şüurunu möhkəmləndirmişdir.**

Azərbaycan xalqı malik olduğu qədim milli-mənəvi dəyərləri hər zaman ən qiymətli xəzinəsi, milli şüur və ruhunun nişanəsi kimi hesab edib. Bu dəyərlər onun kimliyini formalaşdıran, tarixi yaddaşını qoruyan və gələcəyinə yönləndirən əvəzsiz irsdir. Ümummilli Lider Heydər Əliyev qeyd edirdi ki, bizim xalqımız yüz illərlə, min illərlə adət-ənənələrimizi, milli-mənəvi dəyərlərimizi yaradıb və bunlar indi bizim xalqımızın mənəviyyatını təşkil edən amillərdir.

Tarixindən, soyundan, milli-mənəvi dəyərlərindən uzaqlaşan xalqların sonu adətən acınacaqlı olur. Onlar zaman keçdikcə öz milli kimliklərini və özünəməxsusluqlarını itirirlər. Bu həqiqət xalqın milli şüurunun, mədəniyyətinin və tarixi irsinin qorunmasının nə qədər vacib olduğunu bir daha təsdiqləyir.

Bu baxımdan Azərbaycan xalqı dünyaya nümunə olan xalqlardandır. Çünki varlığının təcəssümü olan milli-mənəvi dəyərlərinə hər zaman qayğıkeş, həssas və təəssübkeşdir. Ümummilli Lider Heydər Əliyevin bildirdiyi kimi: "Biz öz milli-mənəvi dəyərlərimizlə fəxr etməliyik. Bizim milli-mənəvi dəyərlərimiz əsrlərboyu xalqımızın həyatında, yaşayışında formalaşıbdır, xalqımızın fəaliyyətində formalaşıbdır. Milli-mənəvi dəyərləri olmayan millət həqiqi millət, həqiqi xalq ola bilməz".

Azərbaycan xalqı zaman-zaman üzləşdiyi çox çətin, ağır sınaqlardan mərdliklə, şərəflə keçərək milli heysiyyatını, qürurunu üstün tutub. Bu xalqın humanistliyi, səxavəti qədim milli bayramlarında da təcəssüm olunur. Xalqımız milli, eləcə də dini əxlaqa söykənərək xeyirxahlığı, qohum-qonşulara qayğı ilə yanaşmağı, ehtiyacı olanlara maddi yardım göstərməyi, əl tutmağı özünə mənəvi borc bilir. Keçmiş sovet hakimiyyətinin ateizmdən ən kəsərli silahlarından biri kimi istifadə etdiyi, milli adət-ənənələri unutdurmağa çalışdığı, qadağalar qoyduğu dövrdə də bu xalq öz milli dəyərlərindən üz çevirməmiş, inancından dönməmişdir.

1990-cı illərdə respublikamızın öz dövlət müstəqilliyinə qovuşması tariximizdə yeni mərhələnin başlanğıcı oldu. Azərbaycan xalqının öz azad ölkəsində milli və dini bayramlar geniş şəkildə qeyd etməsinə imkan yarandı.

Ümummilli Lider müstəqil Azərbaycanın Prezidenti olduğu dövrdə - 1993-2003-cü illərdə xalqımızın milli-mənəvi, dini dəyərlərinin, adət-ənənələrinin dirçəldilməsi istiqamətində mühüm addımlar atılmışdır. Heydər Əliyev Azərbaycan Respublikası Prezidenti kimi 1993-cü il oktyabrın 10-da andiçmə mərasimindəki nitqində demişdir: "...həyatımızın indiki mərhələsində vicdan azadlığı məsələsi də mühüm yer tutur. Xalqımız öz dininə qayıtdı. İslam dini dünyada öz tarixi yerini tutmuşdur. Xalqımızın mənəviyyatına, elminə, qüdrətinə, zəkasına islam dininin böyük təsiri olmuşdur. Milli ənənələrimiz, mədəniyyətimiz bir çox hallarda islam dini vasitəsilə nəsildən-nəslə keçib, indi böyük milli sərvətimiz kimi bugünkü nəsillərə çatmışdır. Azərbaycanda islam dininə insanların sərbəst etiqad etməsi üçün bütün şərait yaradılmış və bundan sonra da yaradılacaqdır. Güman edirik ki, bizim dinimiz respublikanın bu ağır dövründə vətəndaş həmrəyliyinin, vətəndaş birliyinin yaranması üçün çox böyük fəaliyyət göstərəcəkdir".

Xalqımızın ruhunu, düşüncələrini, arzularını özündə əks etdirən Novruz bayramı Heydər Əliyevin ən çox sevdiyi və xüsusi qeyd etdiyi bayramlardan idi. Ümummilli Lider 2000-ci il martın 21-də Novruz bayramında öz hisslərini belə ifadə etmişdir: "Novruz bayramı Azərbaycan xalqının, azərbaycanlıların ən əziz bayramıdır. Hər xalqın tarixboyu yaranmış və ənənəyə çevrilmiş bayramları vardır. Azərbaycan xalqının da bayramları vardır. Bunların bir qismi dövlət bayramlarıdır, bir qismi xalq, dini bayramlardır. Bütün bu bayramların içərisində millətimiz üçün, xalqımız üçün, hər bir azərbaycanlı üçün ən əziz, ən doğma, ən sevimli bayram Novruz bayramıdır".

Heydər Əliyev islam dininin mahiyyəti, mütərəqqi, qüdrətli bir din olduğu və Azərbaycan xalqının həyatında mühüm rol oynadığını da həmişə qeyd edirdi. Ümummilli Lider Təzəpir məscidində dindarlarla görüşlərinin birində İslamın tərəqqipərvər din olduğunu və dünyəvi əhəmiyyətini belə vurğulamışdır: "Bizim dinimiz mütərəqqi dindir. Əsrlərboyu islam dini özünün mütərəqqi olduğunu və eyni zamanda islam dininə itaət edən adamların hamısının özünün nə qədər tərəqqipərvər və nə qədər dünyəvi əhəmiyyətli olduğunu sübut edir, müsəlmanlara daimi xoşbəxtlik bəxş edir. Bizim dinimiz müsəlmanları həyatlarında rast gəldiyi çətinliklərdən xilas etməyə, düşmənlərə qarşı mübarizədə qalib gəlməyə və özlərini, öz ölkələrini, öz dinini, öz məmləkətini qoruyub saxlamağa həmişə yardım etmişdir. Heç şübhə yoxdur ki, islam dini indiyənə qədər olan tarixində dünyaya nümayiş etdirdiyi əzəmətini, qüdrətini bundan sonra daha da gücləndirəcək və bütün islam dininə itaət edən adamların hamısını xoşbəxtliyə, səadətə gətirib çıxaracaqdır".

Dinimizi xalqımızın mənəvi sərvəti hesab edən Heydər Əliyev bu istiqamətdə də təqdirəlayiq işlər həyata keçirmişdir. Respublikamızda yüzlərlə məscid, ibadətgah inşa və ya bərpa olunmuş, o cümlədən Təzəpir, qədim tarixə malik Bibiheybət məscidləri, Mir Mövsüm ağanın ziyarətgahı əsaslı təmir edilmişdir.

Ulu Öndərin hər zaman böyük həssaslıq və təəssübkeşliklə yanaşdığı məsələlərdən biri də ana dilimizin saflığının qorunması idi. Dili hər bir millətin mənliyinin əsası hesab edən Ümummilli Lider qeyd edirdi ki, inkişaf etmiş zəngin dilə sahib olan xalq əyilməzdir, ölməzdir, böyük gələcəyə malikdir. Heydər Əliyev deyirdi: "Hər bir xalq öz dili ilə yaranır. Ancaq bu dili yaşatmaq, inkişaf etdirmək və dünya mədəniyyəti səviyyəsinə qaldırmaq xalqın qabaqcıl adamlarının, elm, bilik xadimlərinin fəaliyyəti nəticəsində mümkün olur".

Məlumdur ki, dövləti müstəqil olmayan xalqın ana dilinə də ögey münasibət bəslənilir. Azərbaycan xalqı tarixinin müxtəlif dövrlərində bu münasibətin ağrı-acılarını yaşamışdır. Keçmiş sovetlər dövründə Azərbaycan dilini qorumaq üçün Ümummilli Lider böyük çətinliklərlə qarşılaşsa da, onun zəngin təcrübəsi, tariximizə, mədəniyyətimizə, mənəviyyatımıza dərindən bələd olması nəticəsində 1960-cı illərin sonlarından həyata keçirilən dil siyasəti tariximizdə mühüm hadisə olmuşdur. Heydər Əliyev 1978-ci il aprelin 21-də qəbul olunan Azərbaycan SSR Konstitusiyasına Azərbaycan dilinin dövlət dili statusu barədə 73-cü maddənin daxil edilməsində böyük qətiyyət göstərmişdir. Sonralar o, həmin dövrü belə xatırlayırdı: "Yadımdadır, 1978-ci ildə biz Azərbaycanın Konstitusiyasına Azərbaycan dilinin dövlət dili olması haqqında maddə daxil edəndə Moskvadan nə qədər təzyiqlər göstərildi. Ancaq biz bu təzyiqlərə dözdük".

Heydər Əliyev Azərbaycana rəhbərlik etdiyi dövrlərdə hər zaman xalqımızın milli-mənəvi dəyərlərinin qorunmasına, milli mədəniyyətimizin inkişafına, xalqın adət-ənənələrinin zənginləşdirilməsinə çalışırdı. Ümummilli Lider xarici ölkələrə səfərləri zamanı soydaşlarımızla görüşlərində onlara deyirdi: "Bizim hamımızın bir Vətəni var - bu Azərbaycandır. Azərbaycanlı hər yerdə yaşaya bilər, ancaq azərbaycanlılığını, öz dilini, milli ənənələrini unutmamalıdır. Onun qəlbi daim doğma Azərbaycanla bir vurmalıdır".

Soykökümüzə, tariximizə bağlılıq, adət-ənənələrimizə ehtiramla yanaşmaq, milli dəyərlərimizi qorumaq qədər onları yaşatmağı, gələcək nəsillərə ötürməyi, inkişaf etdirməyi də əhəmiyyətli hesab edən Heydər Əliyev gənclərimizin bu ruhda tərbiyə olunmasının vacibliyini önə çəkirdi. O, hər xalqın özünə, öz tarixi köklərinə, əcdadları tərəfindən yaradılmış milli-mənəvi dəyərlərinə bağlılığını böyük amil sayırdı: "Biz də indi dünyanın mütərəqqi mənəvi dəyərlərindən istifadə edərək xalqımızın mədəni səviyyəsini daha da inkişaf etdirərək, gənc nəsli daha da sağlam əhvali-ruhiyyədə, saf əxlaqi əhvali-ruhiyyədə tərbiyələndirməliyik".

Ümummilli Lider dönə-dönə vurğulayırdı ki, hər bir azərbaycanlı öz milli mənsubiyyətinə görə qürur hissi keçirməlidir və biz azərbaycançılığı - Azərbaycan dilini, mədəniyyətini, milli-mənəvi dəyərlərini, adət-ənənələrini yaşatmalıyıq. Ulu Öndər harada yaşamalarından asılı olmayaraq hər bir azərbaycanlıya xalqımıza xas adət-ənənələrimizi yaşatmağı, təbliğ etməyi, azərbaycançılıq ideologiyasına sadiqliyi tövsiyə edirdi.

*Zöhrə FƏRƏCOVA,*
*"Azərbaycan"*

## Müstəqil Azərbaycan Ulu Öndərin, azad Qarabağ isə İlham Əliyevin əsəridir

**Azərbaycanın müasir tarixində xüsusi yeri olan Ulu Öndər Heydər Əliyev hər kəsin qəlbində dərin ehtiramla anılan, ölməz xatirəsi yaşayan dövlət xadimi kimi yuva qurub. Onun dövlətçilik irsi kimi, ailəsinə verdiyi dəyər hər zaman nümunəvi olub, xüsusən də oğlu İlham Əliyevə olan münasibəti ilə diqqət çəkib.**

Heydər Əliyevin ailə dəyərlərinə verdiyi önəm, övladlarına qarşı qayğıkeş münasibəti və onlara aşıladığı məsuliyyət hissi şəxsiyyətinin tamamlayıcı cəhətlərindən biri kimi qiymətləndirilir. Dövlət idarəçiliyində sərt və prinsipial olan Heydər Əliyev ailə mühitində daha çox humanist, anlayışlı və dəstəkçi bir ata obrazı ilə seçilirdi. Ulu Öndərin bu qayğıkeş və tələbkar ata obrazı təkcə ümumi təsvirlərdə deyil, konkret həyat hadisələrində də özünü göstərirdi. Ata kimi göstərdiyi tələbkarlığın və diqqətin bir nümunəsini Prezident İlham Əliyevin orta məktəbdə biologiya müəllimi olmuş Emma Kazımova bir neçə il əvvəl belə nəql etmişdi: "Bir dəfə İlham dərsini yaxşı öyrənməmişdi. Mən bundan çox narazı qaldım. O zaman Heydər Əliyev Moskvada ittifaq əhəmiyyətli hansısa bir tədbirdə idi. Həmin gün axşam Moskvadan evə zəng vurub. Zərifə xanım ona bildirib ki, İlham dərsinə zəif hazırlaşıb. Atası oğlu ilə də danışıb və tapşırıb ki, dərslikdən əlavə "Böyük Uşaq Ensiklopediyası"nı tapıb oxusun, tapşırığı ətraflı öyrənsin. İlham elə də etmişdi. Növbəti dərsdə verdiyi cavab olduqca hərtərəfli, dolğun və mükəmməl idi. Ümumiyyətlə, Əliyevlər ailəsi təkcə övladlarına qarşı deyil, həm də məktəblə, müəllimlərlə davranışlarında çox həssas və diqqətli idilər".

Emma Kazımovanın xatırlatdığı bu hadisə Heydər Əliyevin valideynlik prinsipiallığını və övladlarının təlim-tərbiyəsinə göstərdiyi xüsusi diqqəti aydın şəkildə nümayiş etdirir. Evindən uzaqda - Moskvada dövlət işi ilə məşğul olduğu halda belə övladının dərs hazırlığı ilə maraqlanması onun ailə məsuliyyətini, övlad sevgisini heç vaxt arxa plana keçirmədiyinin göstəricisidir. İlham Əliyevin növbəti dərsdə verdiyi yüksəksəviyyəli cavab isə atasının qoyduğu tələbin tərbiyəvi gücünü və ailədə formalaşdırılan məsuliyyət mühitini təsdiqləyir. Ümumiyyətlə, müəllimin həmin xatirəsi Əliyevlər ailəsinin təhsil, müəllim hörməti və övlad tərbiyəsi kimi dəyərlərə nə qədər ciddi yanaşdığını bir daha önə çıxarır.

İlham Əliyevin siyasi arenada formalaşmasında və inkişafında Heydər Əliyevin verdiyi tövsiyələr, göstərdiyi dəstək və yaratdığı şərait mühüm rol oynayıb. Ulu Öndərin liderliyi yalnız dövlət səviyyəsində deyil, ailə daxilində də özünü göstərmiş, həm şəxsi, həm də ictimai həyatda aydın şəkildə ifadə olunmuşdur. Bu ata-oğul arasında siyasi varislik və dövlətin gələcəyi ilə bağlı qarşılıqlı hörmət, anlayış var idi. Bir-birinə olan münasibətləri ailənin və Azərbaycanın gələcəyini formalaşdıran əsas amillərdən sayılırdı. Bunu hər bir azərbaycanlı onların davranışlarında hiss edir, görür və təqdir edirdi. Ulu Öndər oğlunu yalnız şəxsiyyət olaraq deyil, həm də Azərbaycanın gələcək lideri kimi yetişdirib, onu milli məsuliyyətə yönləndirib. İlham Əliyevi Azərbaycana xidmət etməyə hazırlayaraq, çiyinlərinə çox böyük bir məsuliyyət yükləyib. Və nə yaxşı ki Prezident İlham Əliyev bu yükün ağırlığından qorxmayıb, atasının etimadını doğruldaraq, dövlətçilik ənənələrini davam etdirib, ölkənin inkişafı və müasirləşməsi istiqamətində ardıcıl siyasət yürüdüb.

Bu mənada Heydər Əliyev İlham Əliyev üçün təkcə ata yox, həm də siyasi mentor olmuşdur. Azərbaycanın gələcək liderinə dövlətçilik prinsipləri, idarəetmə mədəniyyəti və milli maraqlara xidmət kimi əsas dəyərləri ötürmək Heydər Əliyevin ən böyük məqsədlərindən idi. Ulu Öndər daim vurğulayırdı ki, dövləti idarə etmək yalnız siyasi bilik deyil, həm də məsuliyyət, uzaqgörənlik və xalqın etimadını qazanmaq bacarığı tələb edir. Ona görə də İlham Əliyevin siyasi təcrübə qazanması üçün geniş imkanlar yaratmış, onun beynəlxalq münasibətlər, iqtisadiyyat və dövlət strukturlarının iş prinsipləri barədə dərindən məlumatlanmasına xüsusi diqqət yetirmişdi. Bu proses təkcə ailə daxilində öyüd-nəsihət şəklində yox, həm də real siyasi mühitdə, praktiki fəaliyyət yolu ilə həyata keçirilirdi.

Beləliklə, Heydər Əliyevin İlham Əliyevə göstərdiyi siyasi rəhbərlik həm ata qayğısı, həm də dövlətçilik məsuliyyəti ilə sıx bağlı idi. O, övladının şəxsiyyət kimi formalaşmasını dəstəkləməklə yanaşı, Azərbaycanın gələcək inkişafına hazırlıqlı bir lider kimi yetişməsinə də töhfə vermişdi. Atasının siyasətini və dəyərlərini, eləcə də həyat fəlsəfəsini öyrənən İlham Əliyev 22 ildir onun dövlətçilik ənənələrindən yola çıxaraq ölkəni inkişaf etdirir. Heydər Əliyevin ata kimi verdiyi dəyərləri, öyrətdiyi azərbaycançılıq ideologiyasını və siyasətini dərindən mənimsəyərək, dinamik lider imici ilə öz liderlik yolunda inamla addımlayır. Prezidentin ən mühüm cəhətlərindən biri atasının siyasətini öz müstəqil siyasi baxışları ilə birləşdirməsidir. O həm daxili siyasətdə, həm də beynəlxalq müstəvidə özünə aid bir liderlik üslubu yaradaraq, həm Heydər Əliyevin irsini yaşadır, həm də Azərbaycana başçılıq edir. Bu, onu yalnız bir siyasi varis olaraq deyil, həm də özünəməxsus və dinamik bir lider kimi təqdim edir.

Ulu Öndərin neft strategiyası, enerji siyasəti, milli təhlükəsizlik və regional diplomatiya sahəsindəki islahatları Azərbaycanın iqtisadiyyatını şaxələndirərək ölkəni uzunmüddətli inkişaf yoluna saldı. İlham Əliyev atasının qoyduğu irsin üzərində yüksələrək, Azərbaycanın qarşısında duran ən çətin məsələlərdən birinə - Qarabağ münaqişəsinə son nöqtəni qoydu. 2020-ci ildəki 44 günlük müharibə nəticəsində Azərbaycanın ərazi bütövlüyünü bərpa, 2023-cü ilin sentyabrında isə ölkənin suverenliyini əldə etdi. Prezident İlham Əliyev beynəlxalq diplomatik müstəvidə də Qarabağın işğaldan azad edilməsi prosesində böyük bir strateji uğur qazandı. Bu proses həmçinin Azərbaycanın millət olaraq birlik və gücünü göstərdi.

Müstəqil Azərbaycan Heydər Əliyevin böyük arzularının və zəhmətinin bəhrəsidir, azad Qarabağ isə İlham Əliyevin iradəsinin və əzminin simvoludur. Müstəqil Azərbaycan Ulu Öndərin, azad Qarabağ isə İlham Əliyevin əsəridir. Heydər Əliyev müstəqil Azərbaycanın təməlini qoyaraq gələcəyə gedən yolu açdı. İlham Əliyev isə həmin təməl üzərində qətiyyətlə addımlayıb Azərbaycanın ərazi bütövlüyünü və suverenliyini bərpa etdi, ölkənin müstəqilliyini və gücünü möhkəmləndirdi. Beləliklə, ata-oğul liderlərin əməlləri Azərbaycanın suveren, azad və qüdrətli bir dövlət olmasının parlaq və əbədi nümunəsinə çevrildi.

*Züleyxa ƏLİYEVA,*
*"Azərbaycan"*

## Zəfər ordusunun təməl müəllifi

**İllərdən, əsrlərdən bəri yaşanmış və qazanılmış tarixi təcrübə göstərir ki, xalqın milli-mənəvi irsini, qan yaddaşını, kimliyini, özünəməxsusluğunu gələcək nəsillərə ötürmək, suverenliyinə, ərazi bütövlüyünə qovuşdurmaq, ən ümdəsi isə müstəqilliyini qoruyub saxlamaq kimi çox çətin missiyalar fenomenal şəxsiyyətlərin fəaliyyəti ilə bağlıdır.**

Azərbaycan xalqının, Azərbaycan dövlətinin qurtuluşu, tərəqqisi də xalqımızın Ümummilli Lideri Heydər Əliyevin adı ilə sıx bağlıdır. Ulu Öndər ölkəmizə rəhbərlik etdiyi bütün dövrlərdə Azərbaycanın hərtərəfli inkişafına böyük töhfələr verərək onun gələcək strategiyasını müəyyənləşdirmişdir.

1991-ci ilin sonlarında müstəqilliyini bərpa edən Azərbaycan mürəkkəb ictimai-siyasi vəziyyətlə üz-üzə qalmışdı. Ali Sovet Azərbaycan Respublikasının Silahlı Qüvvələrinin yaradılması barədə müvafiq qərar qəbul etsə də, müstəqilliyin ilk illərində başqa sahələrlə yanaşı, ordu quruculuğu istiqamətində də inamlı addımlar atılmırdı. Ciddi qüsurlara yol verilir, ordunun yaranması haqqında qəbul edilmiş qərarlar kağız üzərində qalırdı. Həmin dövrdə hakimiyyətdə olanların yaratdığı mürəkkəb vəziyyət, cəmiyyətdə hökm sürən xaos, özbaşınalıq, hərc-mərclik müstəqilliyimizi təhlükə altında qoyurdu. Ölkədə yaranmış vəziyyətdən istifadə edən erməni separatçıları təkcə Qarabağa deyil, Ermənistanla həmsərhəd olan bölgələrə də hücum çəkərək torpaqlarımızı işğal edirdilər. Evləri yandırır, kəndləri ələ keçirir, azərbaycanlıları doğma ocaqlarından didərgin salırdılar. Həmin dövrdə yaradılmış ayrı-ayrı silahlı birləşmələr isə separatçılarla döyüşmək əvəzinə müxtəlif qrupların maraqlarına xidmət edirdilər.

Qarşısı alınmadığına görə hadisələr getdikcə gərgin xarakter alırdı. 1993-cü ilin yayında Ümummilli Lider Heydər Əliyevin xalqın təkidli tələbi ilə hakimiyyətə qayıdışından sonra başqa sahələrlə yanaşı, ordu quruculuğu istiqamətində də mühüm addımlar atıldı. Ayrı-ayrı silahlı birləşmələr ləğv edildi, vahid komandanlığa tabe olan hərbi hissələr yaradıldı. Bundan sonra ordu quruculuğu daha da sürətləndi. Ulu Öndərin uğurla həyata keçirdiyi siyasət nəticəsində Silahlı Qüvvələrin maddi-texniki təminatının yaxşılaşdırılmasına, şəxsi heyətin mənəvi-psixoloji hazırlığının yüksəlməsinə, döyüş ruhunun yüksəldilməsinə diqqət artırıldı.

Ümummilli Lider yalnız müstəqillik illərində deyil, keçmiş ittifaqın qadağalarının hökm sürdüyü 1969-cu ildə hakimiyyətə gələndə də Azərbaycanda hərbi kadrların hazırlanması prosesinə böyük önəm vermişdir. Ulu Öndərin təşəbbüsü ilə Bakıda Cəmşid Naxçıvanski adına Hərbi Məktəb yaradılmışdır. O zaman bu qərarı vermək böyük cəsarət tələb edirdi. Sonralar həmin illəri xatırlayan Ulu Öndər deyirdi: "Biz Cəmşid Naxçıvanski adına Hərbi Liseyin ilk bünövrə daşlarını qoyanda o bizim üçün nəzəriyyə deyildi, böyük gələcəyə, Azərbaycanın gələcəyinə baxış idi. Azərbaycanın milli zabit kadrlarının hazırlanması üçün ilk uğurlu addımlar idi. Biz bu addımları atarkən düşünürdük ki, zaman gələcək, Azərbaycan xalqı öz milli azadlığına qovuşacaq, öz dövlət müstəqilliyini əldə edəcək, müstəqil Azərbaycan dövləti yaranacaq. Yarandı da. Məhz bugünkü müstəqilliyimizə görə mən bu məktəbi yaratdım, yaşatdım, böyütdüm. Bilirsiniz, sizə səmimi deyirəm, C.Naxçıvanski adına lisey mənim üçün bir övladdır. Ona öz övladım kimi baxıram və nə qədər yaşayıramsa, ona bax, bu cür baxacağam".

Heydər Əliyevin uğurla həyata keçirdiyi siyasət nəticəsində Azərbaycan Xalq Cümhuriyyətinin əsasını qoyduğu milli dövlətçilik düşüncəsi müstəqil Azərbaycan dövlətinin yaradılması ilə reallığa çevrildi. Ümummilli Liderin böyük fədakarlıqları hesabına ata-babalarımızın qurub-yaratdığı dövlətin sarsılmazlığı, demokratik yüksəlişi, müstəqilliyinin əbədiliyi təmin olundu. Ulu Öndərin Azərbaycanın sosial-iqtisadi, siyasi, hərbi və mədəni yüksəlişi üçün həyata keçirdiyi tədbirlər milli şüurun oyanışına təkan verdi.

Azərbaycanın qarşılaşa biləcəyi çətinlikləri böyük uzaqgörənliklə əvvəlcədən hiss edib proqnozlaşdıran Ümummilli Lider Heydər Əliyev zamanı qabaqlayaraq ölkəmizin sürətli və davamlı inkişafı, strateji maraqlarının təmin olunması üçün zəruri və qəti addımlar atdı. Ulu Öndər dövlətin suverenliyinin və ərazi bütövlüyünün təminatçısı olan ordu quruculuğuna böyük önəm verdi. Vahid komandanlıq sisteminə əsaslanan nizami və mütəşəkkil, müstəqilliyimizə və dövlətçiliyimizə qarşı yarana biləcək hər hansı bir təhlükənin qarşısını almağa qadir və hazır olan ordu yaratmağa başladı.

Ümummilli Lider Azərbaycan Ordusunu və onun formalaşması prosesini daim diqqət mərkəzində saxlayırdı. Apardığı məqsədyönlü, qətiyyətli siyasət, eləcə də göstərdiyi diqqət və qayğı nəticəsində qısa müddətdə nizami Silahlı Qüvvələrin yaradılması ilə bağlı təxirəsalınmaz tədbirlər görüldü, hərbi hissə və birləşmələrdə intizam möhkəmləndirildi. Eyni zamanda dövlətin və cəmiyyətin orduya münasibəti kökündən dəyişdi, gənclər böyük həvəslə ali hərbi məktəblərə və orduya axışdı.

Azərbaycanda ali hərbi məktəblər sisteminin təkmilləşdirilməsi, onun tədris prosesinin NATO-ya üzv olan ölkələrin hərbi təhsil sisteminə uyğun olaraq qurulması müsbət nəticələr verdi. Aparılan islahatlar nəticəsində Azərbaycan Ordusu ciddi, hazırlıqlı, vətənpərvər zabit kadrları ilə təchiz edildi, maddi-texniki bazası daha da möhkəmləndirildi. Dövlətçiliyi və hərbi andı uca tutan, həyat amalı hesab edən, hərbçi olmağı özünə şərəf bilən zabitlər hərbi hissələrin rəhbərliyinə cəlb olundular. Şəxsi heyətin mənəvi-psixoloji hazırlığının yüksəldilməsi istiqamətində də səmərəli addımlar atıldı. Silahlı Qüvvələrin mükəmməl qanunvericilik bazası yaradıldı.

Ulu Öndər Heydər Əliyev Azərbaycan Ordusunun təşkilatlanmasını, qurulmasının böyük qüvvəyə çevrilməsini məmnunluqla qeyd edərək demişdir: "1993-cü ilin sonlarından başlayaraq həyata keçirilmiş xüsusi tədbirlər nəticəsində Milli Ordu quruculuğu keyfiyyətcə yeni mərhələyə qədəm qoydu, qısa müddətdə vahid komandanlığa tabe olan nizami ordu formalaşdırıldı. Hazırda Azərbaycanın Silahlı Qüvvələri müasir hərbi texnika ilə təchiz edilmiş, möhkəm nizam-intizam, yüksək döyüş ruhu ilə seçilən, düşmənə sarsıdıcı zərbə vurmağa qadir olan bir ordudur. Milli Ordumuz müstəqil dövlətimizin ən böyük dayağı, xalqımızın təhlükəsizliyinin və ölkəmizin ərazi bütövlüyünün təminatçısıdır".

Qısa zamanda Azərbaycan Ordusunun bölgənin ən güclü silahlı qüvvəsinə çevrilməsinin başlıca səbəbi Heydər Əliyevin onu daim diqqət mərkəzində saxlaması, ordu quruculuğuna rəhbərlik etməsi idi. Azərbaycanın müstəqilliyinə, xalqının milli maraqlarına ürəkdən bağlı olan Ulu Öndər ordu quruculuğu prosesinin gedişini böyük incəlik və dəqiqliklə müəyyənləşdirmiş və sonda müqəddəs məqsədinə nail olmuş, güclü və qüdrətli, düşmən üzərində Zəfər qazanmağa qadir olan ordunun təməlini qoymuşdur.

Ulu Öndər Heydər Əliyev tərəfindən 1993-cü ildə başladılan ordu quruculuğu istiqamətində aparılan islahatlar sonrakı illər Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirildi. Dünyanın ən güclü orduları sırasında layiqli yer tutan ordumuz özünü beynəlxalq aləmə qalib ölkənin qalib ordusu kimi tanıtdı. Əsasını Ümummilli Lider Heydər Əliyevin qoyduğu ordumuz 30 il həsrətini çəkdiyimiz Qarabağı, eləcə də işğal olunmuş başqa bölgələrimizi 44 gün davam edən İkinci Qarabağ müharibəsində Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyevin sərkərdəliyi altında erməni işğalçılarından azad etdi. Ermənistan silahlı qüvvələri darmadağın olundu.

2020-ci il dekabrın 10-da keçirilən Azərbaycan Ordusunun Zəfər paradında Prezident, Müzəffər Ali Baş Komandan bununla bağlı demişdir: "Bu zəfər tarixi zəfərdir. Azərbaycan xalqı bu günü 30 ilə yaxın müddət ərzində gözləyirdi, 30 ilə yaxın müddət ərzində Ali Baş Komandanın əmrini gözləyirdi. Mən dəfələrlə Azərbaycan xalqına müraciət edərkən deyirdim ki, biz daha güclü olmalıyıq və nəyi nə vaxt, necə etmək lazımdır, biz bilirik. Həyat göstərdi ki, vaxtında addımlar atdıq, bütün gücümüzü səfərbər edərək bir "dəmir yumruq" yaradıb düşmənin başını əzdik. Müharibə dövründə mən deyirdim ki, bizim "dəmir yumruğ"umuz həm birliyimizi, həm də gücümüzü təcəssüm etdirir. Bu "dəmir yumruq" düşmənin belini qırdı, düşmənin başını əzdi. Bu gün biz qəhrəman xalq kimi bu bayramı qeyd edirik. Azərbaycanın müzəffər ordusu öz tarixi missiyasını yerinə yetirdi, Ermənistanı məğlub etdi".

*Vahid MƏHƏRRƏMOV,*
*"Azərbaycan"*

# Azərbaycanın özü qədər əbədi

**Heydər Əliyev Fondu 21 ildir müstəqil dövlətimizin qurucusu, dünya miqyaslı siyasi və dövlət xadimi Ümummilli Liderin zəngin mənəvi irsini öz fəaliyyətində layiqincə yaşadır və inkişaf etdirir. Fond Heydər Əliyev irsinin qorunması və təbliği ilə yanaşı, təhsil, səhiyyə, mədəniyyət, idman, sosial müdafiə, ətraf mühitin mühafizəsi, humanitar, eləcə də mədəni irsin bərpası kimi sahələrdə çoxşaxəli layihələr həyata keçirir. Ümummilli Lider Heydər Əliyevin adını daşıyan fond həm ölkə daxilində, həm də beynəlxalq müstəvidə Azərbaycan humanizminin, xeyriyyəçiliyinin və mənəvi dəyərlərə sadiqliyin rəmzinə çevrilib. Fondun beynəlxalq fəaliyyəti dünyanın müxtəlif bölgələrini əhatə edir. Hətta bir çox ölkədə fondun nümayəndəlikləri də fəaliyyət göstərir.**



## Heydər Əliyev Fondu Ümummilli Liderin ideyalarını fəaliyyətində rəhbər tutur

Rolu və xidmətləri böyük bir mərhələni təşkil edən Heydər Əliyev Fondu xalqımızın milli-mədəni və mənəvi dəyərlərinin qorunub saxlanılmasına, onların təbliğinə, gənclərlə işbirliyinə, təhsilin və səhiyyənin inkişafına böyük töhfələr verir. Şəhər və rayonlarda, eləcə də son beş ildə erməni işğalından azad edilmiş Qarabağ və Şərqi Zəngəzurda xalqımızın sosial-iqtisadi və mədəni tərəqqisinə yönəlmiş dəyərli tədbirlər həyata keçirir. Azərbaycan mədəniyyətini və tarixini ölkəmizdə, habelə dünyada geniş tanıdır, multikultural mühitin, tolerantlığın və dinlərarası münasibətlərin inkişafına xüsusi önəm verir. Həyatın bütün sahələrində irimiqyaslı layihələr həyata keçirir, insanlara, ehtiyacı olanlara kömək əlini uzadaraq, onlara sevinc bəxş edir.

Heydər Əliyev Fondu və onun prezidenti Mehriban xanım Əliyeva bu gün Azərbaycanla yanaşı, ölkə hüdudlarından uzaqlarda da insanların böyük sevgisini qazanıb. Təsadüfi deyil ki, cəmiyyətdə ənənəvi dəyərlərin qorunub saxlanmasına, mədəniyyətlərarası və dinlərarası dialoqun inkişafına verdiyi töhfələrə görə Mehriban xanım Əliyeva ali dövlət mükafatlarına layiq görülüb. Bu həm də onu deməyə əsas verir ki, Heydər Əliyev Fondu sağlam həyat tərzini təbliğ etməklə ölkəmizdə və xaricdə ictimai-siyasi həyatın bütün sahələrini əhatə edən müxtəlif tədbirlər reallaşdırır, uşaqların, yaradıcı gənclərin, incəsənət xadimlərinin sərgiləri təşkil olunur, dini tolerantlığın bərqərar olmasına, vətəndaş cəmiyyəti quruculuğuna, qloballaşan dünyaya inteqrasiya prosesində milli-mənəvi dəyərlərin qorunub saxlanılmasına dəstək verir.

Hər bir xalq öz dili ilə yaşayır. Xalqın dilini yaşatmaq, inkişaf etdirmək və dünya mədəniyyəti səviyyəsinə qaldırmaq daha çox həmin xalqın ziyalılarının, alim və pedaqoqlarının fəaliyyəti nəticəsində mümkündür. Bu mənada Heydər Əliyev Fondunun Azərbaycan dilinin 50 dünya dili arasında tanınmış institutlarda tədris olunmasının dəstəkçisi olması ictimaiyyətdə məmnunluq doğurur.

Heydər Əliyev Fondunun Azərbaycanın mədəniyyət tarixində iz buraxacaq layihələrindən biri də Bakıda Müasir İncəsənət Muzeyinin yaradılmasıdır. Muzeydə Azərbaycan mədəniyyətinə öz töhfəsini verən sənətkarlara, mədəniyyət nümayəndələrinə fəaliyyət göstərmək üçün geniş imkanlar yaradılıb. Azərbaycanın adlı-sanlı və gənc, əsasən avanqard üslubda işləyən rəssam və heykəltaraşlarının 800-dən çox işinin toplandığı muzeyə gələnlər xalq rəssamları Səttar Bəhlulzadə, Böyükağa Mirzəzadə, Elmira Şahtaxtinskaya, Tahir Salahov, Ömər Eldarov və Nadir Əbdürrəhmanovun, adları Azərbaycan mədəniyyəti xəzinəsinə daxil olmuş digər rəngkar və heykəltaraşların işləri ilə də tanış ola bilirlər. Qərbi Avropa incəsənəti salonunda isə Ümummilli Lider Heydər Əliyevə, habelə Prezident İlham Əliyevə və Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevaya hədiyyə olunmuş əsərlər nümayiş etdirilir.

Fondun təşkilatçılığı ilə dünyaşöhrətli müğənni Müslüm Maqomayevin, habelə böyük Azərbaycan messenatı Hacı Zeynalabdin Tağıyevin, xalq qəhrəmanı Koroğlunun paytaxtın görməli yerlərində heykəllərinin açılışları olub. Bakının yaxınlığında Qala Arxeoloji-Etnoqrafik Muzey Kompleksi fəaliyyət göstərir. Heydər Əliyev Fondunun təşəbbüsü ilə yaradılan bu muzey Azərbaycanın tarixi keçmişini özündə əks etdirməklə yanaşı, həm də ölkəmizə gələn turistlərin diqqətini çəkir.

Tarixi-mədəni abidələrin bərpası, yeni mədəniyyət ocaqlarının tikilib istifadəyə verilməsi, mədəniyyət işçilərinin sosial rifahının yaxşılaşdırılması istiqamətində atılan addımlar isə bu sahənin çiçəklənməsini, yeni-yeni uğurların qazanılmasını şərtləndirən əsas amillərdəndir.

Fondun bu sahədə həyata keçirdiyi layihələr Azərbaycan mədəniyyətinin inkişafına xidmət edir. Bu xüsusda tarixi-mədəni abidələrimizin qorunması və bərpası, yeni mədəniyyət obyektlərinin istifadəyə verilməsini qeyd etmək yerinə düşər. Ötən illərdə Gəncədə Cavad xanın qəbri üzərində məqbərənin ucaldılması, Gəncə qapılarının, "Qu quşları" fəvvarə kompleksinin bərpası, Müasir İncəsənət, "Tullantıdan sənətə", "XX-XXI əsr Azərbaycan rəngkarlığı", Azərbaycan Xalça, Daş salnamə, Dəmirçi Arxeologiya və digər muzeylərin açılması, yeni-yeni mədəniyyət saraylarının, muğam mərkəzlərinin, musiqi məktəblərinin, lap elə bu yaxınlarda Ağdam Müsiqi Mərkəzinin istifadəyə verilməsi Heydər Əliyev Fondunun bu sahədə gördüyü irimiqyaslı işlərin tərkib hissəsidir. Milli mədəniyyətimiz sahəsində fondun təşkilatçılığı ilə keçirilən və ənənə halını alan müxtəlif musiqi layihələrini, o cümlədən Qəbələ, Aşıq, "Muğam aləmi", Mstislav Rostropoviç, Üzeyir Hacıbəyli beynəlxalq festivallarını, muğam televiziya müsabiqələrini, Şuşada keçirilən konsertləri qeyd etmək yerinə düşər.

Bu işlər Azərbaycan xalqının mədəni irsinin qorunmasında və dünya ictimaiyyətinin diqqətinə təqdim olunmasında və təbliğ edilməsində böyük əhəmiyyət daşıyır. Həmin sırada muğamı xüsusilə vurğulamalıyıq.

Ümummilli Lider Heydər Əliyevin ideyalarının həyata keçirilməsini özünün əsas fəaliyyət proqramı kimi qəbul edən fondun dəstəyi ilə ötən illər ərzində ölkəmizdə müxtəlif sahələrdə, o cümlədən valideyn himayəsindən məhrum uşaqlara kömək, Vətən müharibəsi əlillərinin yaxın və uzaq ölkələrdə müalicəsi, uşaq evlərinin, internat məktəblərinin abadlaşdırılması da daxil edilməklə təhsil, səhiyyə, mədəniyyət sahələrində irimiqyaslı proqramlar həyata keçirilib. Onların arasında əsas istiqamətlərdən biri də gənc nəslin maarifləndirilməsidir. Məhz bu məqsədlə fond bütün imkanlarından istifadə etməklə məktəb tikintisinə daha çox diqqət ayırır.

Neçə illərdir fondun təşəbbüsü ilə "Yeniləşən Azərbaycana yeni məktəb" proqramı həyata keçirilir. Layihə çərçivəsində paytaxtda və regionlarda dünya standartlarına cavab verən məktəb binaları inşa edilib, neçə-neçə məktəb cari və ya əsaslı təmir olunaraq müasir avadanlıq, istilik sistemi, zəngin kitabxana, əyani vəsait və kompüter avadanlığı ilə təchiz olunub. 2024-cü tədris ilində Heydər Əliyev Fondu tərəfindən Bakıda və regionlarda əsaslı təmir və bərpa olunan, eləcə də yeni inşa edilən 22 təhsil müəssisəsi - 19 məktəb və 3 məktəbəqədər müəssisə müəllim və şagirdlərin istifadəsinə verilib. Bunların arasında beş il bundan öncə erməni işğalından azad edilən Xankəndidə Qarabağ Univeristetinin açılışını xüsusu qeyd etməliyik. Bundan başqa, tədris ili ərzində inşa və təmir edilən 10 orta məktəbin açılışı olub. "Yeniləşən Azərbaycana yeni məktəb" layihəsi çərçivəsində indiyədək ölkənin müxtəlif bölgələrində 100 mindən artıq şagirdin təhsil aldığı 500-dən çox məktəb binası inşa olunub və ya yenidən qurulub.

"Uşaq evləri və internat məktəblərinin inkişafı" proqramı çərçivəsində ölkə ərazisində onlarca uşaq müəssisəsi əsaslı şəkildə yenidən qurulub, müasir avadanlıqla təchiz olunub, əlavə yardımçı binalar inşa edilib və kommunal şərait yaxşılaşdırılıb. Həmçinin bu proqram çərçivəsində uşaq evlərində tərbiyə almış, yaşı 18-dən yuxarı olan qızlar üçün yaşayış binaları tikilib, uşaq evlərində və internatlarda təhsil alanların asudə vaxtlarının səmərəli təşkili məqsədilə kütləvi tədbirlər, festivallar, müsabiqələr keçirilib.

"Diabetli uşaqlara ən yüksək qayğı", "Talassemiyasız həyat naminə", "Tibb müəssisələrinin yenidən qurulması və inşası" kimi bənzərsiz layihələr, bir çox xeyriyyə aksiyası Ümummilli Liderin bu sahə ilə bağlı ideyalarının reallaşması istiqamətində mühüm töhfələrdir. Fondun təşəbbüsü ilə Bakıda müasir Talassemiya Mərkəzi tikilmiş, Daun Sindromlu Şəxslərin Reabilitasiya Mərkəzi, xüsusi qayğıya ehtiyacı olan uşaqlar üçün Reabilitasiya Mərkəzi, Mərkəzi Neftçilər Xəstəxanasında Cərrahiyyə və Orqan Transplantologiya Mərkəzi, Psixo-nevroloji Uşaq Mərkəzi, eləcə də digər səhiyyə ocaqları inşa olunub və ya əsaslı şəkildə yenidən qurularaq istifadəyə verilib.

Heydər Əliyev Fondu işğaldan azad olunmuş ərazilərimizin bərpası prosesində yaxından iştirak edir, Qarabağ müharibəsi əlillərinə, şəhid ailələrinə, veteranlara böyük diqqət və qayğı göstərir. Müharibədə yaralanan qazilərimiz yüksəktexnologiyalı protezlərlə təmin olunur, zərurət yarandıqda yaralı hərbçilərimizin xaricdə müalicəsi təşkil edilir, onların sosial durumunun yaxşılaşmasına kömək göstərilir.

Heydər Əliyev Fondunun bu sahədə reallaşdırdığı layihələr Azərbaycanın bütün regionları ilə yanaşı, ölkəmizin hüdudlarından kənarda da uğurla həyata keçirilib. Fond xarici ölkələrdə təbii fəlakət nəticələrinin aradan qaldırılmasına yardım göstərmiş, məktəblərin inşasını, yenidən qurulmasını və əsaslı təmirini, dünya əhəmiyyətli tarix və mədəniyyət abidələrinin bərpasını təmin etmişdir.

Azərbaycan Prezidenti İlham Əliyev ötən il çıxışlarının birində Heydər Əliyev Fondunun gördüyü işləri yüksək qiymətləndirərək demişdir: "...Xeyriyyəçilik sahəsində Cənubi Qafqazda ən böyük təsisat Heydər Əliyev Fondudur. Heydər Əliyev Fondu 20 ilə yaxındır ki, yaradılmışdır və bütün bu illər ərzində fondun əsas məqsədi, vəzifəsi insanlara kömək göstərmək, Azərbaycan mədəniyyətini dünyada təbliğ etmək, təhsil, səhiyyə, mədəniyyət, incəsənət, elm sahələrinə töhfə verməkdir. ...Fondun xətti ilə aparılan işlər, görülən tədbirlər, irəli sürülmüş təşəbbüslər göz qabağındadır. ...Bu fond sübut etdi ki, əgər istək olarsa, əgər iradə olarsa və əgər xoş niyyət olarsa, istənilən sahədə istənilən məsələ həll oluna bilər".

Heydər Əliyev Fondu 2020-ci ilin sentyabrında başlanan və tarixi zəfərlə başa çatan 44 günlük Vətən müharibəsində həm daxili, həm beynəlxalq arenada Azərbaycan həqiqətlərini dünya ictimaiyyətinə çatdıraraq xalqımıza haqq işində dəstək olmaq üçün mümkün olanı edib. Fondun əməkdaşları hazırda erməni işğalından azad olunmuş bölgələrdə tikinti-quruculuq, bərpa işlərinə səfərbər olublar. Fond tərəfindən tarixi və dini abidələrin, məscidlərin bərpası ilə bağlı layihələr həyata keçirilir. İndiyədək bu layihələrin bir qismi tam icra olunub. 2021-ci ildə Şuşada dahi Azərbaycan şairi və ictimai xadim Vaqifin muzey-məqbərə kompleksinin yenidən qurulması cəmi bir neçə aya başa çatdırılıb. Abidənin hər detalında tarixi görkəmi qorunub saxlanılıb. Fondun dəstəyi ilə Vaqifin büstü və görkəmli Azərbaycan bəstəkarı Üzeyir bəy Hacıbəylinin heykəli, Xan qızı Natəvanın büstü bərpa edilib. Üzeyir bəy Hacıbəylinin Şuşadakı ev-muzeyi, mühüm tarixi memarlıq abidəsi olan Mehmandarovların malikanə kompleksi, "Şirin su" hamamı Heydər Əliyev Fondu tərəfindən bərpa olunub. Azərbaycanın tanınmış tarzəni Sadıqcanın Şuşadakı evinin bərpasını da fond həyata keçirib. İşğaldan azad olunmuş ərazilərdə bu istiqamətdə reallaşan layihələrin bir qismi də məscidlərin bərpası ilə əlaqəlidir. Şuşa məscidləri, həmçinin Ağdam Cümə və Zəngilan məscidləri Heydər Əliyev Fondu tərəfindən yüksək səviyyədə təmir olunaraq ziyarətçilərin ixtiyarına verilib.

Xocalı soyqırımının tanıdılmasında, mədəniyyətimizin, tariximizin, təbiətimizin, dövlətçilik ənənələrimizin xaricdə təbliği işinin düzgün qurulmasında da fond böyük işlər görmüşdür. Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın təşəbbüsü ilə istər respublikamızda, istərsə də yaxın və uzaq xarici olkələrdə hər il həyata keçirilən "Xocalıya ədalət!" beynəlxalq kampaniyası çərçivəsində silsilə tədbirlər reallaşdırılır.

Xalqa xidmətləri, milli dövlət quruculuğu və Azərbaycan gəncliyinin sağlam, savadlı, geniş dünyagörüşə malik şəxslər kimi formalaşmasında misilsiz fəaliyyətləri ilə əbədiyaşarlıq qazanmış türk dünyasının böyük oğlu Heydər Əliyevin anım günü hər il olduğu kimi, bu il də adını şərəflə daşıdığı fondun təşkilatçılığı ilə Bakıdan tutmuş respublikamızın ən ucqar kənd, qəsəbə və rayonlarında, habelə dünyanın bir çox ölkəsində səfirliklər, diaspor və qeyri-hökumət təşkilatları tərəfindən böyük ehtiramla qeyd edilir.

***Rəhman SALMANLI, "Azərbaycan"***

## Xalqımıza misilsiz xidmət nümunəsi

**Müasir Azərbaycanın memarı və qurucusu, görkəmli dövlət xadimi, dünya miqyaslı siyasətçi, xalqımızın Ümummilli Lideri Heydər Əliyevin şərəfli həyat yolu, müdrik liderlik fəaliyyəti və xalqımıza göstərdiyi misilsiz xidmətləri bütün gələcək nəsillərə ən qiymətli mirasdır. Ulu Öndər Heydər Əliyevin qətiyyətli siyasəti Azərbaycan xalqının taleyində dönüş nöqtəsi olmaqla yanaşı, ölkəmizin müstəqillik tarixində yeni və rəşadətli mərhələnin təməlini qoydu.**

Dünyasını dəyişdiyi 2003-cü ildən hər bir azərbaycanlı xalqımızın liderinin, xilaskarının doğum və anım günlərində əlində gül dəstəsi Fəxri xiyabana gələrək, Ümummilli Liderin məzarını ziyarət etməyi özünə mənəvi borc bilir. Azərbaycan tarixində qüdrətli dövlət başçısı, fenomen şəxsiyyət olan Heydər Əliyev uzaqgörən siyasəti, qəbul etdiyi qərarları, ölkəmizin inkişafı naminə göstərdiyi misilsiz xidmətləri ilə hər zaman vətəni, xalqı üçün əziz və doğma olaraq qalacaq. Ulu Öndər Heydər Əliyevin həyatı, fəaliyyəti, təcrübəsi, əqidəsi və amalı böyüməkdə olan gənc nəsillərin təlim-tərbiyəsində olduqca dəyərli, əhəmiyyətli əvəzsiz nümunədir.

Ümummilli Lider öz ali liderlik keyfiyyətləri ilə dünyanın siyasi elitasının ən uca zirvəsində qərarlaşan böyük şəxsiyyətdir. Ümummilli Lider Heydər Əliyevin ən böyük arzusu Qarabağın işğaldan azad edilməsi, ərazi bütövlüyümüzün, suverenliyimizin, tariximizin, sərhədlərimizin bərpası idi.

Böyük dövlət xadiminin, nadir şəxsiyyətin layiqli davamçısı, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı, Prezident İlham Əliyevin rəhbərliyi altında Azərbaycan hər il daha böyük uğurlar qazanır, qüdrətlənir və regionda lider mövqeyini daha da möhkəmləndirir. Hər bir xalq üçün ən önəmli məsələlərdən biri də onun ərazi bütövlüyüdür, suverenliyidir. Bu baxımdan Prezident İlham Əliyevin siyasi iradəsi, sərkərdəlik təcrübəsi, dönməz qətiyyəti ilə 44 günlük Vətən müharibəsində qazanılan şanlı qələbəmiz ölkəmizin tarixinə qızıl hərflərlə yazılıb.

Qarabağın azad olunmasını, Qələbə paradlarının keçirilməsinin həsrətini xalqımız 30 il idi ki, gözləyirdi. 2020-ci il sentyabrın 27-də erməni təxribatı nəticəsində başlanan İkinci Qarabağ müharibəsində Azərbaycan Ordusunun gücü, qüdrəti sayəsində torpaqlarımız işğaldan azad olundu. Prezident İlham Əliyevin yürütdüyü daxili və xarici siyasət, eləcə də rəşadətli Azərbaycan Ordusunun döyüş meydanlarında qazandığı qələbələr sayəsində Kəlbəcər, Laçın və Ağdam rayonları bir güllə atılmadan, şəhid vermədən qaytarıldı. Bu, olduqca böyük, indiyə qədər tariximizdə görünməyən qələbə idi.

Zəfər paradları Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyevin siyasət və döyüş meydanında qazandığı diplomatiyasının qələbəsi idi. Bu, şanlı ordumuzun igid əsgər və zabitlərinin qanı bahasına qazanılmış zəfərin Prezident İlham Əliyevin dilindən həmişə səslənən "Qarabağ Azərbaycandır" nidası idi! Torpaqlarımızın işğalına, həsrətinə son qoyan Zəfər xalqımızın gücünün, qüdrətinin dünyaya nümayişi və təntənəsi idi. Erməni işğalından azad olunmuş torpaqlarımızda dalğalanan üçrəngli bayraqlarımızı gördükcə qürur hissləri keçiririk.

Artıq Qarabağ münaqişəsi tarixin arxivinə gömülüb. Azərbaycan Prezidenti İlham Əliyevin imzaladığı 2 dekabr 2020-ci il tarixli sərəncamlarına əsasən, hər il 8 noyabr Zəfər Günü, 27 sentyabr isə Anım Günü kimi qeyd edilir. Bu günlər ölkəmizin tarixinə qızıl hərflərlə yazılıb. Və biz bir xalq və millət olaraq qalib Azərbaycanın vətəndaşı olmağımızla qürur duyuruq. Qürur duyuruq ki, uğurlarımızın təməlində sarsılmaz xalq-iqtidar birliyi dayanır. 44 günlük Vətən müharibəsində bu birlik daha da möhkəmlənərək "dəmir yumruğ"a çevrildi. 30 il gözlədiyimiz o möhtəşəm tarixə şahidlik etmək zamanı yetişdi! Sözsüz ki, qələbə asanlıqla qazanılmır. Hamımıza sevinc bəxş edən bu qələbə Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyevin sərkərdəliyi ilə, rəşadətli ordumuzun, qəhrəman əsgər-zabitlərimizin igidliyi ilə qazanıldı.

Dövlətimizin başçısı İlham Əliyev Laçın rayonunun işğaldan azad olunması münasibətilə xalqa təbrikində bir daha bildirdi ki, döyüş meydanında, siyasi müstəvidə qazandığımız Qələbə ölkəmiz üçün yeni dövr açır. 30 il gözlədiyimiz o möhtəşəm tarixə şahidlik etmək zamanı yetişdi. 8 noyabr 2020-ci il - Qarabağa qovuşduğumuz tarix və böyük Qələbə günü. Şanlı tariximizə daxil olan Zəfər günü. Azərbaycan Ordusu öz qəhrəmanlığı və peşəkarlığı ilə yalnız Ermənistanın silahlı qüvvələrini deyil, illərdən bəri dünyada dolaşan erməni mifini də məhv etdi. Azərbaycanın cəsur oğulları Ermənistan silahlı qüvvələrini döyüş meydanında məğlubiyyətə uğratdı. Ermənilərin uzun illər yaratdıqları "məğlubedilməzlik" mifi darmadağın olundu. Daşnaklar orduları haqqında yalanlar uydurararaq əfsanələr yaratmışdılar. Cəmi 44 gün ərzində Ermənistan silahlı qüvvələrinin hərbi texnikası, canlı qüvvəsi qüdrətli Azərbaycan Ordusu tərəfindən darmadağın edildi. Azərbaycan öz gücünə, öz qüdrətinə ərazi bütövlüyünü və suverenliyini tam bərpa etdi.

Azərbaycan, Rusiya prezidentləri və Ermənistan baş naziri tərəfindən 2020-ci il noyabrın 10-da imzalanan üçtərəfli Bəyanat Azərbaycan tarixinin ən böyük diplomatik qələbəsini təsdiq edən sənəddir. Bu, tarixi Qələbədir və Azərbaycanın tarixində əbədi qalacaq.

Zəfərin ideoloji və mənəvi mahiyyəti bu gün hər bir azərbaycanlının həyatında mühüm rol oynayır. Çünki bu qələbə təkcə bir dövrün hadisəsi deyil, müstəqil dövlətçilik tariximizin şərəfli səhifəsi, milli kimliyimizin ayrılmaz şanlı parçasıdır. Xalqımızın əzmini, dövlətimizin qüdrətini və müstəqilliyimizin əbədiliyini simvolizə edən əziz gündür.

5 ildir xalqımız Ümummilli Lider Heydər Əliyevin məzarını Zəfər ovqatı ilə ziyarət edir, xilaskar oğlunu böyük ehtiram və hörmətlə anır. Bundan Ulu Öndərin ruhu da şaddır. Çünki bir zamanlar bünövrəsini qoyduğu və daim gücləndirdiyi ordu Qarabağı erməni işğalçılarından azad etdi. Fəxri xiyabana üz tutan hər bir ziyarətçinin ürəyindən qürur dolu bu sözlər dünyaya yayılır: Yaşasın müstəqil qalib Azərbaycan!

***Nailə YUSİFOVA,***
***Azərbaycan Dövlət İqtisad Universitetinin (UNEC) dosenti, Prezident mükafatçısı***

## Müasir Azərbaycan dövlətçiliyinin memarı

**Azərbaycan xalqının XX əsrdə yetirdiyi ən böyük dövlət xadimlərindən biri, müasir, müstəqil Azərbaycan dövlətinin qurucusu və memarı, Ulu Öndər Heydər Əliyevin Anım Günü xalqımız üçün dərin ehtiram və sonsuz minnətdarlıq hissi ilə qeyd olunur. Onun zəngin siyasi irsi, uzaqgörən dövlətçilik fəlsəfəsi və misilsiz xidmətləri Azərbaycan tarixində silinməz iz qoymuş, milli istiqlal ideyasının əbədiyyətə qovuşmasına zəmin yaratmışdır.**

Heydər Əliyev şəxsiyyəti yalnız bir siyasi lider obrazı deyil, bütövlükdə bir xalqın taleyinə istiqamət verən, tarixin axarını dəyişən fenomen kimi qiymətləndirilir. O, XX əsrin mürəkkəb və ziddiyyətli geosiyasi prosesləri fonunda Azərbaycanı qorumağı, möhkəmləndirməyi və dünyaya tanıtmağı bacaran nadir şəxsiyyətlərdən biri olmuşdur.

Ulu Öndər Heydər Əliyev 10 may 1923-cü ildə Naxçıvan şəhərində dünyaya göz açmışdır. Onun dövlət idarəçiliyinə yüksəlişi asan olmamış, gərgin zəhmət, prinsipiallıq və böyük iradə sayəsində gerçəkləşmişdi. O, təhlükəsizlik orqanlarında başladığı fəaliyyət yolunu respublika rəhbərliyinə, daha sonra isə SSRİ rəhbərliyinin ən yüksək pillələrinə qədər davam etdirmişdir.

1969-cu ildə Azərbaycan SSR-in rəhbəri seçilən Ulu Öndər Heydər Əliyev respublikanın sosial-iqtisadi, elmi və mədəni həyatında əsaslı dönüş yaratmışdı. Məhz onun uzaqgörən siyasəti nəticəsində Azərbaycan qısa müddətdə sənaye, kənd təsərrüfatı, təhsil, mədəniyyət və elmi sahələrdə sürətli inkişaf mərhələsinə qədəm qoymuşdu. Milli kadrların formalaşdırılması, Azərbaycan dilinin, milli-mənəvi dəyərlərin qorunması istiqamətində atılmış addımlar gələcək müstəqillik yolunun əsasını təşkil etmişdi.

1990-cı illərin əvvəllərində Azərbaycan müstəqilliyini bərpa etsə də, ölkə anarxiya, siyasi böhran, iqtisadi tənəzzül və vətəndaş qarşıdurması təhlükəsi ilə üz-üzə qalmışdı. Ermənistanın Azərbaycana qarşı apardığı işğalçı siyasət nəticəsində torpaqlarımızın bir hissəsi zəbt edilmiş, bir milyondan artıq insan qaçqın və məcburi köçkün vəziyyətinə düşmüşdü.

Belə bir ağır vaxtda xalq çıxış yolunu Ulu Öndər Heydər Əliyevin simasında gördü. 1993-cü ildə xalqın təkidli tələbi ilə yenidən hakimiyyətə qayıdan Ulu Öndər ölkəni dağılmaqdan xilas etdi, tez bir zamanda sabitliyi və ictimai asayişi təmin etdi, nizami ordu quruculuğuna başladı və dövlətçilik institutları yaratdı.

1994-cü ildə "Əsrin müqaviləsi"nin imzalanması ilə Azərbaycan dünya enerji bazarına çıxış əldə etdi, ölkəyə milyardlarla dollar sərmayə cəlb olundu. Bu həm iqtisadi dirçəlişin, həm də siyasi müstəqilliyin möhkəmlənməsində mühüm rol oynadı. Ulu Öndərin əsas məqsədi Azərbaycanın uzunmüddətli müstəqilliyini təmin edən güclü, dayanıqlı dövlət qurmaq idi.

Ulu Öndər Heydər Əliyevin əsas xidmətlərindən biri də azərbaycançılıq ideologiyasının sistemli şəkildə formalaşdırılmasıdır. O, azərbaycanlı kimliyini milli birliyə çevirməyi bacardı. Onun üçün dövlətin ali dəyəri insan, xalq və onun gələcəyi idi. Gənclərin vətənpərvərlik ruhunda tərbiyəsi, milli irsin qorunması, dil və mədəniyyətin inkişafı onun siyasi kursunun əsas dayaqlarından birinə çevrildi.

Bu gün Azərbaycanın müstəqil siyasət yürütməsi, beynəlxalq arenada nüfuz qazanması, öz sözünü qətiyyətlə deməsi, regional güc mərkəzinə çevrilməsi Ulu Öndər tərəfindən müəyyən edilən strateji yol xəritəsinin nəticəsidir.

Ulu Öndərin siyasi kursu bu gün Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Onun rəhbərliyi ilə Azərbaycan iqtisadi, siyasi və hərbi baxımdan daha da güclənmişdir. Buna görədir ki, ölkəmiz 2020-ci ildə 44 günlük Vətən müharibəsində tarixi Qələbə qazanaraq ərazi bütövlüyünü və suverenliyini tam bərpa etmişdir. Bu zəfər, əslində, Ulu Öndər Heydər Əliyevin illər öncə qoyduğu güclü dövlətçilik təməlinin, güclü ordu və milli ruh strategiyasının məntiqi nəticəsi oldu.

Ulu Öndər Heydər Əliyev 12 dekabr 2003-cü ildə dünyasını dəyişsə də, onun ideyaları, əməlləri və qurduğu dövlətçilik fəlsəfəsi bu gün yaşayır və gələcək nəsillərə ötürülür. Ümummilli Liderin adı Azərbaycan tarixinin ən parlaq səhifəsinə həkk olunub.

Ulu Öndər Heydər Əliyev əbədiyaşar lider, müasir Azərbaycanın memarıdır. Azərbaycan xalqı üçün Ulu Öndər yalnız bir dövlət başçısı deyil, bir xilaskar, bələdçi, ümid simvolu olub. Onun xatirəsi daim ehtiramla anılır, yolu və ideyaları gələcək nəsillər üçün örnək olaraq qalır.

***Nicat İSMAYILOV***

# Vaşinqtonda Ümummilli Lider Heydər Əliyevin xatirəsi anılıb

**Azərbaycanın ABŞ-dəki səfirliyinin təşkilatçılığı ilə Vaşinqtonda yerləşən Corc Vaşinqton Universitetində Ümummilli Lider Heydər Əliyevin xatirəsinə həsr olunmuş anım mərasimi keçirilib.**



Tədbirdə səfirliyin əməkdaşları, ABŞ-də səfərdə olan dövlət rəsmiləri, burada yaşayan azərbaycanlı icmanın üzvləri, eləcə də müxtəlif universitetlərdə təhsil alan azərbaycanlı tələbələr iştirak ediblər.

Mərasim Ümummilli Lider Heydər Əliyevin xatirəsinin birdəqiqəlik sükutla yad edilməsi ilə başlayıb.

Daha sonra Azərbaycan Respublikasının ABŞ-dəki səfiri Xəzər İbrahim giriş nitqi ilə çıxış edərək diplomatik karyerasının ABŞ-də başladığını və Ümummilli Liderin iki ölkə arasında münasibətlərin dərinləşməsində gördüyü işlərə şahid olduğunu deyib. O bildirib ki, Vaşinqtonda 8 avqust görüşündən sonra ikitərəfli əlaqələrdə növbəti mərhələ başlayıb. Bu əlaqələrin təməli məhz Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulub.

ADA Universitetinin rektoru, səfir Hafiz Paşayev çıxışında Azərbaycanın bu ölkədəki ilk səfiri kimi o dövrdə gedən çətin siyasi proseslərdən və Heydər Əliyevin uzaqgörən siyasəti nəticəsində ikitərəfli əlaqələrin inkişafı istiqamətində görülən işlərdən danışıb. O, Heydər Əliyevin 1994, 1997 və 1999-cu illərdə ABŞ-yə səfərləri, səfərlərə hazırlıq prosesindən və Heydər Əliyevin ABŞ siyasətçilərində yaratdığı xoş təəssüratdan bəhs edib. Hafiz Paşayev bildirib ki, Ulu Öndər Vətənini sevən güclü diplomat idi və Azərbaycan diplomatiyasının bugünkü uğuru da o dövrdən başlayır.

Ardınca Azərbaycan Respublikasının energetika naziri Pərviz Şahbazov çıxış edərək müstəqil olduqdan sonra Azərbaycanın bütün sahələrdə və xüsusilə energetika, neft-qaz sahələrində gördüyü işlərin xüsusi əhəmiyyət kəsb etdiyini deyib. Onun sözlərinə görə, mürəkkəb geosiyasi və geoiqtisadi vəziyyətdə və çətin regionda neft-qaz layihələrinin həyata keçirilməsi asan iş deyildi. Nazir bildirib ki, Azərbaycanın inkişafında müstəsna rol oynayan neft müqavilələri ABŞ ilə əməkdaşlıq çərçivəsində həyata keçirilib. Onun sözlərinə görə, Ulu Öndər ABŞ ilə münasibətlərə önəm verirdi və bunun sayəsində enerji sahəsində böyük beynəlxalq müqavilələr öz imzasını tapırdı və gerçəkləşdirilirdi.

Daha sonra Azərbaycan Respublikasının Milli Məclisinin deputatı, Azərbaycan-ABŞ parlamentlərarası əlaqələr üzrə İşçi qrupunun rəhbəri Səməd Seyidov çıxışında deyib ki, Heydər Əliyevin siyasəti nəticəsində ABŞ ilə münasibətlərin genişlənməsi Azərbaycan üçün Avropaya qapıları da açıb. O bildirib ki, ABŞ ilə əlaqələr, imzalanmış müqavilələr Ulu Öndərin ən böyük nailiyyətlərindən biri olub və bu siyasət bu gün Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Deputat əlavə edib ki, Azərbaycanın bugünkü uğuru dövlət başçısının siyasəti və Ulu Öndərin fəlsəfəsi ilə bağlıdır.

Tədbirin sonunda Heydər Əliyev Fondunun təşəbbüsü ilə hazırlanan və Ümummilli Lider Heydər Əliyevə həsr olunan "İz" sənədli filmi nümayiş etdirilib.

Sonda universitetin foyesində Ulu Öndərin ABŞ-yə səfərləri və ikitərəfli görüşlərdə iştirakı ilə bağlı fotosərgi təqdim olunub.

# Milli maraqları qətiyyətlə təmin edən çoxvektorlu xarici siyasət kursu

**Ümummilli Lider Heydər Əliyev Azərbaycan dövlətçiliyinin inkişafındakı çoxşaxəli fəaliyyəti, misilsiz xidmətləri və strateji qərarları sayəsində XX əsr bəşəriyyət tarixində böyük dövlət xadimləri arasında layiqli yer tutur. Heydər Əliyevin dövlətçilik məfkurəsi yalnız siyasi idarəetmənin təkmilləşdirilməsi ilə məhdudlaşmır. Onun dövlətçiliyimizin inkişafı prinsipləri müasir Azərbaycan cəmiyyətinin də formalaşmasına ciddi töhfə vermişdir.**



Azərbaycanın müstəqillik dövründə formalaşan siyasi idarəetmə və inkişaf modeli 1990-cı illərin mürəkkəb geosiyasi mühitində Ümummilli Lider Heydər Əliyevin müəyyənləşdirdiyi strategiyanın nəticəsidir. Bu strategiyanın əsas elementlərini qısa formada aşağıdakı kimi ümumiləşdirmək olar:

Dövlət idarəçiliyində institusional sabitliyin təmin edilməsi;

Cəmiyyətin milli birliyinin və sosial konsolidasiyanın möhkəmləndirilməsi;

İqtisadiyyatın diversifikasiyası və investisiya mühitinin yaxşılaşdırılması;

Milli maraqlara əsaslanan xarici siyasət kursunun və çevik diplomatiyanın formalaşdırılması.

Heydər Əliyevin milli maraqlara əsaslanan, çoxvektorlu xarici siyasət kursu müasir Azərbaycanın regional və qlobal miqyasda mövqelərinin möhkəmlənməsinə bu gün də töhfə verməkdədir. Ümummilli Liderin düşünülmüş çoxşaxəli diplomatik fəaliyyəti gənc müstəqil dövlətimizin beynəlxalq birliyə inteqrasiya imkanlarını genişləndirmişdir. Heydər Əliyevin formalaşdırdığı xarici siyasət kursunun mahiyyəti əsasən aşağıdakı əsas istiqamətlərdə özünü göstərirdi:

- *Dövlət müstəqilliyinin qorunması və suverenliyimizin təmin edilməsi:* Heydər Əliyevin xarici siyasətinin başlıca məqsədi beynəlxalq təzyiqlər və regional risklər fonunda Azərbaycanın müstəqilliyini gücləndirmək, onun suveren qərarvermə imkanlarını təmin etmək idi.

- *Ermənistan-Azərbaycan münaqişəsinin həllində prinsipial mövqe və beynəlxalq müstəvidə fəaliyyət:* Xarici siyasətin prioritet istiqaməti Ermənistanın təcavüzü və işğalı nəticəsində yaranmış dövlətlərarası münaqişənin beynəlxalq hüququn prinsipləri, BMT TŞ-nin 1993-cü il Qətnamələri əsasında həllinə nail olmaq, Azərbaycanın ərazi bütövlüyünün və suverenliyinin tam təmin edilməsi və bu məsələlərdə dövlətimizin haqlı mövqeyinə dünya ictimaiyyətinin dəstəyini təmin etmək idi.

- *Milli maraqlara əsaslanan, balanslaşdırılmış çoxvektorlu diplomatiya:* Azərbaycanın eyni vaxtda müxtəlif güc mərkəzləri - qonşu dövlətlər, Qərb ölkələri, regional təşkilatlar və qlobal aktorlarla balanslaşdırılmış münasibət qurması əsas prioritetlərdən birini təşkil edirdi. Bu yanaşma ölkəni geosiyasi rəqabətin obyektinə deyil, subyektinə çevirdi.

- *Enerji resurslarının istehsalı və nəqlinin xarici siyasət alətinə çevrilməsi:* Xəzər enerji resurslarının beynəlxalq bazarlara çıxarılması Azərbaycanın iqtisadi inkişafını təmin etməklə yanaşı, ölkənin strateji tərəfdaşlıq əlaqələrini möhkəmləndirdi və onu regional enerji təhlükəsizliyinin əsas iştirakçısına çevirdi. Bu istiqamətdə həyata keçirilən layihələr Azərbaycanın davamlı iqtisadi yüksəlişində və beynəlxalq nüfuzunun artmasında müstəsna rol oynamaqdadır.

- *Regional və qlobal əməkdaşlığın genişləndirilməsi:* Xəzər regionunda və daha geniş coğrafiyada əməkdaşlıq platformalarının yaradılması, beynəlxalq təşkilatlarda fəallığın artırılması Heydər Əliyevin siyasətinin mühüm komponentləri sırasında idi.

1997-2025-ci illər ərzində Azərbaycan Respublikası 25 dövlətlə strateji tərəfdaşlıq haqqında sənəd imzalamışdır. Bu dövlətlərin 10-u Avropa İttifaqının üzvü olan dövlətlərdir. Torpaqlarımız işğal altında olan zaman strateji tərəfdaşlıq münasibətlərinin qurulmasında əsas məsələ Ermənistan-Azərbaycan münaqişəsinin Azərbaycanın ərazi bütövlüyü, suverenliyi və beynəlxalq tanınmış sərhədləri çərçivəsində, xüsusilə BMT Təhlükəsizlik Şurasının 1993-cü il qətnamələri əsasında həllinə birmənalı dəstəyin təmin edilməsi idi. Bu prinsipial və güzəştə gedilməsi heç bir halda mümkün olmayan mövqeyi Ümummilli Lider Heydər Əliyev müəyyənləşdirmişdi. Prezident İlham Əliyev də məhz bu prinsipiallığın və ardıcıl xarici siyasət kursunun təmin edilməsini Azərbaycan diplomatiyasının qarşısında hədəf kimi qoymuşdu.

Azərbaycanın bu gün əldə etdiyi nailiyyətlər Heydər Əliyevin müəyyən etdiyi inkişaf xəttinin ardıcıl davam etdirilməsinin nəticəsidir. Prezident İlham Əliyevin rəhbərliyi ilə reallaşdırılan genişmiqyaslı layihələr və siyasi-iqtisadi transformasiyalar Ulu Öndərin strateji vizyonunun aktuallığını və davamlılığını təsdiqləyir.

***Rizvan NƏBİYEV,***
***Milli Məclisin deputatı,***
***siyasi elmlər doktoru***

# Ulu Öndər xalqımızın qəlbində əbədi yaşayacaq

12 dekabr tarixi xalqımızın yaddaşına kədərli notlarla yazılıb. 2003-cü ilin həmin günündə xalqımız müstəqil müasir Azərbaycan dövlətinin qurucusu Ümummilli Lider Heydər Əliyevlə əbədi olaraq vidalaşdı. Xalqımız tarixində olduqca mühüm yer tutmuş, bu nadir şəxsiyyəti, görkəmli dövlət xadimi Heydər Əliyevi heç vaxt unutmur. Daim xilaskar oğlunu dərin hörmətlə xatırlayır. 22 ildir ki, xalqımız dekabr ayının 12-ni Ulu Öndər Heydər Əliyevin anım günü kimi böyük ehtiramla qeyd edir.



Görkəmli dövlət xadimi Heydər Əliyev müasir müstəqil Azərbaycan dövlətinin memarı və qurucusudur. Bu böyük şəxsiyyətin xalqımız qarşısındakı xidmətləri cildlərlə kitablara sığmaz. Azərbaycan xalqı Ulu Öndər Heydər Əliyevin simasında əsl milli Liderini tapmışdır. Ümummilli Lider zaman-zaman yürütdüyü uğurlu daxili və xarici siyasət nətisəcində milli ruhun dirçəldilməsinə, Azərbaycan dövlətinin, iqtisadiyyatının, mədəniyyətinin inkişafına və çiçəklənməsinə nail olmuşdur. Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyev həm ölkəmizin, həm də müasir dünya tarixinə parlaq və silinməz iz qoymuş qeyri-adi zəka, fitri istedad sahibi, müdrik dövlət xadimi kimi düşüb.

Bu gün hamımızın qürur duyduğumuz güclü, qüdrətli müstəqil Azərbaycan dövləti hazırkı mərhələsinə asan yolla gəlib çatmamışdır. Yaxın tariximizdən məlumdur ki, ötən əsrin sonlarında yenidən müstəqillik əldə etdikdən sonra müxtəlif sosial-iqtisadi, siyasi problemlərlə üzləşən, vətəndaş müharibəsinin astanasında olan Azərbaycan öz müstəqilliyini itirmək təhlükəsi ilə qarşı-qarşıya qalmışdı. O dövrdə hakimiyyətdə olan qüvvələrin səriştəsizliyi ucbatından ölkədə ictimai-siyasi gərginlik dərinləşərək anarxiya həddinə çatmışdı. 1993-cü ilin iyununda Ulu Öndər Heydər Əliyevin xalqın təkidli tələbi ilə hakimiyyətə gəlişindən sonra qısa müddət ərzində ölkəmizi tənəzzülə sürükləyən proseslərin qarşısı qətiyyətlə alınmış, bundan sonra ictimai-siyasi sabitlik yaranmışdı.

Həmin gərgin günlərdə ölkəmizdə ictimai-siyasi sabitliyin qorunmasının, mövcud iqtisadi inkişafın, hərtərəfli tərəqqinin təməlində Ümummilli Lider Heydər Əliyevin güclü inkişaf strategiyası, müəyyənləşdirdiyi düzgün daxili və xarici siyasət xətti dayanır. Ulu Öndər Heydər Əliyevin Azərbaycan xalqı və dövləti qarşısındakı misilsiz tarixi xidmətləri nadir şəxsiyyətin fəaliyyətinin bütün mərhələlərini əhatə edir.

Ulu Öndər müstəqil Azərbaycanın sosial-iqtisadi və siyasi əsaslarının möhkəmləndirilməsində, dünyanın aparıcı dövlətlərinin etibarlı tərəfdaşına çevrilməsində çox böyük işlər görüb, zaman-zaman uğurlu addımlar atıb. Ümummilli Lider Heydər Əliyev işıqlı zəkası, biliyi, bacarığı ilə, uzaqgörən siyasəti ilə ürəkdən sevdiyi xalqını bütün bəlalardan qoruyub, respublikamızı dinamik inkişaf yoluna çıxarıb. Ulu Öndər Heydər Əliyevin misilsiz xidmətləri sayəsində Azərbaycan dünyada tanınıb.

Xalqımız Ulu Öndər Heydər Əliyevin dövlətimiz qarşısındakı xidmətlərini heç vaxt unutmur. Hər il dekabrın 12-də, Ümummilli Liderin anım günündə xalqımız müasir müstəqil Azərbaycanın banisi olmuş bu böyük şəxsiyyətin Fəxri xiyabandakı məzarını sonsuz ehtiramla ziyarət edir, xatirəsini hörmətlə anır, ona olan sevgisini bir daha ifadə edir.

Dünən hava bir az çiskinli olsa da, insanlar böyük sevgi ilə görkəmli dövlət xadimi, Ümummilli Lider Heydər Əliyevin məzarını ziyarət etməyə gəlirdilər. Əllərində gül dəstələri, əklillər tutmuş insanların Fəxri xiyabana gəlişinin ardı-arası kəsilmirdi. Azərbaycan xalqının Ulu Öndərə olan sevgisi və hörməti hər addımda hiss olunurdu. Ziyarətə gələnlərin arasında elm adamları, tanınmış xadimlər, tələbələr, məktəblilər, veteranlar, təqaüdçülər var idi.



"İdman veteranları" İctimai Birliyinin prezidenti, 5 qat Avropa, 2 qat dünya çempionu, beynəlxalq dərəcəli idman ustası, Əməkdar bədən tərbiyəsi və idman xadimi Zemfira Meftahətdinova da ziyarətə gələnlərin arasında idi. Bizimlə söhbətində o dedi ki, idmançılar hər il Ümummilli Lider Heydər Əliyevin məzarını ziyarət edirlər. Ulu Öndər ölkəmizə rəhbərlik etdiyi bütün dövrlərdə Azərbaycanın hərtərəfli inkişafına, daha da güclənməsinə böyük töhfələr verərək, onun gələcək inkişaf strategiyasını müəyyənləşdirmişdi. Ümummilli Liderin çoxsahəli fəaliyyətinin əsas istiqamətlərindən biri də idman və bədən tərbiyəsi sahəsinin inkişafı olmuşdur. Heydər Əliyev ölkəmizə rəhbərlik etdiyi dövrlərdə idmana böyük diqqət və qayğı ilə yanaşmışdı. O illərdə idmanın maddi-texniki bazasının yaradılması üçün çox işlər görülmüşdü. Yeni-yeni idman kompleksləri, qurğuları, zalları tikilmiş, geniş meydançalar salınmış, böyük idman-sağlamlıq mərkəzləri yaradılmışdı. İdmançılara dövlət səviyyəsində qayğı göstərilmişdir. Məhz buna görə də ölkəmizdə idman sahəsi inkişaf etmişdir. İdmançılarımız keçirilən beynəlxalq yarışlardan geriyə medallarla qayıtmışlar. Müxtəlif ölkələrdə himnimizi səsləndirmiş, bayrağımızı yüksəltmişdilər. Bu gün Azərbaycan dünyada idman ölkəsi kimi tanınır. Bütün bunlar Ulu Öndər Heydər Əliyevin zaman-zaman Azərbaycan idmanına göstərdiyi diqqət və yardımının nətisəsidir.

Ulu Öndərin məzarını ziyarətə gəlmiş "Azərbaycan-Türk xalqları" İctimai Birliyinin rəhbəri, filologiya üzrə fəlsəfə doktoru, dosent Səkinə Bayramova ilə də söhbət etdik. O dedi ki, xalqların tarixində dahi şəxsiyyətlər olur. Belə şəxsiyyətlər həmişə qorxmadan millətinin, dövlətinin tərəqqisinə xidmət edən ali məqsədlər uğ-



runda gedən mübarizənin önündə addımlayırlar. Azərbaycan xalqının dahi şəxsiyyətlərindən biri də həmişə sevilə-sevilə xatırlanan Ulu Öndər Heydər Əliyevdir. Bənzərsiz ictimai-siyasi fəaliyyəti olan və bütövlükdə mənalı ömür yolu keçmiş Ümummilli Lider dünyanın ən tanınmış şəxsiyyətlərindən biri kimi hər bir azərbaycanlının qəlbində əbədi yaşayır. Ulu Öndər Azərbaycan xalqının taleyinə qurtuluş mübarizəsinin qalibi kimi daxil olmuş əvəzsiz bir şəxsiyyətdir. Azərbaycanlı olmağı ilə həmişə fəxr edən Ulu Öndər Heydər Əliyev keçmiş ittifaqın sərt qanunlarına baxmayaraq, Azərbaycana rəhbərlik etməyə başladığı 1969-cu ildən respublikamızda böyük iqtisadi, elmi yüksəlişlə yanaşı, ədəbi-mədəni inkişafa və müstəqil düşüncəyə yol açmışdır. Sovet rejiminin ideoloji məsələlərə xüsusi həssaslıqla yanaşdığı vaxtlarda Azərbaycanın milli maraqları, mədəni-mənəvi dəyərlərinin qorunması üçün mümkün olan hər şeyi etmişdir. Ümummilli Lider Heydər Əliyev dövrümüzün ən parlaq simalarından və nadir şəxsiyyətlərindəndir. Böyük zəhmətlər bahasına xalqımız üçün müasir və müstəqil Azərbaycanı qurduğuna, yaratdığına və yaşatdığına görə xalqımız həmişə bu dahi şəxsiyyətə borcludur. Odur ki, onun məzarını böyük minnətdarlıq hissi ilə, ehtiramla ziyarət edir.



Rabitə və İnformasiya üzrə Bakı dövlət peşə mərkəzinin 3-cü kurs tələbəsi Akif Osmanovla söhbətimiz də maraqlı oldu. O dedi ki, biz kurs yoldaşlarımızla ürəyimizin hökmü ilə xalqımızın Ümummilli Lideri Heydər Əliyevin Fəxri xiyabandakı məzarını ziyarət etməyə gəlmişik. Azərbaycan gəncliyinin Ulu Öndərə sevgisi çox böyükdür. Biz gənclər yaxşı bilirik ki, ölkəmizdə uğurlu dövlət gənclər siyasətinin əsasını Ümummilli Lider Heydər Əliyev qoyub. Ulu Öndər respublikamıza rəhbərlik etdiyi bütün dövrlərdə gənclərə xüsusi qayğı ilə yanaşmış, onların yaxşı oxumaları, təhsil almaları üçün hərtərəfli şərait yaratmışdır. Bu böyük tarixi şəxsiyyətin diqqət və qayğısı sayəsində yüksək intellektual səviyyəyə, müasir dünyagörüşünə malik gənc nəsil yetişmişdir. Buna görə də gənclərin Ulu Öndərə sevgisi heç vaxt tükənməyəcək, hələ getdikcə daha da artacaq.



Əlində gül dəstəsi Ümummilli Lider Heydər Əliyevin məzarını ziyarət etməyə gəlmiş filologiya üzrə fəlsəfə doktoru, dosent Yeganə Qəhrəmanovanın da ürəyi dolu idi. Yeganə xanım dedi ki, Ulu Öndərin şərəf dolu ömür yolu hər birimiz üçün örnəkdir. Bu böyük tarixi şəxsiyyət bütün mənalı həyat və fəaliyyəti ilə doğma xalqımıza, dövlətimizə sədaqətlə xidmət edib. Ümummilli Liderimiz Heydər Əliyev xalqımızın tərəqqisi, dövlətçiliyimizin qorunması naminə qətiyyətlə çalışmış, necə deyərlər, ortaya dəmir iradə qoymuşdur. Çox şükürlər olsun ki, bu dəmir iradə sonradan "dəmir yumruğ"a çevrilmişdir. Ulu Öndər Heydər Əliyev 1993-cü ildə xalqın təkidli tələbi ilə hakimiyyətə gəldikdən sonra başqa sahələrdə olduğu kimi, ordu quruculuğunda da böyük uğurlara gətirib çıxaran islahatlar həyata keçirdi. Qısa müddət ərzində yüksək peşəkarlıqla həyata keçirilən bu islahatlar nəticəsində güclü, vətənini, torpağını qorumağa, zəbt olunmuş ərazilərimizi işğaldan azad etməyə qadir və hazır olan ordu yaradıldı. Bünövrəsini Ulu Öndər Heydər Əliyevin qoyduğu Silahlı Qüvvələr bu dahi şəxsiyyətin siyasi kursunun layiqli davamçısı Prezident İlham Əliyev tərəfindən daha da gücləndirildi. Nəhayət, Azərbaycan Ordusu 27 sentyabr 2020-ci ildə erməni qəsbkarlarının təxribatı nəticəsində başlanan İkinci Qarabağ müharibəsində Müzəffər Ali Baş Komandan İlham Əliyevin sərkərdəliyi altında torpaqlarımızı erməni işğalçılarından azad etdi. Bu Zəfərə, bu Qələbəyə hamımız sevindik.

Hava qaralsa da, Azərbaycan xalqının böyük oğlu Ulu Öndər Heydər Əliyevin məzarını ziyarət etməyə gələnlərin ardı-arası kəsilmirdi. Əllərində gül tutmuş insanlar ürəklərində dahi rəhbərə böyük məhəbbətlə onun məzarını ziyarət etməyə gəlirdilər. Anım mərasimindəki bu böyük izdiham onu göstərirdi ki, Azərbaycan xalqının ürəyində böyük xilaskarına sevgisi, ehtiramı dünya durduqca yaşayacaq. Bütün mənalı ömrünü xalqının inkişafına, işıqlı gələcəyinə həsr etmiş nadir şəxsiyyət Ulu Öndər Heydər Əliyevin məzarı əbədi olaraq Azərbaycan xalqının ziyarətgah yeri olacaq.

***Vahid MƏHƏRRƏMOV,***
***İlham BABAYEV (foto),***
***"Azərbaycan"***

# Azərbaycanın xarici siyasətinin uğurları



**Onilliklər boyu adı münaqişə zonası, müharibə bölgəsi kimi çəkilən Cənubi Qafqazda de-fakto sülh təmin olunub. Azərbaycanın BMT TŞ-nin qətnamələrini güc yolu ilə yerinə yetirərək yaratdığı reallıqların nəticəsi illərboyu açılması mümkünsüz görünən Qarabağ düyününə birdəfəlik son qoyub. Hər zaman münaqişənin danışıqlar vasitəsilə həllinin tərəfdarı kimi çıxış edən rəsmi Bakı konstruktivlik nümayiş etdirərək Vətən müharibəsindən sonra da qarşı tərəfə təkmil sülh modeli təklif edib ki, hazırda normallaşma istiqamətində əldə olunan bütün irəliləyişlər də məhz zamanında bu istiqamətdə atılan qətiyyətli addımların nəticəsidir.**

## Cənubi Qafqazda barış və etimad quruculuğu dövrü

**De-yure sülhə də az qalıb**

Azərbaycan tərəfi 44 günlük Vətən müharibəsindən sonra iki ölkə arasında münasibətlərin normallaşdırılması üçün İrəvana beynəlxalq hüququn normalarına cavab verən 5 prinsip təqdim edib. Lakin qarşı tərəfin bəzi Qərb dairələrinin də təsiri ilə destruktivlik nümayiş etdirməsi 2024-cü ilə qədər normallaşma ilə bağlı konkret hansısa nəticələr əldə etməyə imkan verməyib. Ancaq yenə də Bakının sülh səyləri sayəsində Azərbaycan-Ermənistan normallaşma prosesi ötən ilin əvvəlindən etibarən müsbət istiqamətdə inkişaf etməyə başlayıb və əhəmiyyətli nailiyyətlərə imza atılıb. Ən əsası vasitəçilərə ehtiyac görülmədən iki ölkə dialoqlara başlayıb, masa arxasında müəyyən razılaşmalar əldə edib və sərhədlərin delimitasiyası və demarkasiyası prosesinə start verib, Qazax rayonunun dörd kəndinin qaytarılması kimi real nəticələr ortaya qoyulub.

Azərbaycanın liderliyi ilə irəlilədilən sülh prosesi 8 avqust tarixli Vaşinqton sammiti ilə öz məntiqi nəticəsinə çatıb. Həmin tarixdə Ağ Evdə Amerika Birləşmiş Ştatlarının Prezidenti Donald Trampın iştirakı ilə sülh sazişinin mətni paraflanıb, vacib razılaşmalar əldə edilib. Vaşinqton zirvəsinin nailiyyətlərindən biri də Zəngəzur dəhlizinin (TRIPP) açılması ilə bağlı razılaşma əldə edilməsi olub. Regionda kommunikasiyaların açılması vacib əhəmiyyət daşıyır və Azərbaycanın qətiyyətli səyləri ilə Cənubi Qafqazda de-fakto sülhün bərqərar edilməsi bölgənin iqtisadi inkişafı üçün mühüm şərait yaradıb.

İşğalçı siyasəti ilə onilliklər boyu özünü dalan ölkəyə çevirən Ermənistanın bu vəziyyətdən çıxması üçün də tarixi şans yaranıb. Artıq Azərbaycan Ermənistana tranzit məhdudiyyətlərini aradan qaldırıb, həmçinin etimad quruculuğu istiqamətində praqmatik addımlar atılıb və iki ölkənin vətəndaş cəmiyyətləri İrəvan və Bakıya qarşılıqlı səfərlər ediblər.

Azərbaycanla Ermənistan arasında rəsmi Bakının liderliyi ilə formalaşdırılan sülh prosesi beynəlxalq aləmdə də böyük təqdirlə qarşılanıb. Eyni zamanda Azərbaycanın ortaya qoyduğu sülh nümunəsi dünyada baş verən münaqişələrin öz yoluna qoyulması üçün həll variantı kimi istinad edilən nümunəyə çevrilib.

Ermənistanın konstitusiyasında Azərbaycana qarşı ərazi iddiaları ləğv edildikdən sonra isə iki ölkə arasında barış sazişi də imzalanacaq və bölgədə sülh de-yure bərqərar olacaq.

**Real sülh və yeni regional əməkdaşlıq imkanları yaranıb**

Azərbaycan Prezidentinin köməkçisi, Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev Doha Forumunun tədbirləri çərçivəsində Ermənistan Təhlükəsizlik Şurasının katibi Armen Qriqoryanla birgə "Ermənistan-Azərbaycan davamlı sülh: Vaşinqton sazişi və ortaq gələcək" adlı paneldə iştirak edib. Hikmət Hacıyev bildirib ki, ədalətli sülhə əsaslanaraq biz Cənubi Qafqazda yeni reallıqlar və yeni status-kvo yaradırıq: "Yaxın vaxtlarda imzalanan bir çox sülh razılaşmaları nəticəsiz qalıb, çünki razılaşmalar imzalandıqdan sonra tərəflər özlərini komfort zonasında hiss edir". O əlavə edib ki, rəsmi Bakı və İrəvan mütəmadi olaraq kontaktdadır və iki ölkə arasında əldə olunan razılaşmaların icrasına çalışırlar.

Hikmət Hacıyev və A.Qriqoryan Dohada ilk dəfə "Euronews"a birgə müsahibə də veriblər. Siyasilər bildiriblər ki, iki ölkə arasında əsas dialoq kanalları 2020-ci ildə Avropa İttifaqının (Aİ) dəstəyi ilə formalaşıb. Prosesin kulminasiyası ABŞ Prezidenti Donald Trampın vasitəçiliyi ilə Prezident İlham Əliyev və Ermənistanın Baş naziri Nikol Paşinyan arasında Vaşinqtonda paraflanan sülh sazişi olub.

Hikmət Hacıyev bildirib ki, Brüsseldə aparılan danışıqlar bu prosesə xüsusi təkan verib: "Brüsseldə yaxşı imkan yarandı və liderlər sülhə doğru irəliləmək barədə qərar verdilər".

Prezidentin köməkçisi sülh prosesini dünya miqyasında uğurlu model kimi qiymətləndirib: "Münaqişə səhifəsi bağlanıb. İndi real sülh və yeni regional əməkdaşlıq imkanları var".

Bu sadalananlar Cənubi Qafqazda faktiki olaraq sülhün bərqərar olmasına əyani nümunələrdir. Lakin bütün bunların fonunda Ermənistanın sülhə zidd addımları da diqqət çəkir. Cari il dekabrın 2-də Avropa İttifaqı (Aİ) və Ermənistan arasında Brüsseldə keçirilən Tərəfdaşlıq Şurasının VI iclasının nəticəsində imzalanmış "Avropa İttifaqı-Ermənistan Tərəfdaşlığı üçün Strateji Gündəlik" adlı sənəd də bunu göstərir. Həmin sənəddə postmünaqişə dövrünün reallıqları təhrif edilib və burada sülh gündəliyinə zidd olan məsələlər öz əksini tapıb. Sənədin həm giriş hissəsində, həm də bəzi bölmələrində Qarabağdan könüllü şəkildə Ermənistana miqrasiya edən sakinlərə istinadən "Azərbaycanın hərbi əməliyyatlarından sonra köçkün düşmüş Qarabağ erməniləri" ifadəsi işlədilib. Bununla yanaşı, insanlıq əleyhinə cinayətlər və hərbi cinayətlər törətməkdə ittiham olunan və məhkum edilmiş erməniəsilli şəxslər "əsir" statusunda qeyd edilib.

Azərbaycan Xarici İşlər Nazirliyinin məsələyə dair şərhində bildirilir ki, 7 il müddətində Aİ ilə Ermənistan arasında strateji prioritetləri müəyyənləşdirən bu ikitərəfli sənəddə Azərbaycanı hədəf alan məsələlərə yer ayrılması qəbuledilməzdir və bu, eyni zamanda Azərbaycan-Avropa İttifaqı münasibətlərinin perspektivlərinə mənfi təsir edir.

Bildirilir ki, sənəddə Ermənistanın regional konsensusdan məhrum olan "sülh kəsişməsi" təşəbbüsünü dəstəkləyən çoxsaylı müddəaların əks olunmasına baxmayaraq, 8 avqust Vaşinqton sammiti zamanı normallaşma prosesi çərçivəsində əldə edilmiş və mühüm əhəmiyyət kəsb edən "Beynəlxalq Sülh və Rifah naminə Tramp Marşrutu" (TRIPP) layihəsinə bir dəfə belə istinad edilməməsi ciddi narahatlıq doğurur: "Azərbaycanla Ermənistan arasında paraflanmış saziş layihəsinin 7-ci maddəsində tərəflərin qarşılıqlı sərhəddə hər hansı üçüncü tərəfin qüvvələrini yerləşdirməməklə bağlı öhdəlik nəzərə alındıqda, Azərbaycana qarşı təbliğat vasitəsi kimi istifadə olunan Aİ-nin Ermənistandakı Müşahidə Missiyasının (EUMA) fəaliyyətinə xitam vermək əvəzinə, EUMA-nın mövcudluğunun qorunmasının və missiyanın tam operativliyinin təmin olunmasının prioritetləşdirilməsi digər narahatlıq mənbəyidir".

Azərbaycanı hədəf alan və 8 avqust Vaşinqton sammitinin nəticələrinə zidd olan bu sənədin timsalında da görünür ki, Ermənistan dildə barış desə də, sülh gündəliyinə sadiqlik göstərmir və Azərbaycana qarşı ərazi iddiasından əl götürmək istəmir. Sülhdən yayınmaq istəyən İrəvan yaxşı olar ki, özü üçün təhlükə yaradan bu yoldan vaxtında vaz keçsin, yoxsa bunun ağrı-acılı nəticələrinə qatlanmağa məcburdur və o zaman guya özünü sülhü dəstəkləyən tərəf kimi göstərərək Ermənistana dəstəyi ilə bölgədə hərbi münaqişə yaratmaq istəyində olan Aİ də onun dadına çata bilməyəcək.

***Yasəmən MUSAYEVA,***
***"Azərbaycan"***

## Azərbaycan-Slovakiya əməkdaşlığı

### Avropanın enerji xəritəsini gücləndirən mühüm elementə çevrilir



**Azərbaycan-Slovakiya münasibətləri qarşılıqlı hörmət, strateji maraqlar və uzunmüddətli əməkdaşlıq üzərində qurulub. Ölkələrimiz arasında enerji, nəqliyyat, müdafiə sənayesi, rəqəmsal texnologiyalar və sənaye sahələrində geniş əməkdaşlıq potensialı mövcuddur. Qarşılıqlı etimadın və siyasi iradənin mövcudluğu isə bu tərəfdaşlığın daha da dərinləşəcəyini göstərir.**

Milli Məclisin deputatı Pərvanə Vəliyeva qəzetimizə açıqlamasında bildirib ki, Azərbaycan və Slovakiya arasında imzalanmış Strateji Tərəfdaşlıq haqqında Birgə Bəyannamə münasibətləri ən yüksək səviyyəyə çatdırıb. Bu sənədin imzalanmasından sonra əməkdaşlıq praktiki olaraq bütün sahələr üzrə genişlənib. Enerji sahəsində əməkdaşlıq isə xüsusi əhəmiyyət kəsb edir. "Energetika Azərbaycan-Slovakiya münasibətlərinin ənənəvi və strateji istiqamətlərindən biridir. Ötən il ilk dəfə olaraq Azərbaycan qazı Slovakiyaya nəql edilib. Azərbaycanın zəngin qaz ehtiyatları ölkəmizə həm Slovakiyanın, həm də digər Avropa dövlətlərinin enerji təhlükəsizliyinə töhfə vermək imkanı yaradır", - deyə o əlavə edib.

Deputat qeyd edib ki, bu gün Azərbaycan qazını alan ölkələrin sayı 14-ə çatıb və ümumi qaz ixracımız 25 milyard kubmetr səviyyəsinə yüksəlib: "Bu həcmın yarısı Avropa ölkələrinin payına düşür və Avropa İttifaqının 8 üzv dövləti Azərbaycan qazı hesabına enerji təminatını daha təhlükəsiz şəkildə qurur. Prezident İlham Əliyev Azərbaycanda təbii qaz yataqlarının genişləndirilməsi məsələsini də vurğulayıb. Yeni yataqların istismara verilməsi ilə Azərbaycanın ixrac imkanları daha da artacaq və Slovakiya da daxil olmaqla, region ölkələrinə enerji təchizatını geniş həcmdə təmin edə biləcək. Azərbaycan müdafiə sənayesi sahəsində Slovakiya ilə əməkdaşlığı geniş perspektivli və qarşılıqlı faydalı sahələrdən biri kimi qiymətləndirir. Bu əməkdaşlıq hərbi məqsədlərdən çox sənaye və texnoloji inkişafın təmin edilməsinə hədəflənib. Slovakiya texnologiyalarının Azərbaycanın maliyyə imkanları ilə birləşdirilməsi nəticəsində yeni məhsulların istehsalı həm dünya bazarlarına çıxış imkanları yaradacaq, həm də ölkəmizdə yüksək texnoloji inkişafın sürətlənməsinə xidmət edəcək".

P.Vəlieyva vurğulayıb ki, Azərbaycan xarici siyasət prioritetlərini uzun müddət əvvəl müəyyən edib və bu gün Avrasiyada mühüm bağlantı mərkəzlərindən birinə çevrilib. Son illər ölkəmizin nəqliyyat infrastrukturu, logistika şəbəkəsi və enerji layihələrinə qoyduğu sərmayələr nəticəsində Azərbaycan Orta dəhlizin ən etibarlı hissəsinə çevrilib. Şərqdən Qərbə ən təhlükəsiz və qısa yol Azərbaycan üzərindən keçir. Bu, Slovakiya ilə nəqliyyat və logistika sahəsində əməkdaşlığın inkişafı üçün geniş imkanlar açır.

Deputatın sözlərinə görə, rəqəmsal iqtisadiyyat, süni intellekt və data mərkəzlərinin yaradılması Azərbaycan-Slovakiya əməkdaşlığının yüksələn istiqamətlərindən biridir: "Azərbaycanın bu sahədə üstünlüyü iki əsas amildən qaynaqlanır. İqlim müxtəlifliyi, ölkədə ilboyu soyuq bölgələrin mövcudluğu data mərkəzlərinin səmərəli fəaliyyətinə imkan yaradır. Bu isə Slovakiya şirkətləri ilə əməkdaşlıq üçün yeni imkanlar açır".

Deputat vurğulayıb ki, genişlənən qaz ixracı, bərpaolunan enerji imkanları, data mərkəzləri üçün yaradılan şərait və nəqliyyat dəhlizlərində Azərbaycanın artan rolu iki ölkə arasında qarşıdakı illərdə daha genişmiqyaslı layihələrin reallaşmasına zəmin yaradır. Bütün bunlar göstərir ki, Azərbaycan-Slovakiya strateji əməkdaşlığı təkcə ikitərəfli münasibətləri deyil, həm də regional enerji təhlükəsizliyini və Avropanın enerji xəritəsini gücləndirən mühüm elementə çevrilir.

***Əsmər QARDAŞXANOVA,***
***"Azərbaycan"***

## Qərbi Avropa Cənubi Qafqazda nə itirib

### Ermənistan istəsə belə TRIPP layihəsindən imtina edə bilməz

**Uzun illərin təcrübəsi göstərir ki, Ermənistan dövləti razılaşdırılmış siyasi qərarları pozmaq üçün müxtəif bəhanələr uydurmaqda "usta"dır. İndi budur, dünənə qədər sülh deyib yaxasını yırtan Nikol Paşinyan hökuməti birdən-birə başqa hava çalmağa başlayıb. "Avropa İttifaqı - Ermənistan Tərəfdaşlığı üçün Strateji Gündəlik" sənədinin imzalanmasını nəzərdə tuturuq.**




O sənədi ki orada ölkəmizdən Ermənistana könüllü miqrasiya etmiş etnik ermənilərin "Azərbaycanın hərbi əməliyyatlarından sonra köçkün düşmüş Qarabağ erməniləri" ifadəsi işlədilir. Üstəlik, həmin sənəddə bu bənd Avropa İttifaqı və Ermənistan arasında tərəfdaşlıq prioriteti kimi müəyyən edilir.

Avropa İttifaqının Azərbaycana qarşı olan qərəzi məlumdur. Bəs Azərbaycanla sülhün astanasında olan rəsmi İrəvana nə gəlib? Əgər Ermənistan barış istəyirsə, belə bir sənədə qol qoymaqla sülh sazişinin imzalanmasını niyə dalana dirəyir? Nədənsə avqustun 8-də Vaşinqtonda razılaşdırılmış, N.Paşinyanın ağız dolusu təriflədiyi, erməni diplomatiyasının qələbəsi kimi təqdim etdiyi "Beynəlxalq Sülh və Rifah Naminə Tramp Marşrutu" (TRIPP) layihəsi barədə həmin sənəddə bir söz də yoxdur. Görünür, ermənilərin əli aşağı olması, yəni Avropa İttifaqından maliyyə cəhətdən asılığı onlara diktə edilən sənədi qəbul etməkdən başqa şans qoymayıb. Yəni Ermənistan yenə özgə zurnasının züyünə oynamağa məcbur olub.

Buna baxmayaraq, başqa sözlə, Ermənistan Avropa İttifaqı ilə qapı arxasında oyun oynamasına rəğmən TRIPP marşrutu reallaşacaq. Ən azından ona görə ki, Aİ Ermənistana görə Tramp administrasiyası ilə münasibətləri korlamaq istəməz. Azərbaycanla ABŞ arasında Zəngəzur dəhlizinin (TRIPP) açılması barədə gedən intensiv danışıqlar bunu deməyə əsas verir. Xatırladaq ki, bu günlər rəqəmsal inkişaf və nəqliyyat naziri Rəşad Nəbiyev ABŞ rəsmiləri ilə Azərbaycan və ABŞ arasında Orta dəhliz və Zəngəzur dəhlizinin inkişafı, eləcə də TRIPP layihəsinin qısa zamanda istifadəyə verilməsini müzakirə edib. "ABŞ-yə səfər çərçivəsində ABŞ Ticarət Departamenti katibinin müavinləri Vilyam Kimmitt və Ceffri Kessler ilə görüşdük. İki ölkə arasında əməkdaşlıq perspektivlərini müzakirə etdik, Azərbaycanda investisiya üçün əlverişli mühit olduğunu vurğuladıq. Qarşı tərəf ABŞ istehsalı olan rəqəmsal məhsulların Azərbaycana ixracında mövcud çətinliklərin aradan qaldırılmasına dəstək göstərməyə hazır olduğunu bildirdi", - deyə nazir deyib.

Ümumiyyətlə, Azərbaycan Zəngəzur dəhlizi (TRIIP) layihəsinin reallaşması üçün diplomatik müstəvidə intensiv danışıqlar aparır. Bu məsələnin xarici siyasətimizdə xüsusi əhəmiyyəti var. Xarici işlər naziri Ceyhun Bayramov ABŞ Dövlət katibinin siyasi məsələlər üzrə müavini Alison Hukerlə görüşündə Azərbaycanın "Beynəlxalq Sülh və Rifah naminə Tramp Marşrutu" (TRIPP) üzrə işlərin sürətlənməsində maraqlı olduğunu bir daha bəyan edib. Nazir görüşdə regional sabitlik, enerji təhlükəsizliyi və nəqliyyat dəhlizlərinin genişləndirilməsi sahəsində əməkdaşlığın gücləndirilməsinin əhəmiyyətini vurğulayıb. Bu çərçivədə Azərbaycanın əsas hissəsi ilə onun Naxçıvan Muxtar Respublikası arasında maneəsiz bağlantının təmin edilməsi məqsədilə ABŞ tərəfindən həyata keçiriləcək Zəngəzur dəhlizi (TRIPP) üzrə işlərin sürətləndirilməsində ölkəmizin maraqlı olması diqqətə çatdırılıb.

Azərbaycan bu məsələni Avropa gündəliyindən də çıxarmır. Ceyhun Bayramov Vyanada ATƏT Xarici İşlər Nazirləri Şurasının (XİNŞ) 32-ci iclasında çıxışı zamanı bildirib ki, "Tramp Marşrutu" (TRIPP - Zəngəzur dəhlizinin Ermənistan ərazisindən keçməli olan 42 kilometrlik hissəsi) layihəsinin vaxtında həyata keçirilməsi Cənubi Qafqaz regionu üçün birinci dərəcəli əhəmiyyətə malikdir. Nazir həmçinin vurğulayıb ki, bu multimodal marşrut dəmir yolu, avtomobil yolu və digər kommunikasiyaları əhatə edəcək. "TRIPP Azərbaycanın əsas hissəsi ilə Naxçıvan Muxtar Respublikası arasında maneəsiz əlaqəni təmin etməli, həmçinin Ermənistan üçün fayda gətirməlidir. Dəfələrlə bəyan edildiyi kimi, kommunikasiyaların açılması yalnız Ermənistanla Azərbaycan arasında sülhün dayanıqlığının təmin edilməsi ilə məhdudlaşmır, həm də daha böyük miqyasda əhəmiyyətli faydalar gətirir", - deyə Azərbaycan XİN başçısı bildirib.

Aİ-nin genişlənmə məsələləri üzrə ali komissarı Marta Kos isə deyib ki, Avropa İttifaqı ABŞ ilə Zəngəzur dəhlizi (TRIPP) layihəsində qurumun iştirakının mümkünlüyü ilə bağlı danışıqlar aparır. "Bu, 42 kilometrlik yoldur. Bizim üçün çox vacibdir ki, gördüyümüz iş təkcə bu 42 kilometrlik hissəni deyil, həm də şərqə və qərbə doğru bütün istiqamətləri əhatə etsin və bütün bunlar eyni vaxtda baş versin", - deyə o bildirib. Avropa rəsmisi daha sonra "Bizim də öz ideyalarımız var. Biz bu məsələləri Türkiyə və Azərbaycanla müzakirə edirik. Ona görə də bunu hissə-hissə etməyimizin mənası yoxdur. Lakin bu baxımdan Birləşmiş Ştatların əməkdaşlığı və ya iştirakı sadəcə 42 kilometrlik dəmir yolunun tikintisindən daha vacibdir", - deyə vurğulayıb.

***Rüstəm KAMAL,***
***"Azərbaycan"***

# Bakıda Ümummilli Lider Heydər Əliyevin xatirə gecəsi keçirilib









**Bakıda Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin xatirə gecəsi keçirilib.**

AZƏRTAC xəbər verir ki, tədbir çərçivəsində Heydər Əliyevin həyat və fəaliyyətinə həsr olunmuş "Liderin qəlbi" sənədli filmi nümayiş etdirilib. Filmin müəllifi Mixail Qusmandır.

Filmi Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyeva izləyib.

Tədbir Ümummilli Liderin xatirəsinə birdəqiqəlik sükutla başlayıb.

İzləyicilər qarşısında çıxış edən Mixail Qusman filmin üzərində iş prosesindən danışıb və bu cür dahi şəxsiyyət haqqında birsaatlıq lent yaratmağın asan olmadığını vurğulayıb. O qeyd edib ki, materiallar Heydər Əliyevin yolunu və xarakterini mümkün qədər dəqiq çatdırmaq üçün hissə-hissə toplanıb.

Filmin müəllifi həmçinin Ümummilli Liderlə bağlı şəxsi xatirələrini bölüşərək onun qeyri-adi daxili gücünü, möhkəm xarakterini və cəsarətini qeyd edib.

M.Qusmanın sözlərinə görə, Heydər Əliyev ləyaqətini və təmkinini itirmədən həyatın bütün çətinliklərinin öhdəsindən gələ bilib və həmişə özünün əsas - Azərbaycana xidmət etmək məqsədinə sadiq qalıb. Heydər Əliyevin bütün həyatı ölkəyə və onun gələcəyinə həsr olunub və o, həqiqətən öz xalqı üçün yaşayıb.

Mixail Qusman filmdə yer almış epizodlardan birinin üzərində ayrıca dayanıb: çıxışı zamanı Heydər Əliyevin özünü pis hiss etdiyi an. Müəllif qeyd edib ki, bu kadr liderin mənəvi gücünü və dözümlülüyünü vurğulayan hekayənin mühüm hissəsinə çevrilib.

# Trans-Xəzər marşrutu Avrasiyanın strateji nəqliyyat arteriyasına çevrilir

**"Trans-Xəzər Beynəlxalq Nəqliyyat Marşrutuna (TBNM) yalnız qatarlarla yük daşımaq üçün yaradılmış dəhliz kimi yox, bütöv bir regionun strateji arteriyası kimi baxmaq lazımdır. Bu marşrut Qərblə Şərqin nəqliyyat bağlantısını yaradır, Qazaxıstan və digər region ölkələrinin iqtisadi inkişafına güclü təkan verir".**

Bu sözləri AZƏRTAC-a açıqlamasında Trans-Xəzər Beynəlxalq Nəqliyyat Marşrutu Assosiasiyasının baş direktor əvəzi Nurgül Jakupova deyib. O bildirib ki, Çin, Qazaxıstan, Azərbaycan, Gürcüstan, Türkiyə və Avropa ölkələrinə kimi uzanan bu marşrut Avrasiyanın nəqliyyat arteriyasını təşkil edərək beynəlxalq logistikanı tamamlayır. "Çindən Avropaya daşınan yüklərin 56 faizi Qazaxıstanın üzərindən həyata keçirilir. TBNM-in səmərəliliyi özünü yükdaşımaların artmasında göstərir. Cari ilin yalnız 6 ayı ərzində bu marşrutla yükdaşımanın həcmi 926 ton olub. Bu da ötənilki göstəricidən 6 faiz çoxdur. Həmin dövrdə 40 min 200 konteyner daşınıb ki, bu da 2024-cü ilin ilk 6 ayı ilə müqayisədə 93 faiz artım deməkdir", - deyə o əlavə edib. Nəzərə çatdırıb ki, Qazaxıstan Trans-Xəzər marşrutu ilə yükdaşımanın həcmini artırmaq üçün bir sıra infrastruktur layihələrinin həyata keçirilməsinə başlayıb. Jetıqen-Kazıbek dəmir yolunun tikintisi başa çatmaq üzrədir. Bu yol Almatı şəhərindən yan keçməklə tranzit yükdaşımanın artmasına xidmət edəcək. Eyni zamanda Dostık-Moyıntı dəmir yolunun ikinci xəttinin tikintisi də yekunlaşmaq üzrədir. Bununla yanaşı, Qazaxıstanın Xəzər dənizi sahilindəki limanlarında infrastruktur da yenilənir. "Kurık limanı ətrafında dəniz dibinin dərinləşdirilməsi işləri davam edir. Nəzərdə tutulub ki, dənizin dibi 8 metrə kimi dərinləşdirilsin, daha ağırçəkili yük gəmiləri qəbul edilsin və göndərilsin. Bu limandakı yük terminalında da yenidənqurma işləri həyata keçirilib və taxıl anbarı istismara verilib. Aktau limanında isə Çinin "Lianyungang Port Holding Group" şirkəti ilə birlikdə konteyner terminalı inşa edilərək istifadəyə verilib. Bütün bu işlər Bakı-Aktau marşrutu üzrə yükdaşımanı asanlaşdırıb, səmərəli və faydalı yükdaşıma məntəqəsinə çevirib. Bütün bu işlər qlobal ticarətin daha sərfəli yollarla həyata keçirilməsi üçün edilir. TBNM təkcə Qazaxıstan üçün deyil, region dövlətləri üçün böyük iqtisadi inkişaf imkanları yaradır" deyən müsahibimiz perspektivdə daşınan yüklərin həcminin daha da artacağına əmin olduğunu vurğulayıb.

# Azərbaycanın qlobal humanitar diplomatiyasının növbəti uğurları

## Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva bu sahədə yeni nümunələr yaradır

**Müasir dünyanın siyasi, sosial və texnoloji dinamikası, yeni çağırışları təbii resurslar və sərt güc taktikasından daha çox humanitar missiyaların, mədəni diplomatiyanın, sosial həssaslıq üzərində qurulmuş yumşaq gücün əhəmiyyətini artırmaqdadır.**





Bu yeni mərhələdə Azərbaycan təkcə regional enerji gücü kimi deyil, həm də qlobal humanitar təşəbbüsləri, sosial layihələri, təhsil proqramları və mədəniyyət diplomatiyası ilə seçilən bir ölkə kimi formalaşır. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Azərbaycanı tarixinin ən qüdrətli mərhələsinə gətirib çıxarmış uğurlu siyasətinin aparıcı istiqamətlərindən olan bu strateji xətti irəli aparan şəxslərdən biri də Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla xanım Əliyevadır.



Azərbaycanın Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun rəhbəri Mehriban xanım Əliyevanın uğurlu layihələrlə son onilliklər ərzində formalaşdırdığı ənənələri daha da inkişaf etdirən Leyla xanım ölkəmizin humanitar diplomatiyasına töhfə verən yeni parlaq nümunələr ortaya qoyur.

### Təkmil əməkdaşlıq modeli

Leyla Əliyevanın elə təkcə son bir ayda Banqladeşdən Türkmənistana, ICESCO-dan BMT platformalarına qədər çox geniş bir sferanı əhatə edən fəaliyyəti Azərbaycanın beynəlxalq humanitar mövqeyinin konseptual mənzərəsini canlandırır. Heydər Əliyev Fondunun vitse-prezidentinin fəal iştirak etdiyi təşəbbüslərin təkcə bir istiqamətlər zolağı olmadığını, bir-birini tamamlayan üç əsas sütun üzərində qurulduğunu göstərir. Bunlar qlobal çevrədə humanitar əməkdaşlıq, sosial və təhsil layihələri, mədəni, ekoloji və elmi diplomatiyadır.

Leyla xanım Əliyeva Bakı Media Mərkəzinin rəhbəri Arzu xanım Əliyeva ilə birgə Banqladeş Xalq Respublikasının paytaxtı Dəkkəyə etdiyi səfərlə Azərbaycanın humanist dəyərlərə əsaslanan yeni əməkdaşlıq modelini bir daha nümayiş etdirdi. Səfər çərçivəsində onların Banqladeş Müvəqqəti Hökumətinin Baş müşaviri, Nobel mükafatı laureatı, "mikrokredit inqilabının atası" kimi tanınan professor Məhəmməd Yunusla görüşü, apardıqları müzakirələr ölkəmizlə Banqladeş arasında sosial ədalət, yoxsulluğun azaldılması və inklüziv inkişaf sahələrində yeni əməkdaşlıq trayektoriyası açır.

Heydər Əliyev Fondu və IDEA İctimai Birliyi Banqladeşlə humanitar yardım, gənclərin inkişafı və könüllülük hərəkatı, sosial dəstək proqramları, ətraf mühitin mühafizəsi, gənclərin ekoloji təşəbbüsləri kimi sahələrdə birgə layihələr həyata keçirməkdə maraqlıdır. Bu sahələr təsadüfi seçilməyib, həm Banqladeşin, həm də Azərbaycanın prioritetləri ilə üst-üstə düşür. Belə ki, Banqladeş iqlim risklərinə və sosial məsələlərə görə dünyanın ən həssas ölkələrindən sayılır, məhz buna görə Azərbaycandan gələn belə təşəbbüslər real sosial təsir potensialına malikdir.

Leyla xanımın və Arzu Əliyevanın Banqladeşin paytaxtında valideyn himayəsindən məhrum qız uşaqları üçün fəaliyyət göstərən "Shorkari Shishu Poribar" (Dövlət Uşaq Evi) müəssisəsinə səfəri də Azərbaycanın humanitar diplomatiyasının mahiyyətini aydın şəkildə göstərir. Ölkəmiz humanitar fəaliyyətini yalnız respublika hüdudlarında və regionla məhdudlaşdırmır, əksinə, inkişaf etməkdə olan ölkələrin ən həssas kateqoriyalarını hədəfləyən qlobal dəstək sisteminin fəal iştirakçısıdır. Bu səfər yalnız bir ziyarət deyil, fondun həmin müəssisə ilə birgə yardım proqramı həyata keçirməsi istiqamətində aparılan ilkin razılaşma Azərbaycanın uzunmüddətli sosial məsuliyyət və tərəfdaşlıq modelini nümayiş etdirir.

### İslam dünyasında intellektual və elmi platformaların qurulması

Dekabrın 8-də Bakıda açılışı olan "İslam dünyasında süni intellekt indeksinin təqdimatı" konfransının uğurla təşkili və konfrans çərçivəsində Leyla xanım Əliyevanın ICESCO-nun baş direktoru Səlim bin Məhəmməd əl-Maliklə görüşü isə Azərbaycanın artıq yalnız humanitar yardım edən ölkə deyil, eyni zamanda elmi, intellektual və texnoloji forumlar quran mərkəz olması mesajını vermis oldu.

Konfransda çıxış edən Heydər Əliyev Fondunun vitse-prezidenti bildirdi ki, süni intellekt (Sİ) artıq gündəlik həyatın mühüm bir hissəsinə çevrilib. Onun sözlərinə görə, bu sahə böyük imkanlar yaratmaqla yanaşı, yeni suallar və məsuliyyətlər də ortaya çıxarır.

Diqqətə çatdırıldı ki, Azərbaycan bu istiqamətdə ardıcıl addımlar atır. 2025-2028-ci illər üçün Milli Süni İntellekt Strategiyası çərçivəsində milli süni intellekt ekosisteminin qurulması, dövlət xidmətləri üçün Azərbaycan dilində Sİ modelinin hazırlanması, dövlət qurumları üçün standartların müəyyənləşdirilməsi və Süni İntellekt Akademiyasının yaradılması nəzərdə tutulur.

Heydər Əliyev Fondunun vitse-prezidenti həmçinin vurğuladı ki, süni intellekt ətraf mühitin qorunmasında da mühüm rol oynaya bilər. Nadir heyvan növlərinin izlənməsi, iqlim dəyişikliklərinə nəzarət, meşələrin mühafizəsi, su ehtiyatlarının qorunması və dayanıqlı kənd təsərrüfatının inkişafı bu imkanlar sırasındadır.

Konfransda ICESCO ilə əməkdaşlığa da toxunuldu. Bu tərəfdaşlıq çərçivəsində Burkina-Fasoda məcburi köçkün qızlar üçün məktəblərin inşası, eləcə də Mali, Çad və Komor adalarında layihələrin davam etdirildiyi diqqətə çatdırıldı. Vurğulandı ki, BMT-nin İnkişaf Proqramı ilə birgə gənclər və əlilliyi olan şəxslər üçün regional informasiya və kommunikasiya texnologiyaları mərkəzlərinin yaradılması bu istiqamətdə həyata keçirilən mühüm işlərdəndir.

Konfransın sonunda islam dünyasında süni intellekt indeksi üzrə Bakı Bəyannaməsi qəbul edildi. Sənəddə bildirilirdi ki, islam dünyası süni intellektin cəmiyyətlərə və iqtisadiyyatlara dərin təsirini qəbul edir, süni intellekt indeksini rəqəmsal dövrdə ICESCO-nun təhsil, elm və mədəniyyətin inkişafı missiyasını yerinə yetirmək üçün həyati əhəmiyyətli yeni bir vasitə kimi alqışlayır, süni intellektin təhsil, səhiyyə, mədəni mühafizə, iqtisadi inkişaf və ətraf mühitin idarə olunmasını inkişaf etdirmək potensialını nəzərə alaraq, eyni zamanda sui-istifadə, bərabərsizlik və təhlükəsizlik tədbirlərinin olmaması kimi riskləri də qəbul edir.

Leyla Əliyeva ICESCO-nun baş direktoru ilə görüşünün sonunda Heydər Əliyev Fondu ilə ICESCO arasında Nigerin üç regionunda münaqişədən zərər çəkmiş qadınların imkanlarının genişləndirilməsi və sosial inklüzivlik istiqamətində həyata keçirilən layihə ilə bağlı saziş də imzalandı. Bu layihə bir neçə aspektdən diqqət çəkir. İlk növbədə Azərbaycan gücünü hər hansı başqa metodlardan deyil, məhz sosial dayanıqlıq və inklüziv inkişafdan alır. Fond Qərbi Afrikada real sosial təsir yaradan layihələrə imza atır. İslam dünyasında innovasiya, təhsil və sosial dəstək üçlüyü üzərində yeni əməkdaşlıq modeli formalaşır.

Dekabrın 8-də Leyla xanım Əliyevanın Həmdan Bin Rəşid Əl Maktum Fondunun ali sədri Şeyx Rəşid bin Həmdan bin Rəşid Əl Maktumla keçirdiyi görüş, apardığı müzakirələr, Heydər Əliyev Fondunun islam dünyasında təhsil və sosial dəstək layihələrinə görə "Həmdan-ICESCO" mükafatına layiq görülməsi isə qurumun beynəlxalq nüfuzunun daha bir göstəricisidir.

Bu əməkdaşlıq Azərbaycan-Ərəb dünyası münasibətlərinə də yeni məna gətirir. Təhsil və sosial proqramlar üzrə birgə platformaların qurulması imkanlarını artırır, humanitar layihələrin regionlararası genişlənməsi perspektvlərini gücləndirir, Azərbaycanın yalnız donor yox, həm də tərəfdaş kimi qəbul edildiyini göstərir. Leyla xanım Əliyeva bu görüşlərdə, aparılan danışıqlarda təkcə rəsmi nümayəndə kimi deyil, Azərbaycan dövlətinin yumşaq güc strategiyasının təmsilçisi kimi çıxış edir.

### Qadın siyasəti və sosial layihələr üzrə həmrəylik

Eyni sözləri dekabrın 10-da Türkmənistanın Türkmənbaşı şəhərində keçirilən "Müasir cəmiyyətdə qadınların rolu: Dayanıqlı İnkişaf Məqsədlərinə nail olmaq üçün beynəlxalq əməkdaşlığın inkişafı" mövzusunda beynəlxalq konfransda Leyla xanım Əliyevanın təmsilçiliyi haqqında da deyə bilərik. Bu beynəlxalq konfransda Leyla xanımın iştirakı və çıxışı Azərbaycanın qadın məsələlərinə yanaşmasının qlobal xarakterini bir daha nümayiş etdirmiş oldu. Onun çıxışında üç əsas istiqamət xüsusi vurğulandı. Bunlardan birincisi qadınların liderliyi və cəmiyyətin inkişafında onların rolu idi. Leyla Əliyeva qadınların bilik və təcrübəsinin davamlı inkişaf üçün həlledici olduğunu bildirdi. Digər istiqamət Heydər Əliyev Fondunun təhsil və sosial layihələri ilə bağlı oldu. Leyla xanımın diqqətə çatdırdığı kimi, ölkəmizin Çin, Gürcüstan, Misir, Rusiya, Rumıniya, Vyetnam, Niderland, Pakistan, Keniya, Ruanda və digər ölkələrdə məktəb tikintisi və təhsil dəstəyi - Azərbaycanın qlobal humanitar xəritəsini formalaşdırır. Onun çıxışının üçüncü mühüm istiqaməti isə ekoloji diplomatiya - Xəzər dənizinin səviyyəsinin azalması ilə bağlı oldu. Bu, adi ekoloji bəyanat deyil - region üçün strateji təhlükə və qlobal miqyasda səs salan ekoloji həyəcan çağırışıdır.

Beynəlxalq konfrans çərçivəsində Leyla xanım Əliyevanın Özbəkistan Respublikası Prezidenti Administrasiyasının rəhbəri Saida Mirziyoyeva ilə görüşü da əhəmiyyətli məqam oldu və son illər müxtəlif sferalarda davamlı inkişaf edən Azərbaycan-Özbəkistan münasibətlərində Heydər Əliyev Fondu ilə Özbəkistanın "Zamin" Fondunun rolunu önə çıxardı. Bu əməkdaşlıq artıq mədəni layihələrlə məhdudlaşmır, qadınların siyasi, sosial və iqtisadi həyatda mövqelərinin gücləndirilməsi üzrə regional təşəbbüslərə çevrilir.

### Sistemli dövlət siyasəti

Bütün bu qeydlər də göstərir ki, Leyla xanım Əliyevanın fəaliyyəti sistemli dövlət siyasətinin aparıcı xəttidir. Ayrı-ayrı ölkələrdə yeni məktəblərin tikintisi, qızların təhsilinə dəstək, inkişaf etməkdə olan ölkələrdə informasiya texnologiyaları (İT) avadanlığı ilə təminat - bunlar yumşaq gücün əsas elementləridir. Qadın liderliyi, sosial müdafiə proqramları, regional əməkdaşlıq - Azərbaycanın bütün bu sahələrdə qurduğu nümunəvi modelin təşviqidir. Xəzər dənizi ilə bağlı qaldırılan məsələ təkcə region üçün deyil, Avrasiyanın ekoloji təhlükəsizliyi üçün strateji siqnaldır. Eləcə də ICESCO kimi nüfuzlu br qurumla fəal əməkdaşlıq, müştərək şəkildə beynəlxalq konfransların təşkili, elm və süni intellekt sahəsində dialoqun gücləndirilməsi bu günə və gələcəyə qoyulan sərmayədir.

Leyla xanım Əliyevanın fəaliyyəti Azərbaycanın klassik diplomatik alətlərdən kənara çıxaraq insan mərkəzli, sosial məsuliyyətli, humanitar təməlli yeni bir qlobal mövqe formalaşdırdığını göstərir. Eyni zamanda belə bir həqiqətlə bütün beynəlxalq aləmə səslənir ki, müasir dünyamız humanizmsiz, sosial məsuliyyət olmadan inkişaf edə bilməz, Azərbaycan isə bu yeni humanitar xəritəni yaradan dövlətlərdən biridir.

***İradə ƏLİYEVA, "Azərbaycan"***






# Gənclik






● Heydər Əliyevin gənclər siyasəti

**Xalqımıza, ölkəmizə rəhbərlik etdiyi bütün dövrlərdə Ümummilli Lider Heydər Əliyev gənclərə böyük diqqətlə yanaşır, onların cəmiyyətdə fəaliyyət göstərmələri, inkişaf etmələri üçün hərtərəfli şərait yaradır, yüksək qayğı göstərirdi. Ulu Öndər Heydər Əliyev ölkədə gənclər siyasətinin düzgün qurulmasını və aparılmasını önəmli hesab edərək demişdir: "Mənim üçün ən əziz nemət Azərbaycanın uşaqlarıdır, Azərbaycanın gəncləridir. Çünki Azərbaycan Prezidenti kimi mən də bu gün Azərbaycanın böyük gələcəyi haqqında düşünürəm. Azərbaycanın gələcəyi isə Azərbaycanın gənclərindən və uşaqlarından asılıdır".**



# Dövlət siyasətinin təntənəsi

Ötən illər ərzində bu istiqamətdə görülmüş işlərə əsaslanıb deyə bilərik ki, ölkəmizdə gənclər siyasətinin əsasını Ümummilli Lider Heydər Əliyev qoymuşdur. Xalqını, millətini ürəkdən sevən bu böyük şəxsiyyət üçün sabahın qurucusu olacaq gənclik amili milli mənliyimizin keşiyində yorulmadan dayanmaq amalı qədər lazımi və gərəkli idi. Uğurla həyata keçirilən gənclər siyasəti bütövlükdə Ulu Öndər Heydər Əliyevin fəaliyyətində əsas istiqamətlərdən biri idi. Yaradıcı gəncliyin istedadlı nümayəndələrinə Prezident mükafatlarının verilməsinin əsası da bu böyük şəxsiyyət tərəfindən qoyulmuşdur.

Zaman-zaman gənclərimizin vətənpərvər, əsl Azərbaycan vətəndaşı kimi formalaşmasında Ümummilli Lider Heydər Əliyevin misilsiz xidmətləri var. Hələ keçən əsrin 70-80-ci illərində müdrik rəhbərin göstərişi ilə yüzlərlə azərbaycanlı gənc keçmiş ittifaqın paytaxtı olan Moskva da daxil olmaqla aparıcı ali məktəblərə, müxtəlif ixtisaslar üzrə təhsil almağa göndərilmişdi. Uzun illərdən sonra həmin gənclər müstəqil dövlətimizin qurulmasında fəal iştirak etdilər, cəmiyyətin aparıcı qüvvəsinə çevrildilər.

Ulu Öndər Heydər Əliyevin rəhbərliyi altında ölkəmizdə gənclərlə bağlı görülən zəruri işlər, atılan uğurlu addımlar, qəbul olunan müvafiq qərar və qanunlar Azərbaycan gəncliyinin inkişafına təkan verir, onların cəmiyyətdə özlərini təsdiq etmələri üçün böyük imkanlar açırdı. Gənclərimiz isə dövlətin onlar üçün yaratdığı şəraitdən bacarıqla istifadə edərək təhsil alır, müxtəlif sahələrdə böyük fəallıqla çalışaraq cəmiyyətin ön sıralarında addımlayırdılar.

Ölkəmizin gələcəyi olacaq gənclərimizin vətənpərvər, savadlı, çalışqan əsl Azərbaycan vətəndaşı kimi formalaşmasında və böyüməsində müasir müstəqil Azərbaycan dövlətinin qurucusu Ümummilli Lider Heydər Əliyevin böyük əməyi olub. Ulu Öndərin rəhbərliyi ilə aparılan məqsədyönlü siyasət nəticəsində respublikamızda yüksək intellektual səviyyəyə, vətənpərvərlik hissinə və milli düşüncəyə malik gənclər yetişmişdir.

Ümummilli Lider Heydər Əliyev 1993-cü ildə xalqın təkidli tələbi ilə hakimiyyətə qayıtdıqdan sonra yenə də gəncliyə qayğı göstərilməyə başladı. Ulu Öndər Heydər Əliyev hələ Azərbaycan Respublikası Ali Sovetinin Sədri olarkən 1993-cü ilin 22 sentyabrında ilk dəfə gənclərin nümayəndələri ilə görüşmüşdür. Görüş zamanı gənclərə müraciət edən Ümummilli Lider demişdir: "Hər bir xalqın, hər bir millətin, hər bir ölkənin gəncləri onun həm bu günüdür, həm də sabahıdır, ümididir. Siz, Azərbaycan xalqının gənc nəsli, bu gün də müstəqil Azərbaycan Respublikasının ictimai-siyasi həyatında böyük rol oynayırsınız. Eyni zamanda müstəqillik yoluna düşmüş Azərbaycan dövlətinin gələcəyinin, xalqımızın daha firavan yaşamasının təməlini qoymaqda iştirak edirsiniz. Buna görə də sizə ümid bəsləyirik".

Ulu Öndər gənclərlə görüşlərində onların problemləri ilə maraqlanır və həlli istiqamətində lazımi addımlar atırdı. 1997-ci il oktyabrın 29-da yaradıcı gənclərlə görüşündə Heydər Əliyev demişdir: "Mən gənclərə üzümü tutub deyirəm, - sizin qarşınızda çox gözəl imkanlar, perspektivlər var. Şübhə etmirəm ki, siz böyük uğurlar qazanacaqsınız, ədəbiyyatımızı inkişaf etdirəcəksiniz. Şübhə etmirəm ki, sizin içinizdən Azərbaycan xalqının ədəbiyyatını, mədəniyyətini daha da yüksəklərə qaldıran böyük şairlər, yazıçılar, ədəbiyyatşünaslar çıxacaqdır. Mən buna heç şübhə etmirəm. Çünki indiyədək yaşadığımız dövr və əldə etdiyimiz nailiyyətlər buna belə deməyə tam əsas verir. Şərait daha da sərbəst olanda, insan daha da müstəqil, azad olanda: şübhəsiz ki, onun daxilində olan imkanlar daha çox açılır və öz bəhrəsini verir".

Ötən əsrin 90-cı illərinin əvvəllərindən həm dünyada, həm də Azərbaycanda baş verən ictimai-siyasi hadisələrin fonunda gənclərin qarşısında dayanan problemlər və onların həlli yolları da dəyişməyə başladı. Getdikcə dəyişən zamandan geri qalmamaq üçün Azərbaycan Respublikası Prezidentinin 26 iyul 1994-cü il tarixli fərmanı ilə ölkəmizdə Gənclər və İdman Nazirliyi yaradıldı. "Hər bir Azərbaycan gənci hər şeydən çox, hər şeydən artıq müstəqil Azərbaycanın bu günü, gələcəyi haqqında düşünməlidir" deyən Ulu Öndər sözügedən nazirliyin əsasını qoydu. Bu dövlət qurumu qısa müddət ərzində gənclər siyasətinin əsas istiqamətlərini müəyyənləşdirdi və onların reallaşması istiqamətində uğurlu addımlar atmağa başladı.

1995-ci ildə Gənclər Təşkilatlarının Milli Şurası yaradıldı. Azərbaycan gənclərinin cəmiyyətin inkişafında və bir çox vacib problemin həllində rolunu daha da yüksəltmək, onların məsuliyyətini artırmaq məqsədilə Ümummilli Lider Heydər Əliyev tərəfindən Azərbaycan Gənclərinin Forumunun keçirilməsi təşəbbüsü irəli sürüldü. 2 fevral 1996-ci ildə Respublika Gənclərinin I Forumu keçirildi. İlk forum Azərbaycanda gənclər siyasətinin müəyyən olunmasında mühüm rol oynadı. 1997-ci il fevralın 1-də forumun ildönümü münasibətilə gənclərin bir qrupunu qəbul edən Ulu Öndər 2 Fevral - Azərbaycan Gəncləri Gününün elan edilməsi haqqında fərman imzaladı.

O da xüsusi olaraq qeyd edilməlidir ki, Azərbaycanda Gənclər Günü təsis edildikdən xeyli sonra gənclərin işləri üzrə nazirlərin ümumdünya konfransının (1998-ci il avqustun 8-12-də) tövsiyəsi əsasında BMT Baş Məclisinin 1999-cu il 17 dekabr tarixli qətnaməsi ilə 12 Avqust - Beynəlxalq Gənclər Günü elan edildi.

Ümummilli Lider Heydər Əliyev 2 fevral 1998-ci ildə Azərbaycan Gəncləri Gününün ildönümü münasibətilə keçirilən bədii-idman bayramında gənclərə müraciət edərək demişdir: "Mən sizi gördükcə daha da ruhlanıram, siz mənə daha da ilham verirsiniz və sizdən ilham alaraq Azərbaycanı daha da qüdrətli etməyə çalışıram. Əmin ola bilərsiniz ki, Azərbaycan dövləti, Azərbaycanın Prezidenti sizin - gənclərimizin bütün hüquqlarının qorunmasının təminatçısı olub və bundan sonra da təminatçısı olacaqdır. Əmin ola bilərsiniz ki, Azərbaycan gənclərinin yaxşı yaşaması, təhsil alması üçün, yaxşı əmək fəaliyyəti göstərməsi üçün bundan sonra da əlimizdən gələni edəcəyik".

2 mart 1999-cu ildə Azərbaycan Gənclərinin II Forumundakı çıxışında Ulu Öndər Heydər Əliyev respublikanın ictimai-siyasi həyatında gənclərin daha fəal iştirakı üçün şəraitin yaradılması, dövlət orqanlarının diqqətini gənclərin problemlərinin həllinə yönəltmək ilə bağlı tövsiyələr verdi. Heydər Əliyev forumda "XXI əsr gənclərin əsridir" deyərək onlara verilən dəyəri və ölkənin inkişafı üçün üzərlərinə götürdüyü məsuliyyəti müəyyən etdi.

1999-cu ildə Ulu Öndər Heydər Əliyev "Dövlət gənclər siyasəti haqqında" fərman imzaladı. İmzalanan fərman bu sahəyə Prezident səviyyəsində böyük önəm verildiyini aydın şəkildə göstərdi. "Dövlət gənclər siyasəti haqqında" fərman çox geniş spektri - gənclərin təhsili, tərbiyəsi, sağlamlığı, intellektual və mənəvi inkişafı, asudə vaxtın təşkili problemlərinin həlli, hüquqların müdafiəsi, respublikanın ictimai-siyasi və mədəni həyatında iştirakı ilə bağlı məsələləri əhatə edirdi. "Dövlət gənclər siyasəti haqqında" fərmana uyğun olaraq 9 aprel 2002-ci ildə "Gənclər siyasəti haqqında" Azərbaycan Respublikasının Qanunu qəbul edildi və Ulu Öndər Heydər Əliyev tərəfindən imzalandı.

Ulu Öndər Heydər Əliyevin illər öncə əsasını qoyduğu gənclər siyasəti bu gün Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Gənclər siyasəti ölkədə həyata keçirilən dövlət siyasətinin mühüm tərkib hissəsini təşkil edir. Prezident İlham Əliyevin gənclərin potensialının gerçəkləşməsinə, onların vətənpərvər, savadlı kadr kimi böyüməsinə, gənc ailələrin sosial təminatına yönələn tədbirlər dövlətin uzaqgörən siyasətinin göstəricisi kimi qiymətləndirildi.

Gənc istedadların aşkar olunması, onların imkanlarının daha da inkişaf etdirilməsi və yüksəksəviyyəli təhsil alması üçün əlverişli şəraitin yaradılması da gənclər siyasətinin prioritet istiqamətlərindəndir. Prezident İlham Əliyevin 2005-ci il avqustun 30-da imzaladığı "Azərbaycan gəncliyi Dövlət Proqramı"nın təsdiq olunması haqqında" və 2006-cı il aprelin 17-də imzaladığı "Xüsusi istedada malik olan uşaqların (gənclərin) yaradıcılıq potensialının inkişafı üzrə Dövlət Proqramı (2006-2010-cu illər)", 2011-ci il iyulun 7-də imzaladığı "Azərbaycan gəncliyi 2011-2015-ci illərdə" Dövlət Proqramının təsdiq olunması haqqında" və başqa sərəncamları gənclər siyasətinin daha da inkişaf etdirilməsinə təkan verir. Uğurla həyata keçirilən dövlət proqramları müasir Azərbaycan gəncliyinin dövrün tələbləri səviyyəsində hərtərəfli inkişafına əlverişli zəmin yaradır.

Azərbaycan gəncləri ordu sıralarında da vətənpərvər, mənəviyyatca saf, fiziki cəhətdən sağlam şəkildə xidmət edirlər. 27 sentyabr 2020-ci ildə erməni təxribatı nəticəsində başlayan İkinci Qarabağ müharibəsində vətənpərvər gənclərimiz silaha sarılaraq döyüşlərə atıldılar. Torpaqlarımızın azadlığı uğrunda gedən döyüşlərdə gənclər böyük hünər və qəhrəmanlıq göstərərək, düşmən üzərində Zəfər qazandılar. Bunun nəticəsində 30 ilə yaxın işğalda qalmış torpaqlarımız düşməndən azad edildi, ölkəmizin ərazi bütövlüyü və suverenliyi tam bərpa olundu. Həm müharibədə, həm də başqa sahələrdə gənclərin qazandığı bu uğur və qələbələr Ulu Öndər Heydər Əliyev kursunun, Prezident İlham Əliyev siyasətinin təntənəsidir.

*Vahid MƏHƏRRƏMOV,*
*"Azərbaycan"*

● Gələcəyə dəstək

# D-8: Regionla əməkdaşlıq üçün gənclərin işgüzar platforması



**Ölkəmizin paytaxtı bu ay bir sıra beynəlxalq əhəmiyyətli, mühüm tədbirlərə evsahibliyi edib. Dekabrın 5-9-da keçirilən D-8 Gənclər Dialoqu isə gənclərin inkişafında və əlaqələrinin genişlənməsində əhəmiyyətli tədbirlərdən biri hesab edilir. Dialoq Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyinin təşkilatçılığı ilə "Gənclər qlobal şəhər gündəliyinin gələcəyini formalaşdırır: Sabahın dayanıqlı və iqlimədavamlı şəhərləri" mövzusunda təşkil olunub.**

D-8-ə üzv dövlətlərin gənclər siyasətinə məsul qurumların rəhbərlərini, aparıcı gənclər təşkilatlarının nümayəndələrini, siyasətçiləri və sahə üzrə tanınmış beynəlxalq ekspertləri bir araya gətirən tədbirin əsas məqsədi gənclər arasında regional və beynəlxalq əməkdaşlığın gücləndirilməsi, innovasiya və məşğulluq sahəsində gənclərin potensialının artırılması, eləcə də dayanıqlı, inklüziv və davamlı şəhər mühitinin qurulmasında gənclərin rolunun genişləndirilməsidir.

Xatırladaq ki, Azərbaycan D-8 İqtisadi Əməkdaşlıq Təşkilatına ötən il üzv seçilib. Bu təşkilat çərçivəsində ilk uğurlu addımlarını atan Azərbaycan qısa vaxt ərzində əməkdaşlıq sahələrini müəyyənləşdirib, islahatlarda iştirak etməyə təşəbbüs göstərib. Ölkəmizin D-8 təşkilatı çərçivəsində növbəti hədəfləri bəllidir. D-8 Gənclər Dialoqunda çıxış edən xarici işlər nazirinin müavini, COP29-un baş danışıqçısı Yalçın Rəfiyev deyib: "Biz Bakıda yeni D-8 mərkəzləri açmaq niyyətindəyik. Bunlar iqlim, nəqliyyat və media mərkəzləridir, Azərbaycanın D-8 çərçivəsində təşəbbüsləri məramını və həmrəyliyini ifadə edir".

Dünyanın texnologiya və iqlim sahələrində inkişaf etdiyini vurğulayan Yalçın Rəfiyev bildirib ki, bu prosesdə tam iştirak etməliyik: "Burada gənclərin liderliyi də önəmlidir. D-8 Gənclər Dialoqu 350 milyon gəncin burada təmsil olunması deməkdir. Gənclər ancaq inkişafa töhfə vermir, onlar dəyişikliyin memarlarıdır. D-8 dialoqu bizim ideyalarımızın, tövsiyələrimizin mübadiləsi üçün unikal bir fürsətdir. Sizin liderliyiniz, innovasiya və iştirakınızla D-8 təkcə iqtisadi kooperasiya platforması olmayacaq, eyni zamanda birlikdə gələcəyi formalaşdıracağıq. Müzakirələr sayəsində bizim cəmiyyətlərimiz üçün daha güclü və daha çevik platforma yaranacaq".

Gənclər Dialoqunda çıxış edən D-8 İqtisadi Əməkdaşlıq Təşkilatının baş katibi İsiaka Abdulqadir İmam ölkəmizin bu sahədə fəaliyyətindən məmnunluğunu dilə gətirib: "Azərbaycan D-8 təşkilatında böyük aktivlik nümayiş etdirir. Bu gün Azərbaycan hökuməti tərəfindən D-8 təşkilatının tədbirləri dəstəklənir".

Baş katib D-8-in 1987-ci ildə İstanbulda təsis edildiyini yada salıb. Azərbaycanın qoşulması ilə təşkilatın əhatə dairəsinin genişləndiyini deyib: "Təşkilatın məqsədi iqtisadi əməkdaşlığı və ticarəti təşviq etməkdir. Gənclərin inkişafı və iqlim məsələləri də əsas fəaliyyət sahələrimizə daxildir. Azərbaycanın təşkilata qoşulması ilə iqlim sahəsində fəaliyyətlərimizi daha da genişləndirmişik. COP29 təcrübəsi bizim üçün çox önəmlidir. Bu təşkilatın potensialı çox böyükdür.

Bizim əhalimizin 20 faizi gənclərdir. Həmin gənclər inkişafa aktiv töhfə verirlər. Gənclər bizim gələcəyimizdə böyük rol oynayırlar. D-8 də gənclərə dəstək vermək üçün öz məramını ifadə edir. İnanırıq ki, D-8 Gənclər Dialoqu çərçivəsində gənclər dünyada gedən proseslərdə daha aktiv iştiraklarına imkan yaradacaq bilik və bacarıqlar əldə edəcəklər. Forum vasitəsilə daha təhlükəsiz gələcək təmin etməyə çalışacağıq. Burada yeni inklüziv ideyaların formalaşacağına inanıram".

D-8 Gənclər Dialoqunda çıxışında gənclər və idman naziri Fərid Qayıbov ölkəmizdə həyata keçirilən gənclərin inkişafı istiqamətində atılan addımlardan bəhs edib: "Ölkəmizdə çoxsaylı gənclər mərkəzi yaradılıb, müxtəlif gənclər təşkilatları fəaliyyət göstərir. Beynəlxalq gənclər təşkilatlarında da aktivliyimiz var. Bu il müxtəlif beynəlxalq tədbirlər təşkil etmişik. Növbəti ildə biz BMT tərəfindən dəstəklənən böyük tədbirlər keçirəcəyik. Bu, bizim üçün çox böyük imkandır".

Rəsmi açılış mərasimi dekabrın 6-da baş tutan forumda D-8 İqtisadi Əməkdaşlıq Təşkilatına üzv olan ölkələr tam şəkildə təmsil olunublar. 8 ölkədən və təşkilatın Katibliyindən 30-dan çox xarici nümayəndə, 10-a yaxın peşəkar çıxışçı olmaqla, ümumilikdə 100-dən çox qonaq iştirak edib.

Forum çərçivəsində "İnsan kapitalının inkişafı və dayanıqlı şəhərsalma - Gənclər inkişafın aparıcı gücü kimi", "Dayanıqlı şəhərsalma: Gənclər və şəhərlərin gələcəyi", "Ağıllı və inklüziv şəhərlər üçün transformasiya" kimi mövzuların müzakirəsi nəzərdə tutulub.

D-8 Gənclər Dialoqunun ikinci günü - dekabrın 7-də gənclər siyasəti, şəhər inkişafı və dayanıqlı şəhər mühitinin formalaşmasında gənclərin roluna dair bir sıra panel müzakirələri təşkil olunub. Proqramın ilk paneli "Şəhərlərdə mobillik: Daha inklüziv və gəncləryönümlü mobillik sistemləri üçün siyasətlər, innovasiyalar və həllər" mövzusuna həsr edilib. Müzakirələrdə şəhər nəqliyyatının əlçatanlığı, gənclərin ehtiyaclarına uyğunlaşdırılmış mobil yanaşmalar, rəqəmsal nəqliyyat həlləri və dayanıqlı şəhər mühitinin qurulması məsələləri diqqət mərkəzində olub. Sonra "Yaşıl urban inkişaf üçün bacarıqlar: Dayanıqlı və aşağı karbonlu şəhərlər naminə gənclər" paneli keçirilib. Ekspertlər və iştirakçılar gənclərin "yaşıl bacarıqları"nın inkişaf etdirilməsi, ekoloji davamlı şəhər modellərinin yaradılma imkanları və aşağı karbonlu gələcəyə keçidi sürətləndirən təşəbbüslər barədə fikir mübadiləsi aparıblar. Sessiyalar boyunca üzv ölkələrin nümayəndələri urbanizasiya, ekoloji siyasət, innovasiya və gənclərin fəal iştirakının gücləndirilməsi sahələrində əməkdaşlıq imkanlarını müzakirə ediblər.

D-8 Gənclər Dialoqu region ölkələri arasında gənclər siyasətinə və dayanıqlı urban inkişaf üzrə tərəfdaşlığın möhkəmlənməsinə, eləcə də yeni ortaq təşəbbüslərin formalaşmasına mühüm töhfə vermək məqsədi daşıyıb.

Forumun rəsmi bağlanış mərasiminin sonunda D-8 ölkələrinin nümayəndələri tərəfindən D-8 Bakı Gənclər Bəyanatı qəbul edilib. Gənclərin qərarvermə proseslərində rolunun artırılması, dayanıqlı urban inkişaf, "yaşıl bacarıq"ların gücləndirilməsi və regional əməkdaşlığın genişləndirilməsi istiqamətində ortaq öhdəliklər sözügedən bəyanatda əksini tapıb.

Beləliklə, ölkəmizdə keçirilən D-8 Gənclər Dialoqu Azərbaycan gəncləri üçün həm beynəlxalq əməkdaşlıq, həm də innovasiya və urban inkişaf sahəsində bilik və təcrübə mübadiləsi üçün unikal platforma olub. Forum iştirakçıları əldə etdikləri bilik və təcrübələri gələcək layihələrində tətbiq etməklə yalnız öz ölkələrində deyil, bütün D-8 Gənclər Dialoqu region ölkələri arasında da gənclərin inkişafına və dayanıqlı şəhər mühitinin yaradılmasına töhfə verəcəklər. Azərbaycan bu tədbir vasitəsilə həm bir daha regional liderliyini göstərib, həm də gənclərin səsi və ideyalarını beynəlxalq səviyyədə önə çıxarıb.

*Zöhrə FƏRƏCOVA,*
*"Azərbaycan"*

# Qubada könüllülər üçün təlim-düşərgə keçirilib

**Gənclər və İdman Nazirliyinin və "Femida Könüllüləri" Təşkilatı İctimai Birliyinin birgə təşkilatçılığı ilə Quba rayonunda "Azərbaycan Könüllülük Həftəsi 2025" çərçivəsində genişmiqyaslı təlim-düşərgə həyata keçirilib.**

İctimai birlikdən verilən məlumata görə, düşərgənin əsas məqsədi gənclərin hüquqi biliklərinin artırılması, praktiki bacarıqlarının inkişaf etdirilməsi, həmçinin komandada işləmək vərdişlərinin gücləndirilməsindən ibarət olub.

Təlim-düşərgə müddətində iştirakçılar üçün "Vətən müharibəsinin hüquqi aspektləri", "Məhkəmə çəkişmələri", "Liderlik və effektiv komanda quruculuğu", "Münaqişə şəraitində beynəlxalq hüququn tətbiqi və insan hüquqlarının müdafiəsi", "Zəfərə gedən yol", "Gənc hüquqşünasların inkişafında könüllülüyün rolu" mövzularında panel müzakirələr, maarifləndirici sessiyalar və "Legal Ring" adlı intellektual oyun təşkil edilib.

"Vətən müharibəsinin hüquqi aspektləri" mövzusunda paneldə politoloq, Təhsil Problemləri İnstitutunun direktor müavini Fuad Çıraqov və hüquq üzrə fəlsəfə doktoru, Bakı Dövlət Universitetinin müəllimi Pərviz Həsənov çıxış ediblər.



"Yaşatmağı bacaraq!" adlı sessiyada "Vətən Naminə" Şəhid Ailələrinə Dəstək İctimai Birliyinin sədri Tünzalə Abdüləlimova övladı şəhid Miqdad Abdüləlimovun döyüş yolundan bəhs edib, həmçinin şəhidlərin Vətən qarşısında göstərdikləri misilsiz qəhrəmanlıqdan və bu müqəddəs irsin yaşadılmasının vacibliyindən danışıb.

"Məhkəmə çəkişmələri" mövzusunda panel müzakirəsində Quba Rayon Məhkəməsinin hakimi Nigar Xəlilova və Vəkillər Kollegiyasının üzvü, vəkil Aydan Rəhimli iştirak ediblər.

"Liderlik və effektiv komanda quruculuğu" mövzusunda paneldə "ASAN İnnovativ İnkişaf Mərkəzi"nin rəhbəri Aysel Cəbrayılova və Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin Könüllülərlə iş sektorunun müdiri Böyükxanım Babayeva təlimçi qismində yer alıblar.

"Zəfərə gedən yol" panelində Vətən müharibəsinin qaziləri Əhliyyət Mehdiyev, Rahil Xəlilov, Aslan Cəfərov və Mahur Həmidov çıxış ediblər.

"Gənc hüquqşünasların inkişafında könüllülüyün rolu" sessiyasında Mediasiya Şurasının İdarə Heyətinin sədri Nadir Ədilov iştirak edib və karyera inkişafında könüllülüyün əhəmiyyəti barədə məlumat verib, həmçinin iştirakçılara kitab bağışlayıb.

"Legal Ring" intellektual oyunu iştirakçıların hüquqi biliklərini praktiki şəkildə sınamaq və komandalar arasında rəqabət mühiti yaratmaq məqsədi daşıyıb.

Sessiyalar zamanı gənclər müharibə hüququ, məhkəmə prosesləri, hüquqi prosedurlar, tərəflərin mövqelərinin müdafiəsi kimi mövzular üzrə nəzəri biliklər qazanıb, interaktiv sual-cavab formatında müzakirələr aparıblar. Həmin tədbirlər iştirakçıların hüquqi düşüncə qabiliyyətini inkişaf etdirməklə yanaşı, onların analitik yanaşma və problem həlletmə bacarıqlarını da gücləndirib.

# ABŞ-dən tarixi qərar

## 907-ci düzəlişin tam ləğvi üçün qanun layihəsi təqdim edilib

**Prezident İlham Əliyevin avqustun 8-də ABŞ-yə tarixi səfəri zamanı qəbul edilən strateji qərarlardan biri də "Azadlığa Dəstək Aktı"nın 907-ci düzəlişinin ləğv edilməsi ilə bağlı məsələ oldu. Bu düzəliş 1992-ci ildə ABŞ Konqresi tərəfindən "Azadlığa Dəstək Aktı"na əlavə edilən Birləşmiş Ştatların birbaşa dövlət yardımını qadağan edən qanunvericilik aktı idi. Yəni bu düzəliş ABŞ-nin Azərbaycana birbaşa hərbi və maliyyə yardımı göstərməsini məhdudlaşdırmışdı.**

ABŞ Prezidenti Donald Tramp, Azərbaycan Prezidenti İlham Əliyev və Ermənistanın Baş naziri Nikol Paşinyan avqustun 8-də Ağ Evdə mətbuata bəyanatla çıxışları zamanı ABŞ lideri bir daha bu məsələyə toxunaraq konkret fikrini bildirmişdi: "Biz həmçinin müdafiə sahəsində Azərbaycan ilə Amerika Birləşmiş Ştatları arasında əməkdaşlığa olan məhdudiyyəti aradan qaldırırıq. Bu həm Sizin və həm də mənim üçün əhəmiyyətli məsələdir. Bir Prezident olaraq mənim ən böyük istəyim dünyada sülhün və sabitliyin bərqərar edilməsidir".

Prezident İlham Əliyev isə öz növbəsində qeyd etmişdir ki, ABŞ Prezidenti Donald Trampın 1992-ci ildə qəbul olunmuş "Azadlığa Dəstək Aktı"nın 907-ci düzəlişinin icrasını dayandırması Azərbaycan iqtisadiyyatına qarşı illərlə tətbiq olunmuş ədalətsiz məhdudiyyətlərin aradan qalxmasına şərait yaratmış olub. Bu qərar iqtisadi əməkdaşlıq imkanlarını genişləndirən mühüm addım idi.

Beləliklə, 33 il sonra Azərbaycan Prezidentinin qətiyyətli xarici siyasəti nəticəsində sözügedən düzəlişin ləğv edilməsi gündəmə gəldi.

Son məlumatlara görə, ABŞ Nümayəndələr Palatasının üzvü Anna Paulina Luna 907-ci düzəlişi tam ləğv etməyə yönəlmiş qanun layihəsini təqdim edib. Bu barədə məlumat Konqresin saytında yerləşdirilib.

"Rəsmi Bakı Azərbaycanla ABŞ arasında münasibətlərin inkişaf perspektivləri, Azərbaycanın geniş regionda artan rolu nəzərə alınaraq, ABŞ tərəfinin bu düzəlişin tamamilə ləğv edilməsi istiqamətində əməli addımlar atacağına ümidvar olduğunu bəyan edib". Bunu Vaşinqtonda səfərdə olan Azərbaycan parlamentinin, Xarici İşlər Nazirliyinin, Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzi və yəhudi icmasının təmsilçilərindən ibarət nümayəndə heyətinin rəhbəri, Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədri Səməd Seyidov deyib. O bildirib ki, əvvəlki ABŞ Administrasiyası sayəsində ikili əlaqələr sıfır dərəcəsinə enmişdi.



"Ancaq 8 avqustdan sonra bunların hamısı dəyişdi. Minsk qrupunun ləğvi, 907-nin dayandırılması, bir neçə gün bundan əvvəl İşçi qrupuna ABŞ-nin həmsədr təyin etməsi, ən yüksək səviyyədə məmurların Azərbaycana gedib, Azərbaycanda Azərbaycan-Amerika münasibətlərini müzakirə etməsi yeni tarixdir. Bu tarixi biz Konqresdə, Senatda hiss edirik. Vaxt var idi, onlar bizimlə şəkil çəkdirmək belə istəmirdilər. Ona görə ki, erməni lobbisi var idi. İndi də var, ancaq Azərbaycan artıq fərqli Azərbaycandır və ABŞ də fərqli ABŞ-dir. İndi görüşlərin sayı gündən-günə artır. İndi senatorlar, konqresmənlər Azərbaycana gəlmək istəyirlər və gəlirlər", - deyə Səməd Seyidov bildirib.

Deputat qeyd edib ki, Azərbaycan güclüdür və haqq, ədalət yolunun ən yüksək səviyyədə təbliğatçısıdır: "Bu gün biz bunun şahidi oluruq və hesab edirəm ki, bu istiqamətdə əlaqələr inkişaf edəcək və biz daha çox nailiyyət görəcəyik. Biz istəyirik ki, ABŞ Konqresi və Senat 907-ci düzəlişi müzakirə edərək birdəfəlik aradan qaldırsın. Biz istəyirik ki, Azərbaycanla bağlı hələ də hər hansı təşəbbüsləri irəli sürüb, ümumi sülh məsələlərini zəhərləmək istiqamətində çalışan erməni lobbisi artıq başa düşsün ki, onlar bizə qarşı yox, ABŞ-nin maraqlarına qarşı işləyirlər. Bunu artıq Amerikanın ən yüksək səviyyəsində başa düşürlər".

Beləliklə, tezliklə bu düzəlişin ləğvi Azərbaycana əlverişli imkanlar yaradacaq. Ekspertlər hesab edirlər ki, bu addım ABŞ-nin Azərbaycana birbaşa dövlət yardımlarının həcmini artıracaq. İqtisadçı deputat Vüqar Bayramov deyib ki, 2024-cü ildə Azərbaycan ABŞ-dən cəmi 20 milyon dollar yardım alıb. Həmin il Ermənistan 92 milyon dollar, Gürcüstan isə 180 milyon dollarlıq Vaşinqton yardımından faydalana biliblər. Göründüyü kimi, ABŞ ötən il Azərbaycan ilə müqayisədə Ermənistana 4,6 dəfə, Gürcüstana isə 9 dəfə çox yardım ayırıb. 2024-cü ildə Ukrayna ABŞ-dən ən çox yardım alan dövlət olub. Rusiya ilə müharibə aparan ölkəyə il ərzində 16,4 milyard dollar ayrılıb. Efiopiya, İordaniya, Somali və Konqo daha çox yardım alan ilk beşliyi tamamlayıblar.

***Rəşad BAXŞƏLİYEV,***
***"Azərbaycan"***

# Ağdərənin Həsənriz və Vəngli kəndlərinə köçən ailələrə evlərin açarları təqdim edilib











Prezident İlham Əliyevin tapşırığına uyğun olaraq, işğaldan azad edilmiş ərazilərə Böyük qayıdış davam edir. Dekabrın 12-də respublikanın müxtəlif yerlərində, əsasən, yataqxanalarda, sanatoriya və inzibati binalarda müvəqqəti məskunlaşmış ailələrdən ibarət növbəti köç karvanı Ağdərə rayonunun Həsənriz kəndinə yola salınıb. Bu mərhələdə Həsənriz kəndinə 16 ailə - 74 nəfər köçürülüb.

AZƏRTAC xəbər verir ki, Həsənrizə köçən ailələr Tərtər şəhərindəki Bayraq meydanından yola salınıb.

Köç karvanı ilə Ağdərə rayonunun Həsənriz kəndinə çatan ailələrə evlərinin açarları təqdim olunub. Açarların təqdim edilməsi mərasimində Xankəndi şəhərində, Ağdərə və Xocalı rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəliyinin, Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin rəsmiləri və digər şəxslər iştirak ediblər.

Əvvəlcə Ulu Öndər Heydər Əliyevin xatirəsi birdəqiqəlik sükutla yad edilib.

Tədbirdə çıxış edən Xankəndi şəhərində, Ağdərə və Xocalı rayonlarında Bərpa, Tikinti və İdarəetmə Xidmətinin icraçı direktorunun müavini Mahmud Əfəndiyev kəndə köç edən sakinləri təbrik edib, onlara doğma yurdlarında xoşbəxt həyat arzulayıb.

Doğma yurda qayıdan Ağdərə rayon sakinləri hərtərəfli dövlət qayğısı ilə əhatə olunduqlarına görə, Prezident İlham Əliyevə və Birinci vitse-prezident Mehriban xanım Əliyevaya təşəkkür ediblər.

Həsənrizə qayıdan sakinlərə ANAMA-nın əməkdaşları tərəfindən mina və partlamamış silah-sursatların təhlükəsi barədə ətraflı məlumat verilib. Tanımadıqları naməlum əşyalardan və cisimlərdən uzaq durmaları, belə hallarla qarşılaşdıqları zaman aidiyyəti qurumlara xəbər vermələri tövsiyə olunub.

Keçmiş məcburi köçkünlər 33 ildən sonra doğma torpaqlara qayıtmalarının sevincini yaşayıb, evlərində məskunlaşıblar.

Qeyd edək ki, Həsənriz kəndində bərpa edilən fərdi yaşayış evlərində keçmiş məcburi köçkünlərin məskunlaşması üçün bütün şərait yaradılıb. Kənd fasiləsiz elektrik enerjisi, təbii qaz, içməli su və yüksəksürətli internet xətti ilə təmin edilib.

* * *

Növbəti köç karvanı isə Ağdamdan Ağdərənin Vəngli kəndinə yola salınıb. Xankəndi şəhərində, Ağdərə və Xocalı rayonlarında Bərpa, Tikinti və İdarəetmə Xidmətinin ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata əsasən, bu mərhələdə Vəngli kəndinə 76 nəfərdən ibarət 16 ailə köçürülüb.

Açarların təqdimetmə mərasimindən əvvəl Ümummilli Lider Heydər Əliyevin xatirəsi birdəqiqəlik sükutla yad edilib.

Sonra çıxış edən Xankəndi şəhərində, Ağdərə və Xocalı rayonlarında Bərpa, Tikinti və İdarəetmə Xidmətinin icraçı direktorunun müavini Mahmud Əfəndiyev sakinlərə kənddə bütün zəruri infrastrukturun tam şəkildə hazır olduğu və onların rahat yaşayışı üçün su, qaz, elektrik xətləri, yüksəksürətli internet şəbəkəsinin çəkildiyi, yol infrastrukturunun yeniləndiyi barədə məlumat verib.

Ailələr açarları təhvil alıb, sevinc ilə evlərində məskunlaşıblar.

# Ruben Vardanyanın məhkəməsi sənədlərin tədqiqi ilə davam etdirilib

Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin sülh və insanlıq əleyhinə cinayətlər, müharibə cinayətləri, habelə terrorçuluq, terrorçuluğu maliyyələşdirmə ilə bağlı maddələri ilə və digər ağır cinayətlərdə təqsirləndirilən Ermənistan vətəndaşı Ruben Vardanyanın barəsində cinayət işi üzrə məhkəmə prosesi dekabrın 12-də davam etdirilib.

AZƏRTAC xəbər verir ki, Bakı Hərbi Məhkəməsində hakimlər Zeynal Ağayevin sədrliyi ilə, Anar Rzayevdən və Camal Ramazanovdan ibarət tərkibdə keçirilən açıq məhkəmə iclasında (ehtiyat hakim Günel Səmədova) təqsirləndirilən şəxs bildiyi dildə, yəni rus dilində tərcüməçi, habelə müdafiəsi üçün dövlət hesabına vəkillə təmin olunub.

Hakim Zeynal Ağayev prosesdə ilk dəfə iştirak edən zərərçəkmiş şəxslərə və zərərçəkmiş şəxslərin hüquqi varislərinə məhkəmə heyətini, dövlət ittihamını müdafiə edən prokurorları, tərcüməçiləri və s. təqdim edib, habelə onların qanunvericiliklə nəzərdə tutulmuş hüquqlarını və vəzifələrini izah edib.

Sonra R.Vardanyanın müdafiəçisi Emil Babışov iki vəsatət təqdim edib.

Müdafiəçi birinci vəsatətində cinayət işi üzrə ibtidai istintaq zamanı ifadə verən bütün şahidlərin və məhkəmə istintaqı zamanı şahid qismində dindirilmiş Kamo Hayrapetyanın, Muşeq Qriqoryanın və digər tədqiq olunan şahid ifadələrinin mötəbər sübut hesab edilməyərək, iş üzrə təqsirləndirilən R.Vardanyanla əlaqəsinin olmaması səbəbindən sübut siyahısından çıxarılması və təqsirləndirilən şəxsə qarşı sübut kimi istifadə olunmamasını, eləcə də yekun məhkəmə qərarı qəbul edilən zaman nəzərə alınmamasını xahiş edib.

E.Babışov ikinci vəsatətlə bağlı qeyd edib ki, məhkəmə istintaqı zamanı ittihamın əsasını təşkil edən bir sıra sübutlar tədqiq olunub, yüzlərlə zərərçəkmiş şəxs, habelə zərərçəkmiş şəxslərin hüquqi varisləri ifadə verib, prosesdə iştirakı müəyyən səbəblərdən mümkün olmayan şəxslərin ifadələri, digər aidiyyəti sənədlər elan edilib, bir çox şəxsin aldığı xəsarətlər barədə faktlar açıqlanıb. Vəkil deyib ki, buna baxmayaraq, hüquqlarını müdafiə etdiyi şəxsin mövqeyinə görə, həmin şəxslərin verdiyi ifadələrin təqsirləndirilən şəxslə heç bir əlaqəsi yoxdur.

Belə ki, zərərçəkmiş şəxslərin verdikləri ifadələrdən məlum olub ki, onların aldıqları xəsarətlər müxtəlif tarixləri əhatə edir. Həmin tarixlərin müəyyən hissəsi iş üzrə təqsirləndirilən şəxs R.Vardanyanın Ermənistan Respublikasının vətəndaşı olmadığı, yəni Rusiya Federasiyası vətəndaşı olaraq şəxsi biznesi ilə çalışdığı dövrlə üst-üstə düşür. Ona görə də məhkəmə istintaqı zamanı zərərçəkmiş şəxs və zərərçəkmiş şəxslərin hüquqi varislərinin məhkəmədə verdiyi ifadələrinin iş üzrə təqsirləndirilən şəxs R.Vardanyanla əlaqəsinin olmaması səbəbindən yekun məhkəmə qərarı çıxarılarkən təqsirləndirilən şəxsə qarşı sübut olaraq istifadə edilməməsini xahiş edib.



Təqsirləndirilən şəxs vəsatətləri dəstəklədiyini bildirib.

Dövlət ittihamçısı Təranə Məmmədova vəsatətlərə münasibət bildirərək qeyd edib ki, hər iki vəsatət eyniməzmunlu xarakter daşıyır. Təqsirləndirilən şəxs Ermənistan dövləti tərəfindən formalaşdırılmış, Azərbaycan Respublikasının suveren ərazilərinin işğalı zamanı, həmçinin işğal dövründə çoxsaylı cinayətlər törətmiş cinayətkar birliyə daxil olaraq, ümumi cinayətkar niyyət və məqsədlərə uyğun fəaliyyət göstərib, zərərçəkən şəxs qismində ifadə verən şəxslər də həmin dövrdə yaralandıqlarına, öldürülmələrinə cəhd olunduğuna, eləcə də hüquqi varislərin ifadələrində göstərildiyi kimi, zərərçəkən şəxslərin öldürülmələrinə görə müvafiq ittihamlar verilib.

T.Məmmədova ikinci vəsatətlə bağlı çıxışında vurğulayıb ki, Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəllənin tələblərinə əsasən, iş üzrə mühüm əhəmiyyət kəsb edən hallar barədə xəbərdar olan şəxslərin ifadələri də şahid ifadəsi hesab olunur.

Dövlət ittihamçısı bildirib ki, bunlar müşavirə otağında qiymət veriləsi xüsusatlardır. "Odur ki, hazırkı mərhələdə vəsatətlərin baxılmamış saxlanmasını xahiş edirik", - deyə o əlavə edib.

Məhkəməyə sədrlik edən yerində müşavirədən sonra bildirib ki, hər iki vəsatətdə göstərilən xüsusatlar yekun məhkəmə qərarı qəbul edilən zaman qiymət verilməli hallar olduğundan hazırda bu vəsatətlər baxılmamış saxlanılır.

Məhkəmə prosesi ittiham tərəfinin vəsatəti əsasında cinayət işi üzrə digər zəruri sənədlərin tədqiqi ilə davam etdirilib.

Tədqiq olunan sənədlərdə göstərilib ki, Xankəndi şəhərində yerləşən radioqəbuledici və radioveriliş mərkəzinə baxış zamanı tünd yaşıl rəngli 03-11 31PB qeydiyyat nişanlı hərbi təyinatlı avtomobil aşkarlanıb. Avtomobilin üzərində xüsusi radioavadanlıq və arxa hissəsində "Repellant-1" sisteminin quraşdırıldığı müəyyən edilib. Sistem pilotsuz uçan aparatların idarəetmə sisteminin siqnallarının 30-35 kilometr məsafədən susdurulması üçün nəzərdə tutulub. Avtomobilin içərisində monitor, idarəetmə sistemi, soyuducu sistem olub.

Eyni zamanda Xocalı rayonunda yerləşən hərbi hissədə saxlanılan 7 ədəd müxtəlifölçülü tünd yaşıl rəngli qablaşmada olan avadanlıqlara baxış zamanı avadanlığın "Polya-21" adlı radiomaneə stansiyası olduğu və həmin stansiyanın da təyyarələrin "GPS" sisteminə maneə yaratmaq üçün istifadə edilməsi müəyyənləşib.

Bundan başqa, "Azərbaycan Hava Yolları" Qapalı Səhmdar Cəmiyyəti tərəfindən Azərbaycanın hava məkanında peyk naviqasiyası siqnallarının maneəyə məruz qalması ilə bağlı Azərbaycan Respublikasının Baş nazirinə göndərilən 2021-ci il 27 sentyabr tarixli məktubda bildirilir ki, 2021-ci ilin iyul ayının əvvəllərindən ölkənin hava məkanında uçuşlar yerinə yetirən müxtəlif aviaşirkətlərin hava gəmiləri ekipajlarından qlobal peyk naviqasiya sisteminin (GNSS) siqnallarının qeyri-sabit işi, o cümlədən bu siqnalların söndürülməsi və təhrif edilməsi halları göstərilməklə çoxsaylı şikayətlər daxil olur.

Qeyd olunan dövrdə müxtəlif hava dəhlizləri üzrə uçuşlarda, həmçinin müəyyən edilmiş qalxma, gəliş və hava limanlarına enmə uçuş prosedurları zamanı ən azı 42 şikayət qeydə alınıb. Azərbaycanın hava məkanında qlobal peyk naviqasiyasının işinin sabitliyinin itirilməsi hava gəmilərinin uçuşlarının təhlükəsizliyi üçün ciddi təhdid törədir. Belə ki, bu hava gəmilərinin əksəriyyətində uçuş trayektoriyasına əsas nəzarət vasitəsi GNSS siqnallarını qəbul edən avadanlıqdır. Peyk siqnalının olmaması və ya dəqiqliyinin təhrif edilməsi ciddi nəticələrə gətirib çıxara bilər.

Həmçinin havadan kəşfiyyat aparılaraq Ermənistan silahlı qüvvələri və qanunsuz erməni silahlı dəstələrinə məxsus radiomaneə vasitələrinin yerləri (koordinatları) pilotsuz uçuş aparatları vasitəsilə çəkiliş aparılaraq fotogörüntüləri aşkarlanıb.

Bundan sonra təqsirləndirilən şəxs R.Vardanyan bir sıra sənədlərin cinayət işinə əlavə olunmasını məhkəmədən xahiş edib.

Müdafiəçi təqsirləndirilən şəxsin vəsatətini müdafiə edib.

Dövlət ittihamçıları etiraz etməyiblər.

Məhkəmə qərara alıb ki, təqdim olunan sənəd rus dilində olduğu üçün Azərbaycan dilinə tərcümə edilərək cinayət işi materiallarına əlavə olunsun.

Təqsirləndirilən şəxs R.Vardanyan daha sonra cinayət işi üzrə 1-15-ci cildləri nəzərdən keçirmək istədiyini, onun saxlanılması ilə əlaqədar həmin cildlərdə adıkeçən şahidlərin məhkəməyə dəvət olunmasını xahiş edib.

Vəkil E.Babışov vəsatətlərin təmin olunmasına etiraz etməyib.

Baş prokurorun böyük köməkçisi Vüsal Əliyev vəsatətə münasibət bildirərək qeyd edib ki, əgər vəsatət cinayət işi üzrə hansısa materialları əldə etməklə bağlıdırsa, etiraz yoxdur. Şahidlərin dindirilməsinə gəldikdə, sənədlər tədqiq olunanda təqsirləndirilən şəxs indiyədək sənədlərin heç birinə nə münasibət bildirib, nə etiraz edib, aşkar olunan sənədlərin ona məxsus olub-olmadığı ilə bağlı fikir söyləməyib. Protokolda olan hansısa məlumatın səhv olduğunu bildirməyib.

"Hazırkı mərhələdə həmin protokolda qeyd olunan məlumatların nə üçün mübahisəli, şübhəli olduğu görünmür. Hesab edirik ki, ortada bir ziddiyyət yoxdur, mübahisə yoxdur. Ona görə vəsatətin təmin olunmamasını xahiş edirik", - deyə o əlavə edib.

Məhkəməyə sədrlik edən yerində müşavirədən sonra bildirib ki, təqsirləndirilən şəxsin cinayət işinin müvafiq cildləri ilə tanış olmağa dair vəsatəti təmin edilir, şahidlərin məhkəməyə dəvət olunması ilə bağlı vəsatətə isə sonra baxılacaq.

Ardınca R.Vardanyan cinayət işi ilə bağlı audio-video materialları nəzərdən keçirməyə imkan yaradılmasını da istəyib.

Məhkəməyə sədrlik edən qeyd edib ki, hansı audio-video materiallar lazımdırsa, siyahısı təqdim olunsun və ona bu şərait yaradılacaq.

Məhkəmənin növbəti iclası dekabrın 16-na təyin edilib.

Xatırladaq ki, Ruben Vardanyan Azərbaycan Respublikası CM-in 100.1, 100.2 (təcavüzkar müharibəni planlaşdırma, hazırlama, başlama və aparma), 107 (əhalini deportasiya etmə və məcburi köçürmə), 109 (təqib), 110 (insanları zorakılıqla yoxa çıxarma), 112 (beynəlxalq hüquq normalarına zidd azadlıqdan məhrum etmə), 113 (işgəncə), 114.1 (muzdluluq), 115.2 (müharibə qanunlarını və adətlərini pozma), 116.0.1, 116.0.2, 116.0.10, 116.0.11, 116.0.16, 116.0.18 (silahlı münaqişə zamanı beynəlxalq humanitar hüquq normalarını pozma), 120.2.1, 120.2.3, 120.2.4, 120.2.7, 120.2.11, 120.2.12 (qəsdən adam öldürmə), 29,120.2.1, 29,120.2.3, 29,120.2.4, 29,120.2.7, 29,120.2.11, 29,120.2.12 (qəsdən adam öldürməyə cəhd), 192.3.1 (qanunsuz sahibkarlıq), 214.2.1, 214.2.3, 214.2.4 (terrorçuluq), 214-1 (terrorçuluğu maliyyələşdirmə), 218.1, 218.2 (cinayətkar birlik yaratma), 228.3 (qanunsuz olaraq odlu silah, onun komplekt hissələrini, döyüş sursatı, partlayıcı maddələr və qurğular əldə etmə, başqasına vermə, satma, saxlama, daşıma və gəzdirmə), 270-1.2, 270-1.4 (aviasiya təhlükəsizliyinə təhdid yaradan əməllər), 278.1 (hakimiyyəti zorla ələ keçirmə və ya onu zorla saxlama, dövlətin konstitusiya quruluşunu zorla dəyişdirmə), 279.1, 279.2, 279.3 (qanunvericiliklə nəzərdə tutulmayan silahlı birləşmələri və ya qrupları yaratma) və 318.2-ci (Azərbaycan Respublikasının dövlət sərhədini qanunsuz olaraq keçmə) maddələri ilə ittiham olunur.

# REGİONLAR



## "Sən elə bir zirvəsən!"

**Ümummilli Lider Heydər Əliyevin anım günü ilə bağlı Lənkəran şəhərində "Sən elə bir zirvəsən!" adlı fotosərgi keçirilib. Şəhər icra hakimiyyəti və Lənkəran şəhər Heydər Əliyev Mərkəzinin birgə təşkilatçılığı ilə keçirilən tədbir Ulu Öndərin abidəsinin ziyarəti ilə başlamışdır.**

Tədbirdə çıxış edən ŞİH-in başçısı Taleh Qaraşov bildirib ki, Heydər Əliyev Azərbaycan tarixində yalnız böyük dövlət xadimi kimi yox, həm də xalqına sevgi və sədaqət nümunəsi ilə iz qoyub: "Onun müdrikliyi, qətiyyətli siyasi iradəsi və yorulmaz zəhməti sayəsində Azərbaycan dövlətçiliyinin təməlləri möhkəmlənib, ölkəmiz çətin sınaqlardan alnıaçıq və üzüağ çıxıb. 1990-cı illərin ağır, taleyüklü günlərində xalqın təkidli tələbi ilə Ulu Öndərin hakimiyyətə qayıdışı Azərbaycanı parçalanma təhlükəsindən xilas edib, sabitlik və inkişafın bünövrəsini qoyub. Bu gün iqtisadiyyatımızın, ordu qüdrətimizin, beynəlxalq nüfuzumuzun əsasını məhz onun uzaqgörən siyasəti formalaşdırıb".

T.Qaraşov qeyd edib ki, Ulu Öndərin ən böyük arzusu azad, güclü, müasir Azərbaycan idi və bu gün əsası onun özü tərəfindən qoyulan müstəqil Azərbaycan dövlətinin bütün sahələr üzrə dayanıqlı və əsaslı inkişafı, bu strategiyanın isə Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilməsi Heydər Əliyev ideyalarının əbədi yaşarlığının ən böyük sübutudur.

Milli Məclisin deputatı Fariz İsmayılzadə də çıxışında bildirib ki, Ulu Öndər Azərbaycan tarixinin ən parlaq şəxsiyyətlərindən biridir və onun dövlətçilik təfəkkürü, siyasi iradəsi, xalqına olan sonsuz sevgisi hər bir azərbaycanlı üçün, o cümlədən gənclərimiz üçün nümunədir. Sərginin təşkil olunmasında və arxiv materiallarının bir araya gətirilməsində əsas məqsədin lənkəranlı gəncləri Ümummilli Liderin Lənkərana olan səfərləri ilə tanış etmək, onlara yeni ilham və motivasiya vermək olduğunu deyən F.İsmayılzadə bildirib ki, nümayiş olunan hər bir foto Ulu Öndərin xalqa xidmət yolunu, onun prinsipiallığını, dövlətə bağlılığını və son nəfəsinə qədər Azərbaycan uğrunda çalışmasını əks etdirir.

Tədbirin bədii hissəsində şagirlərin ifasında Ümummilli Lider Heydər Əliyevə həsr olunan şeir və musiqilər səsləndirilib. Sonra tədbir iştirakçıları Hacıağa Səlimovun lentə aldığı Ümummilli Lider Heydər Əliyevin Lənkərana səfərlərini özündə əks etdirən fotolardan ibarət sərgiylə tanış olublar.

Həmin gün Lənkəran Şəhər İcra Hakimiyyətinin, Lənkəran-Astara Regional Mədəniyyət İdarəsinin, Gənclərin İnkişaf və Karyera Mərkəzinin və Lənkəran Dövlət Peşə Təhsil Mərkəzinin birgə təşkilatçılığı ilə "Gənclərin inkişafında Heydər Əliyev irsinin rolu" mövzusunda forum keçirilib. Forumda panel müzakirələrdən sonra gəncləri maraqlandıran suallar cavablandırılıb.

*Seyran CAVADOV,*
*"Azərbaycan"*

## Goranboylular Ulu Öndərə ehtiramlarını elliklə ifadə etdilər



**Ümummilli Lider, müasir Azərbaycanın memarı və qurucusu Heydər Əliyevin anım günü Goranboyda da ümumxalq tədbiri kimi qeyd edilmişdir.**

Mərasim iştirakçıları öncə Heydər Əliyevin abidəsi önünə gül dəstələri düzmüşlər. Sonra Ulu Öndərin adını daşıyan mərkəzi ziyarət edərək onun ömür yoluna və çoxşaxəli fəaliyyətinə həsr olunmuş videoçarxa baxmışlar.

Anım mərasimində çıxış edən rayon icra hakimiyyətinin başçısı Məhərrəm Quliyev diqqətə çatdırmışdır ki, müasir Azərbaycanın tarixi və taleyi Heydər Əliyevin adı ilə bağlıdır: "Heydər Əliyev - Azərbaycan xalqının böyük oğlu, müstəqil Azərbaycan dövlətinin qurucusu, Azərbaycan siyasi dövlət idarəçiliyi sisteminin yaradıcısı, azərbaycançılıq ideologiyasının və milli özünüdərkin banisidir. O, Azərbaycan xalqının müasir dövlətçilik tarixində böyük yeniliklərə imza atmış, öz xalqını zamanın mürəkkəb tarixi-siyasi sınaqlarından uğurla çıxarmış və ardıcıl mübarizə apararaq onu müstəqilliyə qovuşdurmuş qüdrətli şəxsiyyətdir. Azərbaycana rəhbərliyinin birinci dövründə Heydər Əliyev özünün qeyri-adi idarəçilik bacarığı, polad iradəsi və yüksək vətənpərvərliyi sayəsində, uzaqgörən və məqsədyönlü qərarları ilə çox qısa müddətdə respublikamızda sosial-iqtisadi, elmi-texniki və mədəni sahələrin inkişafında intibaha nail olmuşdur. Taleyimizin həll olunduğu ağır bir zamanda xalqın təkidli tələbinə səs verərək yenidən hakimiyyətə qayıdan Heydər Əliyev doğma Vətənin xilası naminə misilsiz fədakarlıq nümayiş etdirmiş, ölkəmizi ictimai-siyasi pərakəndəliyin və anarxiyanın məngənəsindən qurtarmış, bütün sahələrdə müşahidə olunan dərin tənəzzülün qarşısını almış, yenidən qurduğu və hər cür qəsdlərdən qoruduğu dövlətin dayanıqlı inkişaf yolunu müəyyən etmişdir".

Tədbirdə o da vurğulanmışdır ki, Ümummilli Liderin siyasi kursunun davamçısı Prezident İlham Əliyevin qətiyyətli və məqsədyönlü fəaliyyəti nəticəsində Azərbaycan Ordusu 30 illik işğala son qoydu: "Düşmənin illərlə yaratdığı "məğlubedilməz ordu" mifi 44 gün ərzində bütün dünyanın gözü qarşısında darmadağın edildi, Azərbaycanın ərazi bütövlüyü tam təmin olundu. Bu gün Prezident İlham Əliyevin siyasi iradəsi və qətiyyəti ilə Azərbaycan nəinki regionun ən böyük güc mərkəzinə çevrilmiş, həm də həyata keçirilən uğurlu iqtisadi və geosiyasi layihələr nəticəsində Avropanın təhlükəsiz enerji təminatçısı kimi özünü təsdiq etmişdir".

*S.YUNİSOĞLU,*
*"Azərbaycan"*

### İlə yekun vurulur

## 2025: göygöllülər üçün abadlıq, quruculuq və festivallar ili

**Həyata keçirilən irimiqyaslı infrastruktur layihələri, cəlb edilən investisiyaların həcminin artması regionların inkişafını da sürətləndirmiş, xüsusən kənd və qəsəbələrin abadlaşdırılmasına təkan vermişdir.**

Bu baxımdan Göygöl rayonu da istisna deyil. Cari ilin göstəricilərinə nəzər salanda da aydın olur ki, rayonda ən çox diqqət yetirilən sahə abadlıq və quruculuq işləri olmuşdur və həmin işlər bu gün də səngimir. RİH başçısının müavini, Sosial-iqtisadi inkişafın təhlili və proqnozlaşdırılması şöbəsinin müdiri Arzu Qocayev deyir ki, 2025-ci il rayon sakinləri üçün yaddaqalan olacaq. Yenidənqurma və abadlıq sahəsində başlanan işlərin çox hissəsi artıq yekunlaşmış, bir çox işə isə start verilmişdir. Öyrəndik ki, şəhərdə görülmüş abadlıq işləri çərçivəsində Heydər Əliyev xiyabanında cari təmir işləri aparılmış, o cümlədən səki daşları yenilənmiş, yeni gül dibçəkləri quraşdırılmış, işıq dirəkləri yenilənmiş və yeni dekorativ ağaclar əkilmişdir. Bundan başqa, şəhərin mərkəzi küçələrindəki evlərin fasadlarında əsaslı təmir işləri görülmüş, su arxları və səkilər təmir edilmişdir. Gəncə-Kəlbəcər-Laçın avtomobil yolunun kənarında yerləşən yaşayış və qeyri-yaşayış obyektlərinin fasad hissələri də təmir olunmuş, yararsız dam örtükləri dəyişdirilmişdir. Şəhidlər xiyabanında da əsaslı təmir işləri aparılmışdır - səki daşları yenilənmiş, bayraq dirəyi ucaldılmış, yaşıllıqlar salınmış və müasir işıqlandırma sistemi quraşdırılmışdır.

Bunlardan başqa, ekoloji tarazlığın qorunub saxlanması üçün şəhərdaxili küçələrə, park və xiyabanlara ağaclar, çiçək və gül kolları əkilmişdir. İl ərzində rayon ərazisində təxminən 6 hektar ərazidə 10 minə yaxın ağac əkilmiş, mövcud yaşıllıqlara vaxtlı-vaxtlı aqrotexniki qulluq göstərilmişdir.

Yollara gəldikdə, Göygöl-Topalhəsənli-Şəhriyar-Zurnabad-Gəncə-Mollacəlilli avtomobil yolunun əsaslı təmiri ilə bağlı tədbirlər haqqında Prezidentin sərəncamına əsasən, 2 min nəfər əhalinin yaşadığı yaşayış məntəqələrini birləşdirən yolun əsaslı təmirinə başlanmışdır. Göygöl şəhərində də bir sıra küçə və yollar əsaslı təmir edilmiş, ümumilikdə 11380 kvadratmetr yol və səkilərə yeni asfalt örtüyü salınmışdır. Bundan əlavə, Göygöl şəhərinin küçə, meydan və dalanlarında 2 min kvadratmetr yararsız asfalt örtüyündə təmir-bərpa işləri aparılmışdır. Heydər Əliyev adına mədəniyyət və istirahət parkında isə "AzerGold" QSC-nin təşkilatçılığı ilə interaktiv kitab köşkü quraşdırılaraq oxucuların istifadəsinə verilmişdir.

Görülən işlər çərçivəsində əhalinin kommunal xidmətlərə olan ehtiyacını təmin etmək üçün kompleks tədbirlər də unudulmamışdır. Ən əsası odur ki, göygöllülər fasiləsiz olaraq elektrik enerjisi, su, təbii qaz və GPON texnologiyası üzərindən yeni, sürətli internetlə təmin edilmişlər. Suvarma sahəsi üzrə isə 8 subartezian quyusu əsaslı təmir olunmuş, "Xanarx" kanalının betonlama işlərinə başlanılmışdır. Quşqara kəndinə gələn qapalı boru su xəttinin 1000 metr hissəsi də yüksəktəzyiqli boru ilə əvəzlənir. Artıq işlərin yarısı yekunlaşmışdır.

Sakinlərin elektrik enerjisi ilə təminatının yaxşılaşdırılması üçün isə yeni tikilmiş elektrik yarımstansiyasına SIP3 kabellə 110 kilovoltluq yeni elektrik xətti çəkiliir. Bundan savayı, Göygöl-Toğanalı avtomobil yolunun kənarındakı 100 beton dayaq metal dayaqla əvəz olunmuş, 35 kilovoltluq Çiçəkli hava elektrik xəttinin 2 kilometr hissəsinin yeraltı kabel xəttinə keçirilməsi işlərinə başlanmışdır.








Toğanalıdan söz düşmüşkən onu da qeyd edək ki, kənd ərazisində "Heaven Resort & Hotel" hoteli istifadəyə verilmişdir. Eyni vaxtda 150 qonaq qəbul etmək imkanı olan 48 nömrədən ibarət bu turizm obyektində hər cür şərait yaradılmışdır. Hotel unikal təbiət mənzərəsi və təmiz atmosferi ilə qonaqların diqqətini cəlb edir. Müəssisənin bir üstünlüyü də Göygöl Milli Parkına yaxın olmasıdır. Turizm mərkəzində 21 nəfər daimi iş yeri ilə təmin olunmuşdur.

Söz ki turizmdən düşdü, avqust ayında rayonun Yeni Zod kəndi ərazisində keçirilən IV Milli Yaylaq Festivalını xatırlatmamaq insafsızlıq olardı. Festivalın davam etdiyi 3 gün ərzində 285 minə yaxın turist "Xan yurdu", "Cıdır meydanı", "Yaylaq bazarı", "Sənətkarlıq guşəsi", "Dədə Qorqud ocağı", "Pəhləvan meydanı", "Aşıq Ələsgər ocağı", "Yaylaq süfrəsi" və digər tematik sahələrlə tanış olmuşdur.

Elə həmin ay Keşkü kəndi ərazisində keçirilən II Moruq Festivalına isə 61 mindən çox qonaq qatılmışdır. Festival çərçivəsində təşkil edilən moruq və digər kənd təsərrüfatı məhsullarından ibarət yarmarka, sənətkarların əl işləri, folklor və idman tədbirləri, rəqs və mahnı proqramları, kamp ərazisi, eləcə də maraqlı müsabiqələr tədbiri daha rəngarəng etmişdir.

Oktyabrda keçirilən "Göygöl Brendi-Konyak Günü" də yaddaqalan olmuşdur. 2500-dən çox qonağın iştirak etdiyi tədbirin açılış hissəsində Almaniya, İsveç, Latviya, Avstriya, İsveçrənin Azərbaycandakı səfirləri və digər rəsmi qonaqlar iştirak etmişlər. Tədbirdə müxtəlif konyak və üzüm məhsullarının təqdimatı, dequstasiyası və satış yarmarkalarının təşkili, içki istehsalı üzrə ustad dərsləri və brend üzrə peşəkar yarışlar keçirilmiş, tədbir iştirakçıları üçün zövqlü musiqi proqramları, klassik musiqi axşamları, milli mətbəx guşələri, əl işləri sərgiləri təşkil olunmuşdur.

*Sabir ƏLİYEV,*
*"Azərbaycan"*

## Qarabağın qurucularına sertifikatlar təqdim edilmişdir

**"Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı" çərçivəsində Bərdə Dövlət Peşə Təhsil Mərkəzində qısamüddətli təlimləri uğurla başa vuran müdavimlərlə görüş keçirilib.**




Tədbirdə aqronom-texnik, frezerçi, tornaçı, bağban dekorator, genişprofilli traktorçu, maşinist, təmirçi çilingər, kənd təsərrüfatı maşın və avadanlıqları üzrə çilingər, rəqəmli idarə olunan dəzgahların operatoru və baytar köməkçisi ixtisasları üzrə təlimləri uğurla başa vurmuş 95 müdavimə əmək fəaliyyətinə başlamağa imkan verən sertifikatlar təqdim olunub.

Bərdə Dövlət Peşə Təhsil Mərkəzində aqronom-texnik, baytar köməkçisi, elektrik-qaz qaynaqçısı, kənd təsərrüfatı maşın və avadanlıqlarının təmiri üzrə çilingər, mühasib, bağban dekorator, mebel ustası, frezerçi, tornaçı, rəqəmli və proqramla idarə olunan dəzgahların operatoru, kibertəhlükəsizlik üzrə mütəxəssis və digər ixtisaslar üzrə qısamüddətli təlimlər keçirilir. Cari ildə Bərdə şəhərində məskunlaşan 301 nəfər məcburi köçkün bu təlimlərə cəlb edilib. Təlimlərin müddəti təlim proqramlarının tələblərinə uyğun olaraq 1 aydan 3 ayadəkdir.

Proqramları nəzəri biliklərin və praktik bacarıqların inteqrasiyası əsasında hazırlanmış təlimlərin əsas məqsədi Böyük Qayıdışa dair I Dövlət Proqramı çərçivəsində işğaldan azad edilmiş ərazilərə qayıdan əhalinin kvalifikasiyalarının artırılması yolu ilə davamlı məşğulluğunun təmin olunmasıdır.

*Lazım QULİYEV,*
*"Azərbaycan"*

## Şirvanda payız-qış mövsümünə hazırlıq müzakirə olunub

**Şirvan Şəhər İcra Hakimiyyətində idarə, müəssisə və təşkilatların, xidmət sahələri rəhbərlərinin iştirakı ilə ŞİH başçısı yanında şuranın növbəti iclası keçirilib.**

İclasda payız-qış mövsümünə hazırlıqla bağlı görülən işlər və qarşıda duran vəzifələr ətrafında geniş müzakirələr aparılıb. ŞİH-in başçısı İlqar Abbasov payız-qış mövsümünə hazırlığın vəziyyəti ilə əlaqədar şəhər təsərrüfatında görülən işlər və görülməsi nəzərdə tutulan məsələləri diqqətə çatdırıb.

Çıxış edən ŞİH başçısının müavini, Şəhər təsərrüfatı şöbəsinin müdiri Orxan İbrahimov müzakirə olunan məsələ barədə ətraflı məlumat verib. Bildirib ki, şəhərin idarə, müəssisə və xidmət təşkilatlarında qışa hazırlığın vəziyyəti araşdırılıb, əhalinin payız-qış aylarında fasiləsiz təbii qaz, su, elektrik enerjisi, nəqliyyat vasitələri ilə təmin olunmasında nöqsan və çatışmazlıqların aradan qaldırılması istiqamətində bir sıra işlər görülüb.

Daha sonra geniş müzakirələr aparılıb, aidiyyəti qurumların rəhbərləri çıxış edərək görülmüş işlər və çətinliklər barədə məlumat veriblər. Sonda müşavirə iştirakçılarına mövcud çatışmazlıqların aradan qaldırılması, payız-qış mövsümünə hazırlığın gücləndirilməsi və qarşıda görüləcək işlərin yüksək keyfiyyətlə icra olunması ilə bağlı müvafiq tapşırıqlar verilib.

*S.QUBADOĞLU,*
*"Azərbaycan"*

## Masallıda "Məkr və məhəbbət"

**Masallı şəhər Heydər Əliyev Mərkəzində Lənkəran Dövlət Dram Teatrının aktyorlarının ifasında klassik alman ədəbiyyatının zirvəsi sayılan Fridrix Şillerin "Məkr və məhəbbət" əsəri tamaşaçılara təqdim edilib.**

Rayon rəhbərliyi, hüquq-mühafizə orqanları, idarə, müəssisə və təşkilatların nümayəndələrinin də tamaşaçı qismində qatıldıqları dram əsəri böyük maraqla qarşılanıb.

"Məkr və məhəbbət" əsəri sevgi və cəmiyyətin sərt qanunları arasında qalmış iki gəncin - zadəgan ailəsindən olan Ferdinand və sadə musiqiçinin qızı Luizanın faciəvi məhəbbət hekayəsini nəql edir. Əsər təbii, dramatik dialoqları və kəskin qarşıdurmaları ilə klassik alman dramaturgiyasının seçilmişlərindən sayılır.

Tamaşadan sonra RİH-in başçısı Araz Əhmədov Lənkəran Dövlət Dram Teatrının direktoru, Əməkdar mədəniyyət işçisi və Dağıstan Respublikasının Əməkdar artisti Laləzar Hüseynovaya və kollektivə möhtəşəm quruluşa görə təşəkkürünü bildirib.

*"Azərbaycan"*

BEYNƏLXALQ HƏYAT

# Tailandın baş naziri Kamboca ilə qarşıdurma fonunda parlamenti buraxıb

**Tailandın baş naziri Anutin Çarnvirakul Kral Maha Vajiralonqkornun təsdiqini aldıqdan sonra parlamentin aşağı palatası olan Nümayəndələr Palatasını buraxıb. Bu, Kamboca ilə davam edən sərhədyanı qarşıdurmalar fonunda baş verib.**



Qanuna görə, seçkilər kral namizədliyinin təsdiqlənməsindən 45-60 gün sonra keçirilməlidir və bu müddət ərzində Anutin hökumətə məhdud səlahiyyətləri olan müvəqqəti sədr kimi yeni büdcəni təsdiq etmək hüququ olmadan rəhbərlik etməyə davam edəcək.

Bu addım həssas siyasi bir məqamda atılıb, çünki Tailand uzun müddətdir mübahisəli sərhəd iddiaları səbəbindən Kamboca ilə genişmiqyaslı hərbi əməliyyatlar aparır. Son bir neçə həftə ərzində döyüşlərdə 20-dən çox insanın həlak olduğu və hər iki tərəfdən yüz minlərlə insanın zorla didərgin salındığı bildirilir.

Anutin Çarnvirakul Tailandın baş naziri vəzifəsində cəmi 3 ay çalışıb və cəmi bir il xidmət etmiş Paetonqtarn Şinavatranı əvəz edib. O, əsas müxalifət olan Xalq Partiyasının dəstəyi ilə sentyabr ayında keçirilən parlament seçkilərində qalib gəlib və bunun əvəzində parlamenti 4 ay ərzində buraxmaq və seçilmiş təsis məclisi tərəfindən yeni Konstitusiyanın hazırlanması üçün referendum keçirmək vədi verib.

Mütərəqqi platformada fəaliyyət göstərən Xalq Partiyası uzun müddətdir ki, hərbi hakimiyyət dövründə tətbiq edilən Konstitusiyaya dəyişikliklər etməyə çalışır və onu daha demokratik hala gətirəcəyini iddia edir. Xalq Partiyası Nümayəndələr Palatasında ən çox yerə sahibdir və Phumcaithay Partiyasının əsas rəqibi hesab olunur.

Anutin əvvəlki hökumətdə xidmət edib, lakin Kamboca ilə sərhəddəki gərginliklə bağlı siyasi qalmaqaldan sonra iyun ayında istefa verib və partiyasını koalisiya hökumətindən çıxarıb.

Tailandın keçmiş baş naziri Taksin Şinavatranın qızı Paetonqtarın iyul ayında baş verən silahlı münaqişədən əvvəl Kamboca Senatının spikeri Hun Senlə siyasi cəhətdən güzəştə gedən məzmunlu telefon danışığı ilə bağlı etik pozuntularda günahkar bilindikdən sonra vəzifəsindən kənarlaşdırılıb. İndi isə Tailand yenidən Kamboca ilə ağır döyüşlərə girdiyindən, Anutin millətçi hisslərə müraciət edərək aqressiv hərbi mövqe tutub və Tailandın suverenliyi və təhlükəsizliyi təmin olunana qədər mübarizəsini davam etdirəcəyini bildirib.

İyul ayında beşgünlük sərhədyanı döyüşlərdən sonra ABŞ Prezidenti Donald Tramp iki ölkəni atəşkəs barədə razılığa gəlməyə məcbur edib və əks halda onları ticarət imtiyazlarını ləğv etməklə hədələyib. Bu həftə yenidən genişmiqyaslı döyüşlər başladıqdan sonra D.Tramp növbəti dəfə iki ölkə arasında sülh gətirəcəyinə söz verib.

*Rizvan CƏFƏROV,*
*"Azərbaycan"*

# Bilmək istəyirəm

***Qaz xətləri çəkilərkən əgər hər hansı bir evin və yaxud obyektin qapısından keçirsə, boru hündürlüyə qaldırılaraq çəkilməlidir, yoxsa torpağın altından keçirilməlidir? Hər dəfə kəndə gedəndə darvazaların qarşısından keçən borunun torpaq altında olması məni narahat edir, çünki üzərindən maşın da keçir, bəzən yağışlı-qarlı havada su da yığılır. Bu, texniki normalara uyğundurmu? Bilmək istədiyim odur ki, qeyd etdiyim hallarda boru qayda-qanunla necə çəkilməlidir?***

***Minurə BABAYEVA,***
***Ağsu rayonu***

✓ - Qanunvericiliyə - "Qaz təchizatında mühafizə zonaları və təhlükəsizlik tədbirləri Qaydalarının təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarına əsasən, qaz kəmərləri binaların divarı boyu çəkilərkən qapı və pəncərə boşluqları ilə kəsişməməlidir. Yüksəktəzyiqli qaz kəmərləri yalnız qapı, pəncərə və sair boşluğu olmayan bütöv divarlarla və ya istehsalat binalarının yuxarı mərtəbələrinin pəncərələrinin üstü ilə çəkilə bilər. Yəni qaz borusunun birbaşa qapıdan və ya pəncərədən keçirilməsi qadağandır. Əgər belə bir vəziyyət yaranarsa, boru ya divarın bütöv hissəsindən, ya da torpağın altından, xüsusi futlyarda keçirilməlidir. Qapıdan və ya pəncərədən borunun keçirilməsi yalnız istisna hallarda, texniki əsaslandırma olduqda və müvafiq normativ tələblərə uyğun olaraq mümkündür, lakin əsas prinsip - qapı və pəncərə boşluqları ilə kəsişmənin yolverilməzliyidir. Bu qaydanın pozulması inzibati məsuliyyətə səbəb ola bilər. Praktikada təhlükəsizlik və istismar qaydalarına uyğun olaraq, qaz boruları qapıdan keçməməli, ya divarın bütöv hissəsindən, ya da yeraltı xüsusi qoruyucu futlyarda çəkilməlidir. Beləliklə, sualınıza cavab olaraq bildiririk ki, əgər normativlərə uyğun çəkilmişdirsə, qaz borusunun torpaq altından çəkilməsi qanunvericiliklə qadağan deyildir.

***Yaşadığımız mənzil özəlləşdirilib. Qonşularda da özəlləşmiş mənzildir. Amma Mənzil-Kommunal İstismar Sahəsinin (MKİS) işçiləri hər həftə qapı-qapı gəzərək "ev pulu" tələb edirlər. Bu hərəkət nə dərəcədə doğrudur? Biz onların tələbini yerinə yetirməyə məcburuq? MKİS, demək olar ki, heç kimlə müqavilə bağlamayıb. Qanuna görə, bu məsələ necə tənzimlənir?***

***Yeganə XUDİYEVA,***
***Bakı şəhəri***

✓ - Azərbaycan Respublikasının Mənzil Məcəlləsinin tələbinə uyğun olaraq, özəlləşdirilmiş mənzillərin (evlərin) mülkiyyətçiləri yalnız xidmət göstərən təşkilatla yazılı müqavilə bağladıqları halda, həmin təşkilata "ev pulu" və digər xidmət haqları ödəməyə borcludurlar. Dövlət mənzil-istismar və təmir-tikinti təşkilatları (el arasında - "JEK"-lər) özəlləşdirilmiş mənzillərə yalnız müqavilə əsasında xidmət göstərə bilər və sakinlər istənilən təşkilatı sərbəst seçmək hüququna malikdirlər. Müqavilə olmadan Mənzil Kommunal İdarəsinin pul tələb etməsi qanunsuzdur və sakinlər bu tələbi yerinə yetirməyə məcbur deyillər. Praktikada yalnız müqavilə bağlandıqdan sonra xidmət haqqı ödənilməlidir və bu, Mənzil Məcəlləsi və aidiyyəti qərarlarla təsdiqlənir.

**Sualları cavablandırdı:**
**Fərhad NƏCƏFOV,**
**Azərbaycan Respublikası Vəkillər Kollegiyasının üzvü**



Foto İlham BABAYEVİNDİR

**Yaşadığımız acılı-şirinli ömrümüzün elə anları, elə günləri, elə illəri var ki, onları heç vaxt unuda bilmirik. Həyatımızın həmin dövrünü tez-tez gözlərimiz önündə canlandırırıq və bu zaman sanki xatirələrimiz gözlərini asta-asta açıb mürgülü yuxudan oyanır. Çöhrəmiz işığa, nura boyanır.**

Bu, unudulmayan, yaddan çıxmayan, həmişə yaddaşımızda diri qalan, tez-tez gözlərimiz önündə canlanan ömrümüzün uşaqlıq illəridir. Dəcəlliklə, şənliklə, enerji ilə, səs-küylə dolub-daşan, sədləri, sərhədləri bir göz qırpımında aşan, gələcəklə qucaqlaşan, dünyaya sığmayan uşaqlıq illəri. Ömrümüzün ilk addımları, şüurlu həyatımızın başlanğıcı, bizi gələcəyə aparan gen cığırları, həyatımızın ötüb arxada qalan ən şirin, qayğısız çağları. Danışdıqca sonu görünməyən, söhbət açdıqca tamamlanmayan, gözümüzün qarşısından heç vaxt, heç yerə getməyən uşaqlıq illəri. O uşaqlıq illəri ki zamanımızı bir-birindən maraqlı oyunlarla keçirərdik. Bağ-bağatda yorulmadan qaçardıq, çəpərlərin, hasarların üstündən aşardıq. Yorulunca dağ-dərəni dolaşardıq, oynadıqca oynayardıq, amma doymazdıq, ayağımızı qatlayıb bir yerdə durmazdıq.

Üstündən uzun illər keçəndən sonra indi o günlərin, o anların həsrətini çəkirik, o çağlar üçün burnumuzun ucu göynəyir. Hərdən o illər üçün çox darıxanda özümüzdə güc tapıb zamanı geri qaytarıb o günlərə əl uzatmaq, sanki yenidən uşaq olmaq, təzədən o çağları yaşamaq istəyirik, təbiətdən möcüzə gözləyirik. Heç vaxt, heç zaman dəcəlliklə, şənliklə dolu olan o illəri, o günləri unuda bilmirik.

Heç o illəri, o günləri unutmaqmı, yaddan çıxarmaqmı olar? Çünki həmin illər əbədi olaraq yaddaşımıza həkk olunub, qəlbimizdə, ürəyimizdə dərin kök salıb. O səbəbdən həmin illəri xatırladıqca xatırlamaq, baxdıqca baxmaq istəyirik. Xatirələrin problemsiz, dərdsiz səhifələrindən gözümüzü çəkmək istəmirik. Bu anlar arzularımız o illərdən, o günlərdən su içir, ürəyimizdən o çağlara dönmək keçir. Amma təəssüflər olsun ki, bu mümkün deyil. Şair havayı yerə yazmayıb:

*Ötən günlərimi qaytaraydılar,*
*Gələn günlərimi qurban verərdim.*

Lakin nə edəsən ki, zaman o illəri, o günləri əlimizdən birdəfəlik alıb aparıb, sanki o çağları zorla ömrümüzdən qoparıb. Nə yaxşı ki həmin illər xatirələrimizdə yaşayır. Yoxsa neynərdik?

*Vahid MƏHƏRRƏMOV,*
*"Azərbaycan"*


OXUCULARIN VƏ MƏTBUAT YAYIMI TƏŞKİLATLARININ NƏZƏRİNƏ!

"AZƏRBAYCAN" *qəzetinə abunə yazılışı davam edir!*

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| *"Azərpoçt" MMC* | *(012) 598-49-55, (051) 225-02-13* |
| *"Azərmətbuatyayımı" ASC* | *(012) 441-19-91, (050) 322-33-17* |
| *"Qaya" firması* | *(012) 566-77-80, (050) 214-40-53* |
| *"Region Press" MMC* | *(055) 316-79-01, (050) 316-79-01* |
| *"Səma-M" MMC* | *(012) 594-09-59* |
| *"Ziya" LTD* | *(012) 497-76-96, (050) 306-77-22* |
| *"Pressinform" MMC* | *(012) 598-49-52, (070) 340-01-00* |
| *"City press" MMC* | *(055) 819-09-26* |

**1 illik -156** (yüz əlli altı) **manat**
**6 aylıq - 78** (yetmiş səkkiz) **manat**
**3 aylıq - 39** (otuz doqquz) **manat**
**1 aylıq - 13** (on üç) **manat**




**Hörmətli oxucular!**

*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya **(Tel.: (012) 539-59-33)** zəng vura bilərsiniz.*



Azercell abunəçilərinin nəzərinə!

"Azercell Telekom" MMC tərəfindən göstərilən xidmətlərin keyfiyyətinin daha da artırılması məqsədilə aparılacaq təkmilləşdirmə işləri ilə əlaqədar 16.12.2025-ci il tarixi saat 23:00-dan etibarən 17.12.2025-ci il tarixi gecə saatları ərzində bəzi xidmətlərin istifadəsində müvəqqəti çətinliklərin yaranması mümkündür. Təkmilləşdirmə işləri yekunlaşdıqdan sonra xidmətlərdən tam normal əsaslarla istifadə edilməsi imkanı təmin ediləcəkdir.



Azercell

abunəçilərinin nəzərinə!

"Azercell Telekom" MMC tərəfindən təqdim olunan xidmətlərin keyfiyyətinin daha da yüksəldilməsi, müştərilərə təklif olunan xidmət və tariflərin optimallaşdırılması məqsədilə 13.01.2026-cı il tarixdən etibarən əldə edilən 1 AZN Simkredit üçün 0,30 AZN, 2 AZN Simkredit üçün 0,60 AZN, 2 AZN Simtaksit üçün 0,60 AZN, 3 AZN Simkredit üçün isə 0,90 AZN xidmət haqqı tətbiq ediləcək. Eyni zamanda "Simkredit", "Simtaksit", "Ekstra kredit" və "İnternet kredit" xidmətləri çərçivəsində göndərilən hər sorğuya 0,12 AZN haqq tətbiq ediləcək.

**Qeyd:** Abunəçilər göstərilən dəyişikliklər, tarif və internet paketlərinin şərtləri, sifarişi, başqası ilə əvəzetmə və imtina qaydası barədə, o cümlədən "Azercell Telekom" MMC tərəfindən təqdim edilən xidmətlər, tariflər və keçirilən kampaniyalar barədə ətraflı məlumatları rəsmi internet səhifəmizdən (**www.azercell.com**), həmçinin Müştəri Xidmətlərinə (MX ofisləri, həftənin 7 günü 24 saat ərzində fəaliyyət göstərən Telefon Mərkəzi) müraciət etməklə əldə etmək imkanına malikdirlər.



«AZƏRBAYCAN» qəzetinin reklam xidməti
539-49-20



**Qəzetin daim yenilənən rəsmi internet ünvanı:**
**www.azerbaijan-news.az**


# Bakıda hava əsasən yağmursuz keçəcək, bəzi rayonlarda leysan olacaq

**Milli Hidrometeorologiya Xidmətindən AZƏRTAC-a verilən məlumata görə, bu gün Bakıda və Abşeron yarımadasında hava şəraitinin dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən yağmursuz keçəcəyi gözlənilir. Lakin axşam bəzi yerlərdə yağış yağacağı ehtimalı var. Mülayim cənub-qərb küləyi günün ikinci yarısında arabir güclənən şimal-qərb küləyi ilə əvəzlənəcək.**



Havanın temperaturu gecə 6-9, gündüz 11-13 dərəcə isti olacaq. Atmosfer təzyiqi 760 millimetr civə sütunundan 754 millimetr civə sütununa enəcək. Nisbi rütubət gecə 80-85, gündüz 60-65 faiz təşkil edəcək.

Azərbaycanın rayonlarında əsasən gecə və axşam bəzi yerlərdə havanın arabir yağıntılı olacağı proqnozlaşdırılır. Ayrı-ayrı yerlərdə leysan xarakterli intensiv olacağı, qar yağacağı ehtimalı var. Arabir duman müşahidə ediləcək. Qərb küləyi gündüz bəzi yerlərdə arabir güclənəcək.

Havanın temperaturu gecə 4-9, gündüz 10-15 dərəcə isti, dağlarda gecə 0-5 dərəcə şaxta, gündüz 4-7 dərəcə isti olacaq.

## ALLAH RƏHMƏT ELƏSİN!

Azərbaycan Respublikası Milli Məclisinin deputatı Səttar Möhbalıyev Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Eldar Əzizova əzizi

**ELMAN HƏSƏNOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.


BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Əlaqə telefonları:

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman və informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| Baş redaktor müavinləri | - 538-86-86, 539-72-39 | Humanitar siyasət şöbəsi | - 538-56-60, 434-55-58 |
| Məsul katib | - 539-43-23, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Məsul katib müavinləri | - 539-44-91, | Kompüter mərkəzi | - 538-20-87, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Mühasibatlıq | - 539-59-33 |
| İqtisadiyyat şöbəsi | - 538-42-32, 538-35-55, | | |

*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, "Azərbaycan" nəşriyyatı, IV mərtəbə*

az.reklam@mail.ru



www.azerbaijan-news.az

Qeydiyyat № 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap edilmişdir

Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır

Gündəlik rəsmi dövlət qəzeti

Tiraj 4131
Sifariş 2501

Qiyməti 60 qəpik